# 28 May Müstəqillik Günüdür!


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 112 (30228) 28 may 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Dünya miqyasında birinci müsəlman demokratik respublikası Azərbaycanda yaradılmışdır. Bu, özlüyündə xalqımızın nə qədər mütərəqqi və istedadlı olduğunu bir daha göstərirdi.**

# Qarabağa qayıdışın təməl layihələri uğurla gerçəkləşir

## Azərbaycan Prezidenti İlham Əliyevin Kəlbəcər və Laçın rayonlarına səfəri

### Kəlbəcərin Yanşaq kəndi yenidən tikiləcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Kəlbəcər və Laçın rayonlarına səfər edib.**



Səfər çərçivəsində dövlətimizin başçısı Kəlbəcər rayonunun Yanşaq kəndinin təməlini qoyub.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Azərbaycan Prezidentinə kənddə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Yanşaq kəndində, ümumilikdə, 421 ailənin məskunlaşması planlaşdırılıb. Yaşayış məntəqəsinin salınması üçün 20 illik perspektiv və həmin müddətdən sonrakı inkişaf nəzərə alınmaqla 121 hektardan çox torpaq sahəsinin ayrılması nəzərdə tutulub. Birinci mərhələdə kəndə 218 ailənin köçürülməsi üçün birmərtəbəli fərdi evlərin inşası planlaşdırılır. Tikiləcək 218 evin 50-si ikiotaqlı, 112-si üçotaqlı, 41-i dördotaqlı və 15-i beşotaqlı olacaq. Burada, həmçinin 264 şagird yerlik məktəb, 80 yerlik uşaq bağçası tikiləcək.



Qeyd olundu ki, Yanşaq kəndində əhalinin məşğulluğunun və istirahətinin təmin edilməsi üçün hər cür şərait yaradılacaq, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Burada evlərin və küçələrin işıqlandırılmasında "yaşıl enerji"dən istifadə olunacaq.

Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, bütün işlər ən yüksək səviyyədə yerinə yetiriləcək.

Sonra Azərbaycan Prezidenti kəndin inkişaf planı barədə videoçarxa baxdı.

Daha sonra Prezident İlham Əliyev Yanşaq kəndinin təməlini qoydu.

### Zallar kəndində 487 ailə məskunlaşacaq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Kəlbəcər rayonunun Zallar kəndinin təməlqoyma mərasimində iştirak edib.**

Dövlətimizin başçısına kəndin layihəsi barədə məlumat verildi.

Qeyd olundu ki, Zallar kəndində ümumilikdə 487 ailənin məskunlaşması nəzərdə tutulub. Yaşayış məntəqəsinin salınması üçün 20 illik perspektiv və həmin müddətdən sonrakı inkişaf nəzərə alınmaqla 137 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 350 ailənin köçürülməsi üçün birmərtəbəli fərdi evlərin inşası planlaşdırılır. Tikiləcək 350 evin 100-ü ikiotaqlı, 167-si üçotaqlı, 57-si dördotaqlı, 26-sı isə beşotaqlı olacaq. Burada, həmçinin 360 şagird yerlik məktəb, 120 yerlik uşaq bağçası inşa ediləcək.

Məlumat verildi ki, Zallar kəndində əhalinin məşğulluğunun və istirahətinin təmin edilməsi üçün hər cür şərait yaradılacaq, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Burada evlərin və küçələrin işıqlandırılmasında "yaşıl enerji"dən istifadə olunacaq.

Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, bütün işlər ən yüksək səviyyədə yerinə yetiriləcək.

Sonra Azərbaycan Prezidenti kəndin inkişaf planı barədə videoçarxa baxdı.

Daha sonra Prezident İlham Əliyev Zallar kəndinin təməlini qoydu.

## Azərbaycanın dövlət müstəqilliyi xalqımızın ən böyük sərvətidir

### Biz o sərvəti 105 il qorumuşuq, indi də qoruyuruq və dünya durduqca qoruyacağıq

***Ulu öndər Heydər Əliyev "Azərbaycanın dövlət müstəqilliyi xalqımızın ən böyük sərvətidir" ifadəsini işlədəndə müstəqilliyimiz olduqca kövrək, iqtisadiyyatımız dərin böhran içərisində, ordumuz pərakəndə, siyasətimiz isə çoxlarının inanmadığı və etimad göstərmədiyi bir səviyyədə idi. Ancaq ümummilli liderimiz 1994-cü ildə sanki 2023-cü ildəki uğurlarımızı görürmüş kimi deyirdi: "Mən sizi əmin edirəm ki, biz qüdrətli Azərbaycan dövləti yaradacağıq. O dövləti ki, xalqımızın bütün problemlərini həll edə bilsin. Mən buna inanıram".***

*(ardı 10-cu səhifədə)*

## Rusiyanın Cənubi Qafqaz vasitəçiliyi, "avrasiyaçılıq"… və Paşinyan diversiyanizmi

### Bakı mövqeyində qətidir, Moskva isə Kişineuya nikbin estafet ötürmədi

**Azərbaycan Prezidenti İlham Əliyevin Moskvaya mayın 25-dəki səfərinə iki aspektdən yanaşmaq mümkündür.**

Əlbəttə, ilk növbədə, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin görüşünü və mövcud xüsusda Bakı–İrəvan münasibətlərinin tənzimlənməsinin Moskva formatını vurğulamaq lazımdır. Nəzərə alaq ki, ölkəmizin ictimaiyyəti səfəri başlıca olaraq buna görə diqqətdə saxlayırdı. Amma ikinci vacib məqam da var. Məlum oldu ki, Rusiya Prezidenti Vladimir Putin dövlətimizin başçısını Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdəki iclasına da dəvət edib. Əlbəttə, söhbət qonaq qismində dəvətdən gedir. Yəqin, iclasın adındakı "geniş tərkibdə" ifadəsi də məhz bundan qaynaqlanmaqdadır.

*(ardı 11-ci səhifədə)*



## Prezident İlham Əliyev Müstəqillik Günü münasibətilə paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında 28 May – Müstəqillik Günü münasibətilə paylaşım edib.**

Paylaşımdakı fotonun üzərində bu sözlər yer alıb: "Müstəqillik Günü – 28 May".

***AZƏRTAC***

# “Qamışlı” Kiçik Su Elektrik Stansiyası işə salınıb





**Mayın 27-də Kəlbəcər rayonunda “Qamışlı” Kiçik Su Elektrik Stansiyasının açılışı olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev stansiyanın açılışında iştirak edib.

“AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verdi.

Kəlbəcəri tərk edərkən ermənilərin avadanlıqlarını daşıyaraq tamamilə dağıtdıqları “Qamışlı” Kiçik Su Elektrik Stansiyası da “AzərEnerji” tərəfindən tamamilə yenidən tikilib. Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərin yaşıl enerji zonasına çevrilməsi ilə bağlı strategiyasına uyğun olaraq yaradılan 6,3 meqavat gücündə “Qamışlı” Kiçik Su Elektrik Stansiyası üçün maşın zalı inşa edilib.

Bildirildi ki, “Qamışlı” stansiyası da daxil olmaqla indiyədək azad edilən ərazilərdə tikilmiş və tikilən su elektrik stansiyalarının hər birində çayın 50 faiz təminatı nəzərə alınmaqla ekoloji normanın saxlanılması üçün derivasiya boruları çayın axını ilə paralel quraşdırılıb. Burada boru ilə axan su da yenidən çaya buraxılır. Bütün yerlərdə, o cümlədən, “Qamışlı” stansiyasında da su ehtiyatlarından səmərəli istifadə olunması, daşqınların qarşısının alınması və su itkisinə yol verilməməsi üçün çayın məcrasına uyğun idarəolunan suqəbuledicilər tikilib. Eyni zamanda, təbii mühitin, flora və faunanın qorunması da aidiyyəti dövlət qurumları ilə razılaşdırılmış şəkildə xüsusi diqqətdə saxlanılıb.

Prezident İlham Əliyev “Qamışlı” Kiçik Su Elektrik Stansiyasını işə saldı.

İki hidroaqreqatdan ibarət “Qamışlı” stansiyasında 110 kilovoltluq yarımstansiya yaradılıb. Burada enerjisistemə tam inteqrasiya olunmaqla məsafədən idarəetməyə imkan verən mərkəzləşmiş SCADA sistemi qurulub. Stansiyada Avropanın aparıcı şirkətlərinin istehsalı olan müasir hidroturbinlər, generatorlar, idarəetmə, rele mühafizəsi və avtomatika panelləri quraşdırılıb.

“Qamışlı” Kiçik Su Elektrik Stansiyasında, ümumilikdə, il ərzində 18,5 milyon kilovat-saat ekoloji cəhətdən təmiz yaşıl hidroenerjinin istehsal edilməsi nəzərdə tutulur.

# Kəlbəcər və Laçında yeni tunellər və avtomobil yolları ilə tanışlıq

**Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uzunluğu 82 kilometr olan Toğanalı–Kəlbəcər–İstisu avtomobil yolunda inşa edilmiş tunellər və 2021-ci ilin noyabrından 2023-cü ilin mayınadək, ümumilikdə, bu yolda və uzunluğu 76 kilometr olan Kəlbəcər–Laçın avtomobil yolunda görülən işlərlə tanış olub.**



Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər haqqında məlumat verdi.

Bildirildi ki, Toğanalı–Kəlbəcər–İstisu avtomobil yolunun tikintisi sürətlə davam etdirilir. I, II və III texniki dərəcəli yol iki, üç və dörd hərəkət zolağından ibarət olacaq. Bu yolun üzərindəki 5 tunelin ümumi uzunluğu 25,9 kilometrdir. Tunellərin 12,3 kilometrlik hissəsində qazma işləri tamamlanıb. Buradakı ən uzun tunel Murov dağının altından keçir. Həmin tunelin uzunluğu 11,6 kilometrdir.

Qeyd edək ki, Toğanalı–Kəlbəcər–İstisu avtomobil yolu başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə Kəlbəcər rayonunun ərazisindən keçir. Buna görə də yol rayonun bir çox yaşayış məntəqələri ilə yanaşı, Kəlbəcər şəhərinə və məşhur İstisu ərazisinə qədər rahat gediş-gəlişə imkan yaradacaq.



Məlumat verildi ki, uzunluğu 76 kilometr olan Kəlbəcər–Laçın avtomobil yolu mövcud yoldan 33,1 kilometr qısadır. I və II texniki dərəcəli bu yol ikizolaqlı və dördzolaqlı olmaqla inşa edilir. Bu yolun üzərində 17 tunelin inşası nəzərdə tutulur. Tunellərin ümumi uzunluğu 13,3 kilometrdir. Bundan başqa, yol üzərində ümumi uzunluğu 4,1 kilometr olan 23 körpü və ümumi uzunluğu 1076 metr təşkil edəcək 3 qovşaq inşa olunacaq.

# “Meydan” Kiçik Su Elektrik Stansiyasının açılışı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Kəlbəcər rayonunda “Meydan” Kiçik Su Elektrik Stansiyasının açılışını edib.**



Dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, alternativ və bərpaolunan enerji mənbələrinə keçidin sürətləndirilməsi, su ehtiyatlarından səmərəli istifadə olunması, işğaldan azad edilən ərazilərin yaşıl enerji zonasına çevrilməsi ilə bağlı Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Kəlbəcər rayonunun ərazisində Tərtərçayın sol qolu olan Meydan çayının üzərində 3,4 MVt-lıq kiçik su elektrik stansiyası tam yenidən qurulub. Ermənilər tərəfindən partladılaraq yandırılan və avadanlıqları daşınan bu stansiyanı “AzərEnerji” daha müasir və rəqəmsal qaydada yenidən qurub. Burada yeni maşın zalı tikilib, müasir hidroaqreqatlar, generatorlar, idarəetmə, rele mühafizəsi və avtomatika panelləri quraşdırılıb. 1590 metr yüksəklikdə yerləşən baş suqəbuledici qurğu, eləcə də 4564 metr uzunluğunda derivasiya borusu tam yenidən qurulub.



“Meydan” Su Elektrik Stansiyası enerjisistemə inteqrasiya olunmaqla məsafədən idarəetməyə imkan verən mərkəzləşmiş SCADA sisteminə qoşulub. Bununla da stansiyanın idarəetmə sistemi avtomatlaşdırılıb, xüsusi proqram təminatı ilə rəqəmsallaşdırılaraq müasir formaya keçirilib. Eləcə də ərazidə fors-major hallar üçün 45 kVA gücündə ehtiyat dizel generatoru quraşdırılıb. Yenidən qurulan “Meydan” Kiçik Su Elektrik Stansiyasında il ərzində 10 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq.

Prezident İlham Əliyev “Meydan” Kiçik Su Elektrik Stansiyasını işə saldı.

Diqqətə çatdırıldı ki, işğaldan azad olunan ərazilərdə “AzərEnerji” ASC tərəfindən bu günə qədər 11 su elektrik stansiyası yenidən qurularaq bərpa edilib. Hazırda Kəlbəcər, Laçın və Zəngilanda 7 yerdə su elektrik stansiyalarının tikintisi davam edir. Eləcə də Kəlbəcər və Laçında daha 9 yerdə su elektrik stansiyalarının tikintisinə başlanılır. Ümumilikdə, bu günə kimi yenidən qurulan və yaxın perspektivdə tikilərək istismara veriləcək bu su elektrik stansiyalarının ümumi gücü 200 MVt-a yaxın olacaq və nəticədə 600 milyon kilovat-saata yaxın ekoloji cəhətdən təmiz hidroyaşıl enerji istehsal ediləcək.

# Kəlbəcərdə hərbi hospital istifadəyə verilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Kəlbəcərdə hərbi hospitalın açılışında iştirak edib.**



Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Sonra Azərbaycan Prezidenti hərbi hospitalda yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, 3,6 hektar ərazidə salınan Kəlbəcər hərbi hospitalı sülh dövrü üçün 180 çarpayılıqdır. Döyüş vəziyyəti zamanı çarpayı sayını 300-dək artırmaq mümkündür. Müasir, tam rəqəmsal, süni intellektə əsaslanan tibbi cihaz və avadanlıqlarla təchiz olunan hərbi hospitalda poliklinika, terapiya, cərrahiyyə, anesteziologiya-reanimasiya bölmələrindən ibarət birinci müalicə korpusu, yoluxucu xəstəliklər və dəri xəstəlikləri bölmələrindən ibarət ikinci müalicə korpusu, qərargah binası, eləcə də daimi tibbi oksigen təminatı üçün stansiya, camaşırxana-qazanxana, nəzarət-buraxılış məntəqəsi və yeməkxana tikilib.



Poliklinika bölməsində ixtisaslar üzrə oftalmoloq, otorinolarinqoloq, kardioloq, stomatoloq, nevroloq, psixiatr, fizioterapevt və digər kabinetlər açılıb. Təcili yardım otağında ilkin yardım göstərmək üçün hər cür şərait mövcuddur.

Hospitalda iki əməliyyat otağı fəaliyyət göstərir. Müalicə korpuslarında hərbi qulluqçulara yüksək səviyyədə tibbi xidmət göstərilməsi, o cümlədən, onların müayinə və müalicəsi üçün bütün şərait yaradılıb. Laboratoriya bölməsi ən yüksək standartlara cavab verir. Burada müasir laborator müayinə üsulları tətbiq edilməklə klinik, biokimyəvi və mikrobioloji analizlərin aparılması mümkündür.

Kəlbəcər hərbi hospitalı, həmçinin bioloji təmizləmə qurğusu, ehtiyat generator, cərrahi əməliyyatların fasiləsizliyi üçün UPS, mərkəzləşdirilmiş su, istilik və digər kommunikasiya sistemləri ilə tam təchiz olunub.

Bundan əlavə, hərbi hospitalın avtomobil parkında reanimobillər, yolsuzluq şəraitində təxliyə üçün ambulanslar, çöl şəraitində hərbi qulluqçulara tibbi xidmət göstərilməsi üçün avtomobillər var. Hərbi hospitalın ətrafındakı ərazidə yaşıllaşdırma və abadlıq işləri də görülüb.



# Kəlbəcərin ilk yaşayış məhəlləsində 460 nəfər yaşayacaq

**Mayın 27-də Kəlbəcər şəhərində ilk yaşayış məhəlləsinin təməli qoyulub.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məhəllənin təməlinin qoyulması mərasimində iştirak edib.

Dövlətimizin başçısına yaşayış məhəlləsi barədə məlumat verildi.

Bildirildi ki, yaşayış məhəlləsi 3,26 hektar ərazidə layihələndirilib. Yaşayış məhəlləsinin konsepsiyası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi ilə icra olunan Baş plan layihəsi çərçivəsində hazırlanıb. Məhəllədə dördmərtəbəli 3 və ikimərtəbəli 10 yaşayış binasının inşası nəzərdə tutulur. Burada 112 mənzildə, ümumilikdə, 460 nəfərdən çox sakin yaşayacaq. Məhəllədəki məktəbin ətrafında salınacaq yaşıllıq ərazi ictimai məkan funksiyasını yerinə yetirməklə əhalinin asudə vaxtının səmərəli keçirilməsinə xidmət edəcək.

Diqqətə çatdırıldı ki, yaşayış binalarının memarlığı ərazinin relyef xüsusiyyətlərini əks etdirməklə Alp üslubunda işlənib.

Dövlətimizin başçısı yaşayış məhəlləsinin təməlini qoydu.

# 960 şagirdlik məktəbin təməli qoyulub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Kəlbəcər şəhərində 960 şagird yerlik məktəb binasının təməlqoyma mərasimində iştirak edib.**

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad olunmuş ərazilərin bərpası prosesində müasir təhsil infrastrukturunun qurulmasına xüsusi diqqət yetirilir. Kəlbəcərdə təməli qoyulan məktəb binası ən müasir standartlara uyğun inşa olunacaq.

Qeyd edildi ki, 41 sinifdən ibarət olacaq məktəb binasında fizika, kimya, biologiya, informatika kabinetləri, müxtəlif təyinatlı səkkiz laboratoriya, akt və idman zalları, yeməkxana və digər zəruri otaqlar yaradılacaq.

Dövlətimizin başçısı Kəlbəcər şəhərində 960 şagird yerlik məktəb binasının təməlini qoydu.

# Laçın rayonunda “Qorçu” yarımstansiyasının açılışı

**Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər rayonundan sonra Laçın rayonuna səfərə gəlib.**



Dövlətimizin başçısı “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kv-luq “Qorçu” yarımstansiyasının açılışında iştirak edib.

“AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Laçın rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün rayonun Qorçu kəndində 2021-ci ildə istismara verilən “Kəlbəcər” yarımstansiyasından 42 kilometr məsafədə ikidövrəli olmaqla 110 kilovoltluq yüksəkgərginlikli ötürmə xətti çəkilib. Bəzi yerlərdə 2200 metr yüksəklikdən, dağlıq, sıldırım qayalıq, çaylaq, sıx meşəlik və ən əsası yolsuzluq şəraitində çəkilən ötürmə xətti boyunca hər birinin çəkisi orta hesabla 10 ton, hündürlüyü 40 metr olan 250-yə qədər anker və aralıq dayaq basdırılıb. 110 kilovoltluq xəttin üzərindəki ildırımötürücü funksiyalı fiberoptik kabellə internet xətti çəkilib ki, bu da enerjisistemin idarə olunmasında siqnalların etibarlı şəkildə ötürülməsi və məsafədən rəqəmsal idarəetmə üçün vacib elementdir.



Qeyd edildi ki, paralel olaraq Laçın rayonunun Qorçu kəndində dəniz səviyyəsindən 1800 metr yüksəklikdə 110/35/10 kilovoltluq müasir texnologiyalı yarımstansiya tikilib. Burada perspektiv inkişaf nəzərə alınmaqla 110 kilovoltluq açıq paylayıcı qurğu yaradılıb və Rəqəmsal İdarəetmə Mərkəzi inşa edilib. Yarımstansiya məsafədən idarə olunan SCADA dispetçer idarəetmə sisteminə qoşulmaqla tam avtomatlaşdırılıb, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğularla əlaqələndirilib. Müasir avadanlıqlarla təchiz edilərək tikilən yeni yarımstansiyada hər birinin gücü 25 MVA olan iki yeni transformator quraşdırılıb. Gələcəkdə ehtiyac yaranarsa, yarımstansiyanın transformatorlarının gücünü artırmaq mümkün olacaq.

Məlumat verildi ki, xüsusi razılaşdırılmış layihə əsasında müasir üslubda inşa edilən yarımstansiyanın idarəetmə binasında bütün parametrlər nəzərə alınıb. Sistem əhəmiyyətli “Qorçu” yarımstansiyasının ərazisində işçilər üçün yataqxana binası tikilib, lazımi şərait yaradılıb. Burada işləyən və qalmaq yeri ilə təmin edilən əməkdaşlar məhz laçınlılardır.

Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.

“Qorçu” yarımstansiyası yaxınlığında tikilən beynəlxalq hava limanının, Laçın və Kəlbəcərdəki meqalayihələrin, o cümlədən yaşayış massivlərinin, turizm və kənd təsərrüfatı infrastrukturunun enerji təchizatında xüsusi rol oynayacaq. Yaxın perspektivdə “Qorçu” yarımstansiyasından “Laçın” şəhər yarımstansiyasına 110 kV-luq ikidövrəli ötürmə xətti çəkiləcək və bununla da işğaldan azad edilən ərazilərin dairəvi elektrik təchizatı tamamlanmış olacaq.

Qeyd edək ki, “AzərEnerji” ASC tərəfindən bu günədək Qarabağda və Şərqi Zəngəzurda bir yerdə 330 kV-luq, 11 yerdə 110 kV-luq olmaqla 12 yarımstansiya tikilib, 700 kilometrə yaxın yüksəkgərginlikli ötürmə xətti çəkilib. Beləliklə, işğaldan azad olunan bütün rayonlar elektrik enerjisi ilə təmin edilib.

# Laçın: Qorçuda yeni qəsəbə salınacaq



**Mayın 27-də Laçın rayonunun Qorçu qəsəbəsinin təməlqoyma mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi Məsim Məmmədov dövlətimizin başçısına qəsəbədə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Laçın rayonunun şimal-qərbində dağlıq ərazidə, Şəlvə çayının sol qolu olan Qorçu çayının sahilində yerləşən eyniadlı qəsəbə rayon mərkəzindən 64 kilometr, Bakı şəhərindən isə 475 kilometr məsafədədir.

Qorçu qəsəbəsi Laçının Ağalaruşağı, Oğuldərə, Zağaltı, Qarabəyli, Korcabulaq, Lolabağırlı kəndləri ilə birlikdə layihələndirilir. Ümumi sahəsi 300 hektar olan qəsəbənin layihələndirilmə işləri mərhələli şəkildə aparılacaq. Birinci mərhələdə salınacaq ərazinin sahəsi 142,54 hektar təşkil edir. Müasir səviyyədə qurulacaq qəsəbənin perspektivdə rayonun yerli əhəmiyyətli mərkəzlərindən biri kimi inkişafı əsas məqsədlərdəndir.

Diqqətə çatdırıldı ki, Qorçu qəsəbəsinə birinci mərhələdə köçürüləcək əhalinin yaşayışını təmin etmək məqsədilə birmərtəbəli 366 fərdi evin tikintisi nəzərdə tutulur. Bir fərdi evin həyətyanı sahəsi 700 kvadratmetr olacaq. Ərazinin kəskin relyefli olduğunu nəzərə alaraq, perspektivdə Qorçu qəsəbəsinin inkişaf dövrü üçün dördmərtəbəli 39 yaşayış binasından ibarət məhəllələrin salınması planlaşdırılıb.

Qeyd edildi ki, qəsəbənin mərkəzində birinci mərhələdə sosial və ictimai obyektlər olan inzibati bina, klub-icma mərkəzi, kitabxana və internet zalı, tibb məntəqəsi, mehmanxana, idman-sağlamlıq mərkəzi, restoran, xalq sənətkarlığı emalatxanaları, satış köşkləri və bazar kompleksinin tikintisi nəzərdə tutulur. Qəsəbədə təhsil ocaqlarına olan tələbatı ödəmək məqsədilə, ilk növbədə, 264 yerlik məktəb və 140 yerlik uşaq bağçası, perspektivdə isə 864 yerlik məktəb və 280 yerlik uşaq bağçası tikiləcək.

Bildirildi ki, həmçinin qəsəbədə yaşayacaq əhalinin məşğulluğunun təmin olunacağı idarəetmə, mədəniyyət və əyləncə, iqtisadi inkişaf obyektləri, xidmət və kommersiya müəssisələri üçün şərait yaradılır. Yaşayış zonalarını əlaqələndirmək üçün Qorçu çayının üzərində körpülərin inşası da planlaşdırılır.

Prezident İlham Əliyev qəsəbənin təməlini qoydu.

# Şəlvə kəndində 130 ev tikiləcək





**Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın rayonunun Şəlvə kəndinin təməlqoyma mərasimində iştirak edib.**

Dövlətimizin başçısına Şəlvə kəndi barədə məlumat verildi.

Bildirildi ki, rayonun şimalında, Şəlvə çayının sahilində, dəniz səviyyəsindən 1540 metr yüksəklikdə yerləşən Şəlvə kəndindən Laçın şəhərinə qədər məsafə 55 kilometrdir. Yenidən qurulacaq yaşayış məntəqəsinin tərkibinə yaxınlıqda yerləşən İmanlar kəndi də daxil ediləcək.

Qeyd olundu ki, layihələndirilən ərazinin ümumi sahəsi 128 hektardır. Ərazidə 445 fərdi evin inşası nəzərdə tutulub. Birinci mərhələdə Şəlvə kəndinə qayıdacaq 494 sakin üçün 130 fərdi ev tikiləcək. Bundan başqa, kənd ərazisində inzibati bina, mədəniyyət evi, 264 şagird yerlik məktəb, 60 yerlik uşaq bağçası, ailə sağlamlıq mərkəzi, bazar kompleksi və digər zəruri infrastruktur obyektləri inşa olunacaq. İşğaldan əvvəl fəaliyyət göstərən və məcburi köçkünlük dövründə fəaliyyətini davam etdirən Şəlvə kənd musiqi məktəbi də yenidən tikiləcək.

Diqqətə çatdırıldı ki, kəndin ümumi konsepsiyası ərazinin coğrafi şəraiti, relyefi, mövcud və planlaşdırılan infrastrukturu, həmçinin tarixi quruluşu nəzərə alınaraq, müasir təcrübəyə uyğun orqanik layihələndirmə prinsipləri əsasında işlənilib. Yamacda yerləşən ərazilər, əsasən, evlərdən ibarət məhəllələr üçün nəzərdə tutulub və relyefə uyğun dolama küçələrlə əlaqələndirilib.

Müəyyən yerlərdə məhəllə meydanları layihələndirilib. İctimai binaların və fərdi evlərin memarlığı yerli ənənələrdən ilhamlanaraq, müasir standartlara uyğun dizayn edilib. Kənd ərazisində yerləşən və orta əsrlərə aid olan tarixi məbədin konservasiyası da nəzərdə tutulur. Bundan başqa, kəndin yerləşdiyi ərazinin səfalı və gözəl, bu səbəbdən turizm üçün əlverişli olmasını nəzərə alaraq, gələcəkdə burada Şəlvə çayının sahilində qonaq evinin və kotteclərin tikilməsi planlaşdırılır.

Prezident İlham Əliyev kəndin təməlini qoydu.

# Laçın şəhərində Aqro və Sənaye Parkı ilə tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Laçın şəhərində Aqro və Sənaye Parkında aparılan işlərlə tanış olub.**



"Bakı Abadlıq Xidməti" MMC-nin baş direktoru Bünyad Qasımov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Laçın şəhərində istehsalat, xidmət və tədris müəssisələrinin yaradılması, məşğulluğun artırılması istiqamətində işlər davam etdirilir. Burada əhalinin məşğulluğunun təmin edilməsi üçün yaradılacaq müəssisələrdə 1169 nəfər işlə təmin olunacaq. Müəssisələr qida, sənaye, yaradıcılıq, tekstil, tədris, turizm və xidmət sahələrində fəaliyyət göstərəcək. Hazırda fəaliyyət göstərən 7 müəssisədə 226 Laçın sakini işlə təmin edilib.

Məlumat verildi ki, Aqro və Sənaye Parkında, ümumilikdə, 46 müəssisə fəaliyyət göstərəcək, onların da 80 faizinin bu il yay aylarının sonunadək işə başlayacağı nəzərdə tutulub. Burada həm iri, həm də kiçik mebel fabrikləri, yüngül materiallardan ev və digər konstruksiyalar hazırlayan müəssisə, balıq təsərrüfatı, yeyinti sənayesi, yüngül sənaye, ekoloji cəhətdən təmiz emal müəssisələri, kiçikbuynuzlu heyvanlar üzrə elmi-tərcübə mərkəzi yaradılacaq. İyun ayından artıq keramik məmsullar fabriki fəaliyyətə başlayacaq. Bundan başqa, kinostudiyanın, tekstil, ayaqqabı fabriklərinin açılması, müxtəlif istiqamətlər üzrə qısamüddətli kursların təşkili də nəzərdə tutulub.

# "Laçın" yarımstansiyasının açılışı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kv-luq "Laçın" şəhər yarımstansiyasının açılışında iştirak edib.**



Dövlətimizin başçısına yarımstansiya barədə məlumat verildi.

Bildirildi ki, Laçın şəhərinin və ətraf kəndlərin Azərbaycanın ümumi enerjisisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün şəhərin cənub girişində tikilən 110/35/10 kV-luq "Laçın" şəhər yarımstansiyası rəqəmsal qaydada ən müasir texnologiyalardan istifadə olunmaqla ərsəyə gətirilib. Paralel olaraq, Laçın şəhərinə "Qubadlı" yarımstansiyasından başlayaraq və "Güləbird" Su Elektrik Stansiyasından keçməklə ümumilikdə 40 kilometr məsafədə 110 kV-luq ötürmə xətti çəkilib.





İşğaldan azad edilən ərazilərdə indiyədək "AzərEnerji" ASC tərəfindən 11 yerdə tikilən 110 kV-luq yarımstansiyalardan "Laçın" şəhər yarımstansiyasının xüsusi fərqi ondan ibarətdir ki, bu yarımstansiya həm də işğaldan azad olunan ərazilərin qovşaq yarımstansiyası funksiyasını daşıyacaq. Belə ki, yeni istifadəyə verilən 330 kV-luq "Cəbrayıl" Enerji Qovşağından və Füzulidəki "Şükürbəyli" yarımstansiyasından çıxaraq 110 kV-luq "Cəbrayıl", "Zəngilan", "Qubadlı" yarımstansiyaları, oradan isə "Güləbird" Su Elektrik Stansiyası ilə əlaqələnən 110 kV-luq xətt artıq "Laçın" şəhər yarımstansiyasına birləşdirilib.

Digər istiqamətdən "Daşkəsən", "Kəlbəcər" və "Qorçu" yarımstansiyalarına, o cümlədən "Şükürbəyli" yarımstansiyasından "Füzuli" və "Şuşa" yarımstansiyalarına çəkilmiş mövcud 110 kV-luq ikidövrəli xətlər də gələcəkdə "Laçın" qovşaq yarımstansiyası ilə əlaqələndiriləcək. Bununla da Qarabağın və Şərqi Zəngəzurun 110 kV-luq ikidövrəli xətlərinin dairəvi elektrik təchizatı yaradılacaq və hansısa xətdə qəza baş versə belə, enerji təchizatında fasiləsizlik təmin ediləcək.

Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.

Məlumat verildi ki, strateji əhəmiyyətli "Laçın" şəhər yarımstansiyasında ən müasir avadanlıqlardan ibarət 110 kV-luq açıq paylayıcı qurğu və rəqəmsal idarəetmə mərkəzi tikilib. 35 kV-luq və 10 kV-luq qapalı paylayıcı qurğularla təchiz olunmuş İdarəetmə Mərkəzində yaradılan SCADA dispetçer idarəetmə sistemi rəqəmsal qaydada enerjisistemin mərkəzi SCADA sisteminə inteqrasiya olunub. Bunun üçün informasiya mübadiləsi və aktivlərin onlayn müşahidəsinə imkan verən fiberoptik şəbəkə yaradılıb. Eyni zamanda, yarımstansiyada yanğın və partlayışa qarşı SERJİ sistemi qurulub.

Yarımstansiya ərazisində əməkdaşlar üçün xüsusi yataqxana korpusu tikilib.

Qeyd edək ki, dövlətimizin başçısının Böyük Qayıdış strategiyasına uyğun olaraq işğaldan azad edilən ərazilərdə "AzərEnerji" tərəfindən tikilən bütün stansiya və yarımstansiyalarda əməkdaşlar yerli kadrlardan seçilir, onların işlə təminatı və məskunlaşmaları üçün digər zəruri tədbirlər görülür.

Prezident İlham Əliyev yolüstü balıq istehsalı müəssisəsinə də baxdı.

# Zabux kəndinə 245 ailə köçürüləcək

**Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın rayonunun Zabux kəndində aparılan tikinti işləri ilə tanış olub.**



Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Azərbaycan Prezidentinə kənddə görülən işlər barədə məlumat verdi.



Bildirildi ki, ümumi sahəsi 81 hektar olan Zabux kəndinə 245 ailənin köçürülməsi nəzərdə tutulur. İlkin mərhələdə kəndə 223 ailə köçürüləcək. Kənddə 50 yerlik uşaq bağçası, inzibati bina, tibb məntəqəsi inşa edilib.

Qeyd olundu ki, Zabux kəndində evlərin, sosial obyektlərin və küçələrin işıqlandırılmasında "yaşıl enerji"dən istifadə edilməsi nəzərdə tutulub. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, kənddə bütün işlər ən yüksək səviyyədə yerinə yetiriləcək.

***

Qeyd edək ki, bu gün Laçın Azərbaycan dövlətinin və xalqının quruculuq əzminin daha bir nümunəsinə çevrilir. Mübaliğəsiz demək olar ki, şəhər əsl tikinti meydançasını xatırladır. İşğaldan azad olunduqdan dərhal sonra Prezident İlham Əliyevin göstərişi ilə bütün Qarabağ və Şərqi Zəngəzur kimi, Laçında da nəhəng bərpa və yenidənqurma işlərinə başlanılıb. Baş plana əsasən, şəhərdə ümumilikdə 700 bina bərpa edilir. Onlardan 620-si fərdi ev, 9-u çoxmənzilli yaşayış binasıdır. Eyni zamanda, 71 inzibati bina yenidən qurulur.

Laçında indiyədək bir sıra infrastruktur layihələri icra edilib. Şəhər ərazisində 7 park salınır ki, onların da artıq ikisində işlər tamamlanıb. İdman kompleksi və Həkəri çayının ətrafında çimərlik-istirahət mərkəzi salınır.

Hazırda bütün yeraltı kommunikasiya xətləri tamamlanmaq üzrədir. Eyni zamanda, yollar relyefə uyğun olaraq genişləndirilib, işıqlandırma işləri görülüb.

Laçın şəhərinə girişdə bir neçə kilometri əhatə edən meyvə bağları göz işlədikcə uzanır. Şəhərə gedən yoldakı aşırımların ən yüksək nöqtəsindən açılan möhtəşəm mənzərəni seyr etmək üçün böyük terras qurulub. Laçının ətrafında vaxtilə Abdallar adlanan ərazidəki qədim kahalar bərpa olunaraq etnoqrafik turizm üçün maraqlı obyektlərdən birinə çevrilib.

Şəhərin işıqlandırılması müasir modelə tam uyğunlaşdırılıb. Təkcə yol və binalar deyil, məkanın real coğrafi relyefini əks etdirən sal qayaların, yüksək zirvələrin, sıldırımların işıqlandırılması da Laçının gözəlliyini əks etdirir.

***AZƏRTAC***

# Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti Zati-aliləri xanım Sahle-Vork Zevdeyə

**Hörmətli xanım Prezident!**

Efiopiya Federativ Demokratik Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, ölkələrimiz arasındakı ikitərəfli münasibətlər xalqlarımızın mənafeləri naminə bundan sonra da inkişaf edəcək, beynəlxalq təsisatlar çərçivəsində səmərəli əməkdaşlığımız daha da genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Efiopiya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 may 2023-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Pakistan hökuməti və xalqı adından, şəxsən öz adımdan Zati-alinizə və Azərbaycan xalqına ən səmimi təbriklərimizi çatdırıram.

Pakistan Azərbaycanla qardaşlıq əlaqələrini yüksək qiymətləndirir və ölkənizin suverenliyinə, ərazi bütövlüyünə dəstəyini davam etdirəcək. Mən, həmçinin əminəm ki, ölkələrimiz arasında sıx əməkdaşlıq xalqlarımızın qarşılıqlı rifahı naminə daha da genişlənəcək. Bu baxımdan mən tezliklə gözəl ölkənizə səfər etməyi səbirsizliklə gözləyirəm.

Mən, həmçinin bu fürsətdən istifadə edərək, müstəqil ölkənizin banisi ulu öndər Zati-aliləri Heydər Əliyevin bu yaxınlarda qeyd olunan yüzillik yubileyi münasibətilə Sizə və Azərbaycan xalqına ən xoş arzularımı çatdırıram. İnkişaf yolunda inamla irəliləyən bugünkü Azərbaycan həqiqətən də Heydər Əliyevin arzularının real həyatda təntənəsidir.

Fürsətdən istifadə edərək Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayır, qardaş Azərbaycan xalqının davamlı tərəqqisi və firavanlığı üçün dualar edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Şahbaz ŞƏRİF,***
***Pakistan İslam Respublikasının***
***Baş naziri***

***

**Zati-aliləri!**

28 May – Azərbaycan Respublikasının Müstəqilliyi Günü münasibətilə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) Zati-alinizə və xalqınıza salamlarını və təbriklərini çatdırmaqdan şərəf və fəxarət hissi duyur.

ICESCO üzv dövlətlərin qeyd etdiyi əlamətdar günlər də daxil olmaqla, bütün işlərdə onları dəstəkləməyə daim hazır olduğuna sadiqliyini bildirir. Biz bu əlamətdar günü Sizinlə və bütün xalqınızla birlikdə qeyd edirik.

Hazırda və gələcək illərdə ICESCO-nun davamlı dəstəyinə və əməkdaşlığına əmin ola bilərsiniz.

Zati-aliləri, ən yüksək ehtiramımızı qəbul etməyinizi xahiş edirəm.

**Dərin hörmətlə,**

***Salim bin Məhəmməd əl-MALİK,***
***ICESCO-nun Baş direktoru***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident, əziz Qardaşım!**

Müstəqillik Günü münasibətilə xalqım adından və şəxsən öz adımdan Zati-alinizi və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm. Özündə dərin məna ehtiva edən bu gündə Azərbaycan xalqının haqlı qürurunu və sevincini ürəkdən bölüşürük.

Türkiyədə baş verən zəlzələlərdən sonra "kədəriniz kədərimizdir" anlayışı ilə qardaş Azərbaycanın uzatdığı yardım əli və nümayiş etdirdiyi güclü dəstəyə görə bir daha təşəkkürümü bildirirəm.

Zati-alinizin həmrəylik göstərmək üçün şəxsən ölkəmizə səfəri aramızdakı möhkəm tellərin ən bariz göstəricisi olmuşdur. Türk xalqı bu qardaş köməyini heç vaxt unutmayacaq.

Zəlzələdə həyatını itirən azərbaycanlı qardaş və bacılarımıza görə bir daha başsağlığı verirəm.

"Bir millət, iki dövlət" şüarı ilə birlikdə imzaladığımız Şuşa Bəyannaməsi ilə daha da möhkəmləndirdiyimiz bənzərsiz münasibətlərimiz indiyədək olduğu kimi, gələcəkdə də ölkələrimizin və regionumuzun sülh və sabitliyinin ən böyük təminatı olacaq.

Fürsətdən istifadə edərək, Zati-alinizin cansağlığı və xoşbəxtliyi, dost və qardaş Azərbaycan xalqının rifahı və firavanlığı ilə bağlı ən xoş arzularımı bir daha çatdırıram.

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan Respublikasının bütün vətəndaşlarına ən səmimi salamlarımı çatdırmaq istəyirəm.

Yoxsulluq və bərabərsizlikdən tutmuş, silahlı münaqişə və iqlim dəyişikliyinə qədər dünyamızın üzləşdiyi təhdidlər həmrəyliyə, qarşılıqlı hörmətə və anlaşmaya əsaslanan birgə fəaliyyət tələb edir.

Daha yaxşı gələcəyə nail olmaq üçün hər bir ölkə öz milli hüdudlarından kənar aləmi də görməyi bacarmalı və harada yaşamasından asılı olmayaraq bütün xalqlar üçün sülhü, insan hüquqlarını, firavanlıq və davamlı inkişafı daha da möhkəmləndirmək səylərini dəstəkləməlidir.

Birləşmiş Millətlər Təşkilatı bu əlamətdar günü qeyd edən Azərbaycan Respublikasının bütün xalqına qoşulur. Biz xalqlar və bütövlükdə planetimiz üçün daha yaxşı, daha sağlam və daha təhlükəsiz gələcəyi təmin etmək uğrunda birgə fəaliyyətimizi davam etdirməyi arzulayırıq.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Antonio QUTERREŞ,***
***Birləşmiş Millətlər Təşkilatının Baş katibi***

***

**Cənab Prezident, əziz İlham!**

İcazə verin, Azərbaycanın milli bayramı münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi ünvanlayım.

Ötən otuz il ərzində və diplomatik münasibətlərimizin qurulmasından bəri Fransa və Azərbaycan iqtisadi, universitet və təhsil sahələrində tərəfdaşlığa əsaslanan möhkəm əlaqələr qurub.

Avropa və xarici işlər naziri Katrin Kollonanın aprelin 26-27-də Bakıya səfəri ikitərəfli münasibətlərimizi inkişaf etdirmək üçün ümumi istəyimizi görməyə imkan verdi və bu, məni məmnun edir. Bu, həmçinin Fransanın Azərbaycan ilə Ermənistan arasında ədalətli və davamlı, bütün regionun sabitliyi və rifahı üçün zəruri olan sülh naminə öhdəliyini xatırlamağa imkan verdi.

Mən Sizinlə Qafqazın və qitəmizin üzləşdiyi çağırışlar haqqında mübadilələrimizi davam etdirməyə imkan verəcək, iyunun 1-də Kişineuda Avropa Siyasi Birliyinin ikinci sammitində yenidən görüşməkdən məmnunam. Ümid edirəm ki, Praqada olduğu kimi, bu sammit də bizə Azərbaycan ilə Ermənistan arasında aparılan danışıqlara öz dəstəyimizi verməyə imkan yaradacaq.

Cənab Prezident, yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Emmanuel MAKRON,***
***Fransa Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Azərbaycanın müstəqilliyinin 105-ci ildönümü münasibətilə Sizə və xalqınıza təbriklərimi çatdırır, hamınıza sülh və firavanlıq arzulayıram.

Litvaya son səfərinizdə Sizinlə görüşməkdən çox məmnun oldum. Mən bizim iqtisadiyyat, innovasiya və ətraf mühitin mühafizəsi də daxil olmaqla əməkdaşlığımızın geniş spektrli məsələləri, o cümlədən Cənubi Qafqazda təhlükəsizliyin vəziyyəti, Rusiya–Ukrayna müharibəsinin nəticələri ilə bağlı apardığımız müzakirələrimizi yüksək qiymətləndirirəm. Ümidvaram ki, bu səfər Sizin üçün də məhsuldar olub və Vilnüsdə imzalanmış müqavilələr ölkələrimiz arasındakı münasibətlərin gələcək inkişafına geniş imkanlar açacaqdır.

Litva ilə Azərbaycan arasında sıx və məhsuldar tərəfdaşlıq əlaqələri mövcuddur. Litva Avropa İttifaqının Azərbaycanla dialoqunun inkişafına güclü dəstək verir. Rusiyanın Ukraynaya qarşı müharibəsi fonunda bizim tərəfdaşlığımız daha da əhəmiyyətlidir. Ümidvaram ki, Ukrayna qalib gələnə qədər ona hərtərəfli dəstək vermək və Rusiyaya qarşı sanksiyaların həyata keçirilməsini təmin etmək istiqamətində əməkdaşlıq fəaliyyətimizi davam etdirəcəyik.

İcazə verin, ikitərəfli qarşılıqlı faydalı əlaqələrin genişləndirilməsinin vacibliyini qeyd edim. Litva ilə Azərbaycan arasında informasiya texnologiyaları, istehsal, qida sənayesi və bərpaolunan enerji sahələrində əməkdaşlığın inkişafı üçün geniş imkanlar mövcuddur.

Milli bayramınız münasibətilə Sizi bir daha təbrik edirəm. Cənab Prezident, ən xoş arzularımı və ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Gitanas NAUSEDA,***
***Litva Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır, Azərbaycan Respublikasına və onun xalqına əbədi sülh və firavanlıq arzulayıram.

Latviya ilə Azərbaycan arasında dostluğa və qarşılıqlı marağa əsaslanan konstruktiv münasibətlər formalaşıb. Sizinlə Bakıda keçirilən son görüşümüzü və fikir mübadiləmizi, eləcə də bu ilin yazında Qlobal Bakı Forumunda iştirakımı ən xoş təəssüratlarla xatırlayıram. Əminəm ki, ikitərəfli və çoxtərəfli gündəliyimizin daha da inkişafı üçün biz bu müsbət ənənəni uğurla davam etdirəcəyik.

Bu gün Rusiyanın Ukraynaya qarşı müharibəsinin şahidi olduğumuz bir vaxtda Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin fundamental prinsipinə əsaslanaraq beynəlxalq təhlükəsizliyi qorumaq üçün birgə çalışmaq həmişəkindən daha vacibdir.

Əminəm ki, biz birlikdə çalışmaqla xalqlarımızın sülh və təhlükəsizlik şəraitində inkişafını təmin edəcəyik.

Zati-aliləri, ən yüksək ehtiramımı bildirir, Sizə və Azərbaycan xalqına möhkəm cansağlığı və rifah arzulayıram.

**Hörmətlə,**

***Egils LEVİTS,***
***Latviya Respublikasının Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu!**

Sizi və bütün qardaş Azərbaycan xalqını milli bayramınız – Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin ölkəniz bu əlamətdar günü ümummilli birliyə, sosial-iqtisadi inkişafda böyük nailiyyətlərə, beynəlxalq aləmdə yüksək nüfuza malik olan bir dövlət statusunda qarşılayır.

Əminəm ki, Sizin güclü liderliyinizlə Azərbaycan yüksək məqsədlərini və inkişaf edən dövlət quruculuğu vəzifələrini həyata keçirərək dayanıqlı inkişaf yolunda irəliləməyi davam etdirəcəkdir.

Keyfiyyətcə yeni məzmunun əlavə olunduğu, strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə tam şəkildə cavab verən Qazaxıstan–Azərbaycan əməkdaşlığının yüksək dinamikasını böyük məmnunluqla qeyd edirəm.

Hörmətli İlham Heydər oğlu, bu təntənəli gündə Sizə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə firavanlıq və tərəqqi diləyirəm.

**Hörmətlə,**

***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu!**

Sizi və bütün qardaş Azərbaycan xalqını ölkənizin Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan Respublikası tərəqqi və dinamik inkişaf yolu ilə inamla irəliləyir, regional və beynəlxalq proseslərdə mühüm rol oynayır.

Son illər ərzində ölkələrimiz arasında münasibətlərin nəzərəçarpacaq dərəcədə fəallaşmasını, yeni məzmunla zənginləşməsini qeyd etmək fərəhlidir. Əminik ki, Türkmənistan və Azərbaycan Respublikası arasında dostluq, mehriban qonşuluq əlaqələri ümumi rifah naminə bundan sonra da artan xətt üzrə inkişaf edəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, səadət, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, firavanlıq və tərəqqi arzulayıram.

**Dərin hörmətlə,**

***Sərdar BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Slovakiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizi təbrik edirəm.

Əminəm ki, indi iqlim dəyişikliyi, bununla əlaqədar sosial və iqtisadi çağırışlar, enerji qıtlığı, hibrid təhlükələr və həmçinin qlobal təhlükəsizliyə təhdid olan bir sıra amillər beynəlxalq əməkdaşlığa hər zamankından daha çox ehtiyac yaradır.

Hörmətli cənab Prezident, Sizə və Azərbaycan vətəndaşlarına sülh, inkişaf, firavanlıq, tərəqqi arzu edirəm. İnanıram ki, ölkələrimiz arasında münasibətlərin inkişafı xalqlarımızın rifahı naminə qarşılıqlı maraq doğuran bütün sahələrdə uğurla davam edəcəkdir.

**Hörmətlə,**

***Zuzana ÇAPUTOVA,***
***Slovakiya Respublikasının Prezidenti***

***

**Möhtərəm cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Albaniya xalqı adından və şəxsən öz adımdan Sizə və dost Azərbaycan xalqına ən xoş və səmimi arzularımı çatdırmaqdan xüsusi məmnunluq duyuram.

Fürsətdən istifadə edərək bir daha bildirirəm ki, keçən ilin noyabrında Sizin Tiranaya dövlət səfəriniz mənim üçün və alban xalqı üçün məmnunluq doğuran böyük şərəf idi.

Bu səfərin əhəmiyyəti və müzakirə olunan məsələlər ölkələrimiz, xalqlarımız arasında əla dostluq və əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edəcək. Mən böyük məmnunluqla qeyd edirəm ki, son illərdə qarşılıqlı maraq doğuran sahələrdə dinamik inkişaf müşahidə olunur.

Cənab Prezident, Sizinlə tezliklə görüşmək arzumu bir daha bildirirəm. Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Bayram BEQAY,***
***Albaniya Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Hindistan hökuməti və xalqı adından, şəxsən öz adımdan Sizə, hökumətinizə və dost Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram.

Hindistan və Azərbaycan arasında tarixi köklərə söykənən əlaqələr mövcuddur. Son zamanlar Hindistan və Azərbaycan arasında ticarət dövriyyəsi əhəmiyyətli dərəcədə artmışdır. Ümidvaram ki, əməkdaşlığımız qarşılıqlı hörmət və maraqlar əsasında daha da inkişaf edəcəkdir.

Bu fürsətdən istifadə edərək, Zati-alinizə möhkəm cansağlığı və firavanlıq, dost Azərbaycan xalqına davamlı tərəqqi və rifah arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Dərin hörmətlə,**

***Draupadi MURMU,***
***Hindistan Respublikasının Prezidenti***

***

**Cənab Prezident!**

Braziliya hökuməti, xalqı adından və şəxsən öz adımdan Zati-alinizi Azərbaycanın Müstəqillik Günü münasibətilə təbrik edirəm. Azərbaycan xalqına xoşbəxtlik və firavanlıq arzulayıram.

Xalqlarımızın qarşılıqlı mənafeyi naminə ölkələrimizi birləşdirən dostluq əlaqələrini möhkəmləndirmək üçün Braziliyanın Azərbaycanla birgə işləməkdə davam etməyə hazır olduğunu bir daha vurğulayıram.

Möhtərəm cənab Prezident, xahiş edirəm, ən yüksək hörmət və ehtiramımı qəbul edin.

***Luiz İnasio Lula da SİLVA,***
***Braziliya Federativ Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Azərbaycanın Müstəqillik Günü münasibətilə Malta xalqı ilə birlikdə Sizə və xalqınıza səmimi təbriklərimizi çatdırırıq.

Malta Respublikası ilə Azərbaycan Respublikası arasında uzunmüddətli ikitərəfli əlaqələr mövcuddur. Əminəm ki, ölkələrimiz əlaqələrin daha da möhkəmləndirilməsi məqsədilə ikitərəfli əməkdaşlığın yeni imkanlarını müəyyənləşdirmək üçün bundan sonra da birgə çalışacaqlar.

Malta Azərbaycan ilə regional və çoxtərəfli müstəvidə, o cümlədən, BMT və Avropa İttifaqının Şərq Tərəfdaşlığı çərçivəsində sıx əlaqələri dəstəkləməkdə davam edir.

Qlobal sülhün, təhlükəsizliyin və rifahın təşviqinə sadiq olan Malta hazırda beynəlxalq ictimaiyyətin üzləşdiyi bir sıra çağırışların həlli yollarının tapılacağına inanır. BMT Təhlükəsizlik Şurasının 2023–2024-cü illər üçün seçilmiş üzvü kimi Malta təşkilatın Nizamnaməsinin əsas prinsiplərini dəstəkləməklə belə çağırışlara qarşı mübarizədə öz rolunu oynamaqda qərarlıdır.

Zati-aliləri, fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı və əmin-amanlıq, ölkənizə sülh, tərəqqi və firavanlıq arzularımı çatdırıram.

Xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

***Corc VELLA,***
***Malta Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Zati-alinizə səmimi təbriklərimi çatdırır və Azərbaycan xalqına firavanlıq arzu edirəm.

**Səmimiyyətlə,**

***Villem-ALEKSANDR,***
***Niderlandın Kralı***

***

**Zati-aliləri!**

28 May – Müstəqillik Günü münasibətilə Sizə və Zati-alinizin simasında Azərbaycan xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Əminəm ki, Myanma ilə Azərbaycan arasında mövcud dostluq münasibətləri ölkələrimiz və xalqlarımız üçün səmərəli olacaqdır.

Sizə möhkəm cansağlığı və şəxsi rifah, Azərbaycan xalqına isə davamlı tərəqqi və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Dərin hörmətlə,**

***General Min Aung HLAİNG,***
***Myanma İttifaqı Respublikasının Dövlət İdarə Şurasının Sədri***

***

**Əs-səlamu aleykum və rəhmətullahi və bərəkətuhu.**

**Zati-aliləri!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan hökumətinə və xalqına ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Mən Bruney ilə Azərbaycan arasında mövcud olan dostluq münasibətlərini yüksək qiymətləndirir və ikitərəfli əlaqələrimizin, eləcə də İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində tərəfdaşlığımızın daha da inkişafına ümid edirəm.

Allah-Taala Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə tərəqqi və firavanlıq nəsib etsin!

Vəssəlamu aleykum və rəhmətullahi və bərəkətuhu.

***Hacı Həssənal BOLKİAH,***
***Bruneyin Sultanı***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə Bosniya və Herseqovinanın Serb Respublikasının xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi, xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası inkişaf edərək regional liderə və iqtisadi gücə çevrilib. Mən fəxrlə demək istəyirəm ki, Bosniya və Herseqovinanın Serb Respublikası ilə Azərbaycan Respublikası arasında anlaşmaya və qarşılıqlı hörmətə əsaslanan səmimi dostluq münasibətləri mövcuddur. Böyük geosiyasi dəyişikliklər, eləcə də siyasi və iqtisadi arenada çağırışlar dönəmində hər bir ölkənin daxili işlərinə, o cümlədən xarici siyasətinə anlayış və hörmət göstərmək son dərəcə vacibdir.

Sizin müdrikliyiniz və xarizmanız ölkənizi, xalqınızı tərəqqi yolu ilə irəliyə aparır və onilliklərdir ki, xalqınızın etimadını doğruldursunuz. Bu, təqdirəlayiq və hörmət ediləsi bir həqiqətdir.

Mən qəti şəkildə əminəm ki, ikitərəfli əməkdaşlığımız bir çox sahələrdə inkişaf edəcək və möhkəmlənəcək. Mən səmimiyyətlə inanıram ki, əlaqələrimiz gələcək illərdə də ölkələrimizə faydalı olacaq şəkildə inkişaf edəcəkdir. Mənim qəti niyyətim dostluğumuzu və dəstəyimizi qoruyub saxlamaq, qarşılıqlı hörmət əsasında daha da inkişaf etdirməkdir.

Möhtərəm Prezident, icazə verin, Sizə bir daha dərin minnətdarlığımı, möhkəm cansağlığı, eləcə də dost Azərbaycan xalqının firavanlığı və inkişafı naminə xoş arzularımı çatdırım.

**Hörmətlə,**

***Milorad DODİK,***
***Bosniya və Herseqovinanın Serb Respublikasının Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu!**

Qaraçay-Çərkəz Respublikasının çoxmillətli xalqı adından və şəxsən öz adımdan Sizi və günəşli Azərbaycanın bütün vətəndaşlarını Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan əcdadların ənənələrinin müasir həyatda heyrətamiz şəkildə birləşdiyi ölkədir, dünyada ən sürətlə inkişaf edən iqtisadiyyata malikdir. Şübhəsiz ki, bu, təkcə ölkənin çoxşaxəli iqtisadiyyatı və əlverişli coğrafi mövqeyi ilə deyil, həm də onun investorları və turistləri cəlb edən özünəməxsusluğu, insanlarının əməksevərliyi və qonaqpərvərliyi ilə bağlıdır.

Əminəm ki, Azərbaycanın və Qaraçay-Çərkəz Respublikasının ikitərəfli əməkdaşlığı bundan sonra da respublikalarımızın sosial-iqtisadi inkişafına şərait yaradacaqdır.

Sizə və Azərbaycanın bütün vətəndaşlarına səmimi-qəlbdən səadət, uğurlar, əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***Rəşid TEMREZOV,***
***Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı***

***

**Möhtərəm İlham Heydər oğlu!**

Əlamətdar tarix – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin!

Azərbaycan dövlət quruculuğu sahəsində, geniş iqtisadi və sosial islahatların aparılmasında nəzərəçarpan uğurlar nümayiş etdirir. Azərbaycan zəngin ehtiyatlara və intellektual potensiala malik olan, dinamik inkişaf edən, milli ənənələrinin orijinallığını qoruyub saxlayan, bütün dünyada tanınan istedadlı mədəniyyət və incəsənət xadimlərinin bütöv bir nəslini yetişdirən ölkədir.

Siz dahi atanızın – ölkənizin ümummilli lideri Heydər Əliyevin kursunu layiqincə davam etdirirsiniz. Əminəm ki, ölkələrimiz arasında siyasi, ticari-iqtisadi və humanitar sahələrdə əlaqələrin gələcək inkişafı Rusiya və Azərbaycan xalqlarının maraqlarına cavab verərək, Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə kömək edəcəkdir.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, əmin-amanlıq, firavanlıq və Azərbaycanın daha da inkişafı naminə yeni-yeni nailiyyətlər arzulayıram.

**Səmimi hörmətlə və ən xoş diləklərlə,**

***Leonid SLUTSKİ,***
***Rusiya Federasiyasının Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbəri, Rusiya Sülh Fondunun İdarə Heyətinin sədri***

***

**Möhtərəm İlham Heydər oğlu!**

İcazə verin, Sizi və bütün qardaş Azərbaycan xalqını respublikanızın suverenliyini, qüdrətini, parlaq tarixini, azərbaycanlılara xas olan həmrəyliyi və birliyi təcəssüm etdirən Müstəqillik Günü münasibətilə təbrik edim.

Azərbaycan Sizin müdrik rəhbərliyinizlə ən irimiqyaslı layihələri həyata keçirərək, vətəndaşların rifahını yüksəldərək, regionda və dünyada nüfuzunu və təsirini daim artıraraq beynəlxalq arenada öz mövqelərini möhkəmləndirir.

Əminəm ki, Sizin müdrik siyasi kursunuz sayəsində ölkələrimiz arasında çoxdan mövcud olan möhkəm qarşılıqlı etimad və dostluq ənənələrinə, strateji tərəfdaşlığa, humanitar və iqtisadi əməkdaşlığa əsaslanan mehriban qonşuluq münasibətləri Rusiya və Azərbaycan xalqlarının rifahı naminə bütün istiqamətlərdə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar bayram günündə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, Azərbaycan Respublikası naminə yeni-yeni nailiyyətlər və qələbələr üçün tükənməz enerji, hər bir Azərbaycan ailəsinə daimi firavanlıq və tərəqqi, sülh və səadət arzulayıram.

**Hörmətlə,**

***Dmitri SAVELYEV,***
***Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının deputatı, Azərbaycan Respublikasının parlamenti ilə dostluq qrupunun əlaqələndiricisinin müavini***

***

**Hörmətli İlham Heydər oğlu!**

Sizi milli bayramınız – Azərbaycanın Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Sizin rəhbərliyinizlə ölkəniz sosial, iqtisadiyyat, təhsil sahələrində böyük uğurlar əldə edib.

Azərbaycanın elm, o cümlədən tibb sahəsində nailiyyətləri böyükdür. Rusiya Səhiyyə Nazirliyinin Seçenov adına Universiteti ilə Azərbaycanı çoxdankı tərəfdaşlıq münasibətləri birləşdirir. Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialında respublikanız üçün dünya standartlarına uyğun mütəxəssislər hazırlanır.

Əminəm ki, Rusiya və Azərbaycan xalqlarının gələcəyi naminə təhsil və elm kimi mühüm sahələrdə əməkdaşlığımız daha sürətlə inkişaf edəcəkdir.

Cənab Prezident, Sizə və bütün Azərbaycan xalqına səmimi-qəlbdən aydın səma, tərəqqi və sabahkı günə əminlik diləyirəm.

**Hörmətlə,**

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor***

***

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Azərbaycanın müstəqillik tarixi 105 il əvvəl İstiqlal Bəyannaməsinin imzalanması ilə başlayıb. Gənc respublika müasir demokratik təsisatların inkişafının örnəyi olub, səmərəli dövlət idarəçiliyinə səy göstərib, şəffaflıq və milli maraqlara ciddi şəkildə əməl olunması prinsipləri əsasında qarşılıqlı faydalı diplomatik münasibətlər qurub.

Bir əsr əvvəl əsası qoyulmuş ənənələr müasir Azərbaycanın həyatında da özünün müsbət əksini tapır. Milli qürur, vətənpərvərlik və vətəndaşların ölkə Prezidentinin siyasi xəttinə qəti inamı Azərbaycan xalqına iqtisadi və sosial sahələrdə böyük uğurlar qazanmağa, beynəlxalq arenada dövlətin nüfuzunu möhkəmləndirməyə imkan verib.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, tükənməz enerji və Azərbaycan xalqının rifahı naminə bütün təşəbbüslərinizin reallaşmasını diləyirəm.

**Hörmətlə,**

***Mixail QUTSERİYEV,***
***Rusiyanın "SAFMAR Qrupu" Səhmdar Cəmiyyətinin prezidenti***

(əvvəli qəzetin 25 may 2023-cü il tarixli sayında)

**Ölkəmizin müstəqillik illərindəki misilsiz inkişafında Azərbaycan neftinin həlledici rolu bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Respublikamıza rəhbərlik etdiyi illərdə o, neft sənayesinə ölkə iqtisadiyyatının hərəkətverici qüvvəsi kimi baxmış, ona böyük önəm vermiş və neftçilərdən qayğısını heç vaxt əsirgəməmişdir. Bunu mən Azərbaycan nefti uğrunda ümummilli liderimizin çoxillik gərgin mübarizəsinin şahidlərindən və iştirakçılarından biri kimi deyirəm.**




# Heydər Əliyev – Azərbaycan dövlətinin qurucusu, milli neft strategiyasının banisi

## Müsahibimiz SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadədir

**– Xoşbəxt müəllim, keçmiş ittifaqın süqutunun yaratdığı böhrandan, zorla cəlb edildiyimiz müharibədən, daxili çəkişmələrin tüğyan etdiyi mürəkkəb dövrdən danışdınız. Belə bir vəziyyətdə xarici şirkətlərlə birgə işləmək ideyası özünə necə yol açdı?**

– Bizi "Əsrin müqaviləsi"nə aparıb çıxaran yol Bakıdan başlandı. Yəni, danışıqlara Azərbaycan paytaxtında start verildi. Sonra müzakirələr İstanbulda, ABŞ-ın Hyuston şəhərində davam etdirildi. Tərkibi ümummilli liderimiz tərəfindən müəyyən olunmuş nümayəndə heyəti – onun üzvlərindən biri də mən idim – 1994-cü ilin iyul ayında Birləşmiş Ştatlara getdi. Orada proses 45 gün çəkdi. Danışıqlar asan getmirdi. Tərəflərin hər biri öz mövqeyini, şirkət mənafeyini önə çəkirdi. Bəzən iş o yerə çatırdı ki, ya qarşı tərəf, ya da biz danışıqları tamamilə dayandırmaq istəyirdik.

Danışıqların 1994-cü ilin yazında və yayındakı İstanbul və Hyustondakı son mərhələləri xüsusilə gərgin keçdi. Həmin vaxtların çətinliklərini heyətimizin rəhbəri İlham Əliyev belə dəyərləndirirdi: "Biz xarici şirkətlərə deyirdik ki, siz ayrı-ayrı şirkətlərin maraqlarını müdafiə edirsiniz. Biz isə ölkənin və Azərbaycan xalqının maraqlarını təmsil edirik. Əgər siz səhvə yol versəniz, bu, sizin şirkətin yalnız bir layihəsində öz əksini tapacaq, əgər biz səhv etsək,



bu, bütün Azərbaycan xalqının mənafeyinə xələl gətirəcəkdir. Başqa sözlə, biz heç cür heç bir səhvə yol verə bilmərik." Bütün çətinliklərə baxmayaraq, müqavilə Azərbaycanın milli mənafeyinə uyğun hazırlandı.

Bir dəfə qarşı tərəf başqa bir şərt qoydu: Azərbaycan Rusiya ilə danışıb, Xəzər dənizinin hüquqi statusunu həll etməsə, danışıqlar davam etdirilməyəcəkdir. Təsəvvür edirsinizmi, bu nə demək idi? Məlum olduğu kimi, Rusiya ilə bu məsələ Prezident Heydər Əliyevin səyi nəticəsində yalnız 2002-ci ildə həll edildi. Deməli, 1994-cü ildə Hyustonda danışıqlar dayandırılsaydı, biz 8 il gözləməli olacaqdıq. Nümayəndə heyətimizin üzvü, o vaxt cənab İlham Əliyev qarşımıza qoyulmuş şərt, təklif barədə ulu öndərə məlumat verdi və onun göstərişi ilə Vaşinqtona yollandı. Nümayəndə heyətimizin digər üzvlərinə isə danışıqlarda iştirak edən şirkətlərə getmək, məsələni ətraflı izah etmək tapşırıldı. ABŞ-ın məşhur neft şirkətlərindən olan "Yunokal" şirkətində oldum. "Yunokal" sonralar Xəzər dənizinin Azərbaycan sektorundakı "Əşrəfi", "Dan Ulduzu" perspektiv strukturlarının və onlara bitişik sahənin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsündə yer aldı.

***– Xoşbəxt müəllim, indi siz möhtərəm Prezidentimiz İlham Əliyevin adını çəkdiniz. Bildiyimiz odur ki, o vaxt ARDNŞ-nin xarici əlaqələr üzrə birinci vitse-prezidenti olmuş gənc diplomat İlham Əliyev danışıqlar prosesində ölkəmizin maraqlarını ən yüksək səviyyədə təmsil edib və qarşıya qoyulmuş məqsədə nail olub.***

– Nəzərə almaq lazımdır ki, o zaman müstəqillik yoluna təzəcə qədəm qoymuş Azərbaycanda neft mütəxəssislərinin xarici şirkətlərlə danışıqlarda kifayət qədər təcrübəsi yox idi. Lakin Moskvada Beynəlxalq Münasibətlər İnstitutunu bitirib, alimlik elmi dərəcəsi almış və sonra da həmin institutda dərs demiş İlham Əliyevin ingilis dilini və beynəlxalq hüquq məsələlərini gözəl bilməsi, tərəfdaşlarımızla birbaşa ünsiyyət qurub, mürəkkəb vəziyyətlərdən çıxış yollarını tapması və gərginliyi aradan qaldırmaq məharəti Vaşinqtonda səlahiyyətli şəxslərlə görüşlərdə də özünü göstərdi və təsdiq etdi. Elə ilk günlərdən ARDNŞ-nin birinci vitse-prezidenti İlham Əliyev danışıqlar prosesinə cəlb edildi, yeni neft strategiyasının hazırlanmasının və uğurla həyata keçirilməsinin ən fəal iştirakçısı oldu.

**– Nəhayət, bütün bu gərgin işlərin və ulu öndər Heydər Əliyevin titanik əməyi sayəsində tarixə "Əsrin müqaviləsi" kimi düşmüş saziş imzalandı.**

– Bəli, 1994-cü il sentyabrın 20-də ulu öndər Heydər Əliyevin titanik əməyi sayəsində tarixə "Əsrin müqaviləsi" kimi düşmüş "Hasilatın pay bölgüsü" Sazişi imzalandı. Bu tarixdən başlayaraq, müstəqil Azərbaycanın neft siyasəti dövlətin həm daxili, həm də xarici siyasətinin əsas tərkib hissəsinə çevrildi. Azərbaycanda yeni neft strategiyasının həyata keçirilməsi ilə misilsiz inkişaf dövrü başlandı. Ötən əsrin 90-cı illərində dərin böhran içində boğulan respublika XXI əsrin ilk illərindən sürətlə inkişaf edib çiçəklənən bir diyar, dünyanın nüfuzlu dövlətlərindən biri kimi şöhrətləndi.Bütün bunlar ümummilli lider Heydər Əliyevin respublika rəhbərliyinə ikinci qayıdışından sonra bu mümkün oldu. "Əsrin müqaviləsi"nin Azərbaycan üçün çox böyük əhəmiyyəti oldu.

Ölkəmizin müstəqillik illərindəki misilsiz inkişafında Azərbaycan neftinin həlledici rolu bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Respublikamıza rəhbərlik etdiyi illərdə o, neft sənayesinə ölkə iqtisadiyyatının hərəkətverici qüvvəsi kimi baxmış, ona böyük önəm vermiş və neftçilərdən qayğısını heç vaxt əsirgəməmişdir. Bunu mən Azərbaycan nefti uğrunda ümummilli liderimizin çoxillik gərgin mübarizəsinin şahidlərindən və iştirakçılarından biri kimi deyirəm.

**– Sizin məşhur bir fikriniz var: "Əsrin müqaviləsi" Azərbaycanı dünyaya yenidən neft ölkəsi kimi tanıtdısa, "Şahdəniz" ölkəmizi xaricdə təbii qaz ölkəsi kimi tanıtdı". Demək olarmı ki, XXI yüzillik qaz layihələri əsri oldu?**

– Bu, həqiqətən də belədir. 1999-cu ilin iyulunda Xəzərin Azərbaycan sektorunda nəhəng "Şahdəniz" yatağının kəşf edilməsi və eyniadlı qaz layihəsinin müvəffəqiyyətlə həyata keçirilməsi təkcə Azərbaycanın deyil, bütün regionun və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi işinə böyük töhfə oldu. Azərbaycan qazının Avropaya nəqlini nəzərdə tutan TANAP layihəsinin ikinci mərhələsinin açılış mərasimi də bunu bir daha sübut etdi. Dünya siyasətçilərinin də söylədiyi kimi, Türkiyənin Ədirnə vilayətində TANAP layihəsinin Avropa ilə birləşən hissəsinin açılması Avrasiya üçün tarixi hadisə oldu.

"Şahdəniz" strukturu birinci dəfə 1954-cü ildə Azərbaycan geofizikləri tərəfindən aşkar edilmiş və 1983-cü ildə dərin axtarış qazmasına hazırlanmışdı. Lakin həmin sahədə dənizin çox dərin olması və iqtisadi çətinliklərlə əlaqədar burada aparılan işlər nəticə verməmişdi. 1996-cı il iyunun 4-də xarici şirkətlərlə "Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" perspektivli sahəsinin kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin imzalanması ilə "Şahdəniz" strukturu yenidən dərin kəşfiyyat qazmasına daxil edildi, aparılan axtarış-kəşfiyyat işləri nəticəsində "Şahdəniz" yatağı 1999-cu ilin iyul ayında aşkar edildi.

Həmin il iyulun 12-də yataqda əldə edilmiş nəticələrin təqdimat mərasimində çıxış etmək üçün ulu öndər mənə də söz verdi. Mən Xəzərdə zəngin neft və qaz yataqlarının kəşf edilməsində və işlənilməsində Heydər Əliyevin misilsiz xidmətlərindən danışdım və "Şahdəniz" yatağı barədə məlumat verərkən bildirdim ki, bu yatağın da taleyi Heydər Əliyevlə bağlıdır.

**– Bir dəfə demişdiniz ki, o zaman ulu öndərlə maraqlı bir dialoqunuz da olub…**

– Yadımdadır, mən "Şahdəniz" yatağının ehtiyatları məsələsinə toxunaraq dedim ki, biz inanırıq, yataqda ikinci, üçüncü quyular qazılandan sonra onun ehtiyatı gözləniləndən də artıq olacaqdır. Bu vaxt Heydər Əliyev çıxışımı kəsərək mənə sual verdi: "Demək, indi ehtiyat 700 milyard kubmetrdir? Bunu deyirsiniz?" Cavab verdim ki, bəli, amma deyə bilərəm ki, orada ehtiyat 1 trilyon kubmetrdən az olmaz. Bəlkə, artıq olacaq, amma əskik olmaz.

Təqdimat mərasimindəki yekun nitqində Heydər Əliyev əldə edilən nailiyyətlərə görə ARDNŞ-ni, "Şahdəniz" konsorsiumunu və bu konsorsiuma daxil olan şirkətləri təbrik edərək dedi: "Bu gün şəxsən mənim üçün böyük bir bayramdır. Çünki hörmətli Xoşbəxt Yusifzadə burada xatırlatdı, 1969-cu ildə mən Azərbaycana başçılıq etdiyim zamandan – 70–80-ci illərdə Azərbaycanın neft sənayesinin inkişaf etdirilməsi üçün çox böyük işlər görmüş və böyük xidmətlər göstərmişdim. Xoşbəxt Yusifzadə düz deyir, əgər o illərdə biz Xəzərin dərinliklərində olan neft və qaz yataqlarından istifadə edilməsi üçün lazımi maddi-texniki baza yaratmasaydıq və bu işləri aparmasaydıq, şübhəsiz ki, indiki nailiyyətləri əldə edə bilməzdik. ...Bu gün "Şahdəniz" konsorsiumunun prezidenti bəyan etdi ki, 400 milyard kubmetr qaz var, ancaq 700 milyard kubmetrə qədər çata bilər. Bizim çox hörmətli geoloqumuz isə, demək olar, Azərbaycanda Xəzər dənizini Yusifzadə kimi bilən ikinci adam yoxdur, deyir ki, orada 1 trilyon kubmetrə qədər qaz olacaqdır".

Zaman və görülən işlər fikirlərimizin doğruluğunu təsdiq etdi. Artıq məlumdur ki, "Şahdəniz" yatağının karbohidrogen ehtiyatları 1 trilyon 200 milyard kubmetr qazdan və 240 milyon ton kondensatdan ibarətdir. Bu sahə dünya dənizlərində indiyədək kəşf olunmuş nəhəng qaz-kondensat yataqlarından biridir.

**– Daha hansı bir görüşünüzü xatırlayırsınız?**

– 2002-ci ilin may ayında ulu öndərlə İrana səfərimiz də yadımdadır. Orada Heydər Əliyev məni İran Prezidenti Məhəmməd Xatəmiyə təqdim edəndə də dedi: "Xəzər dənizini Xoşbəxt qədər bilən ikinci adam yoxdur. Biz onu əlimizin üstündə saxlayırıq. İranda da onu yaxşı tanıyırlar. Sizə də məsləhət görürəm ki, nə qədər o, hələ işdədir, ondan istifadə edin".

Ulu öndərimizin mənim barəmdə söylədiyi bütün bu xoş sözləri xatırlayanda, həqiqətən, özümü dünyanın ən bəxtəvər adamı sayıram. Bəli, mən çox xoşbəxtəm ki, ömrümün ən dəyərli anları, əmək fəaliyyətimin və elmi yaradıcılığımın parlaq səhifələri Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illərlə bağlıdır. O, mənim xətrimi həddən artıq çox istəyirdi. Respublikanın neft və qaz sənayesinin inkişafında xidmətlərimə görə 2000-ci ilin yanvarında məni "İstiqlal" ordeni ilə təltif etməsi və anadan olmağımın 70 illiyi münasibətilə mənə səmimi təbriki də bu hörmətin parlaq təzahürlərindən biri idi.

**– Yubileydən söhbət düşmüşkən bu ilin əvvəlində 93 yaşınız tamam oldu. Bu yaşda da iş başındasınız, "Xalq qəzeti"nin kollektivi adından cansağlığı, yeni uğurlar arzu edirəm. Əminəm ki, növbəti müsahibələrimizdə də sizdən eşitdiklərimiz Azərbaycanın neft tarixinin yeni səhifələri olacaq. Sonda oxucularımıza nə demək istərdiniz?**

– Çox sağ olun. Keçən il dekabrın 7-də möhtərəm Prezidentimiz İlham Əliyev "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı Gəmiqayırma Zavodunda inşa olunan "Akademik Xoşbəxt Yusifzadə" tankerinin istismara verilməsi mərasimində şəxsən iştirak etdi. Hörmətli Prezident, doğrudan da, mənim fəaliyyətimə böyük qiymət verdi, mənə çox böyük bir hədiyyə etdi. Mən o tədbirdə də qeyd etdim ki, hər şeyi gözləyərdim, amma dənizdə mənim adıma gəmi olması, vallah, heç yuxuma da girməzdi.

Bu tədbirdən sonra sizin qəzet bir yazı vermişdi: "Xoşbəxt Yusifzadənin ən xoşbəxt günü". Mənə təqdim etdilər, çox xoş oldu. Mətbuatın, o cümlədən, "Xalq qəzeti"nin mənə olan diqqətini xüsusi qiymətləndirmək istərdim.

Bu gün biz ulu öndərin siyasətinə sadiqik. Bu siyasət bizə uğur gətirdi, tarixi qələbəmizin təminatçısı oldu. Dahi şəxsiyyət Heydər Əliyev haqqında hələ bundan sonra çox danışılacaq, mənim onun haqqında danışdıqlarım da yaddaşımda olanların az bir hissəsidir. Ümummilli liderin Azərbaycan xalqı və dövləti üçün, eləcə də respublikamızın neft sənayesi üçün gördüyü işləri danışmaqla, yazmaqla qurtaran deyil. Müstəqil Azərbaycanın yaradıcısı və qurucusu olan Heydər Əliyevin Vətənimiz qarşısında xidmətləri ölçüyəgəlməzdir. O, böyük şəxsiyyət və böyük vətəndaş idi.

**– Maraqlı söhbət üçün çox sağ olun.**



# Müstəqillik şəraitində dövlət–din münasibətləri

**Bu yaxınlarda AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun “Davamlı inkişafın fəlsəfəsi və sosiologiyası” şöbəsinin müdiri f.e.d., professor Sakit Hüseynovun “Heydər Əliyev və İlham Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsində rolu” adlı kitabı nəşr olunmuşdur. Qeyd etmək lazımdır ki, bu kitab Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nəzdində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondunun maaliyyə dəstəyi ilə Sabunçu rayonu Pirşağı qəsəbəsindəki “Cümə” məscidi dini icmasının həyata keçirdiyi layihə çərçivəsində çap olunmuşdur. Bu tədqiqat əsəri Heydər Əliyevin anadan olmasının 100 illiyinə və İlham Əliyevin hakimiyyətə gəlməsinin 20 illiyinə həsr olunmuşdur.**




Monoqrafiya müstəqillik dövründə ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyevin dövlət-din siyasətinin fəlsəfi-sosioloji cəhətdən araşdırılmasına həsr edilib. Ümumiyyətlə, dünyada elə bir xalq yoxdur ki, onun formalaşmasında dini inancların və adət-ənənələrin payı olmasın. Dini inanclar və dinə olan ehtiyac insanla birlikdə yaranır, onun həyatının ayrılmaz bir hissəsinə çevrilir, ictimai davranış və əxlaq qayda-qanunlarının tənzim edilməsində, həmçinin mənəvi dəyərlərin təşəkkülündə mühüm rol oynayır.

Ümummilli lider Heydər Əliyevin ifadəsi ilə desək: “Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə və adət-ənənələrimzlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar bizim xalqımızın mənəviyyatını təşkil etməkdədir”.

Yaşlı nəsil bilir ki, sovet dövründə hakimiyyət dinə və dini inanclara qarşı obyektiv və birmənalı olmamış, dini mövzuların araşdırılması ateizm düşüncəsi altında həyata keçirilmişdir. Müstəqillikdən sonra Azərbaycan xalqının milli identikliyinin, maddi və mənəvi irsinin, dilinin, dininin, milli şüurunun, milli mentalitetinin, mədəniyyətinin, adət-ənənələrinin, memarlıq abidələrinin qorunması və inkişaf etdirilməsi dövlət qarşısında prioritet məsələlərindən birinə çevrilmişdir.

Bu nöqteyi-nəzərdən professor Sakit Hüseynovun yeni ərsəyə gətirdiyi “Heydər Əliyev və İlham Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsində rolu” adlı kitabının mövzusu olduqca aktualdır və qloballaşma dövründə dinamik xarakter daşıyır. Belə ki, müəllif kitabın əsas mövzusu kimi ümummilli lider Heydər Əliyev və prezident İlham Əliyevin fəaliyyəti, fərman və sərəncamları, çıxış və nitqləri, görüş və qəbulları barədə məlumatları tarixi-xronoloji ardıcıllıqla toplamış, daha sonra elmi-fəlsəfi istiqamətdə şərhlər etmişdir.

Kitabda prezident İlham Əliyevin İslam həmrəyliyi çağırışının zəruriliyi əsaslandırılmış, XX əsr 90-cı illərin əvvəllərində Heydər Əliyevin İslam həmrəyliyi ilə bağlı maraqlı və uzaqgörən ideyaları sosial-fəlsəfi aspektdə şərh edilmişdir. İslam dininin həmişə əmin-amanlıq, qardaşlıq, sülh və barış dini olduğunu vurğulayan Heydər Əliyev “İslam həmrəyliyi”-nin həm təriqətlərarası, həm müsəlman aləmində dialoq, həm də bütün dünyada humanist prinsiplərin bərqərar olunmasına müsbət təsir göstərəcəyinin təhlil edilməsi kitabın ana xəttini təşkil edir.

Bu baxımdan, təqdim olunmuş kitabın mövzusu milli təhlükəsizliyin bir tərkib hissəsi olan dövlət-din münasibətlərinin tədqiqi istiqamətində də böyük əhəmiyyətə malikdir. Müəllif kitabda xalqımız müstəqillik əldə etdikdən sonra din sahəsində yaranmış boşluqlardan və cəmiyyətimiz üçün yaranmış potensial təhlükələr haqqında bəhs etmiş, ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra yaranmış boşluqların aradan qaldırılması və milli təhlüksəizlik çərçivəsində dini ekstremizimlə mübarizə istiqamətində aparılmış nəzəri və əməli işlər barəsində ətraflı şəkildə məlumatlar vermişdir.

Kitabın obyektini tarixi, nəzəri və hüquqi baxımdan, Azərbaycanda din-dövlət və din-siyasət münasibətləri təşkil edir. Bununla yanaşı, Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənmə modeli, cəmiyyətdə din sahəsində yaranmış yeniliklər və çağırışların həlli yolları, ümummilli lider Heydər Əliyev və prezident İlham Əliyevin bu sahədə yürütdükləri din siyasətinin əsas istiqamətlərini müəyyənləşdirən tezislər tədqiqatın əsas predmetini təşkil edir.

Kitabda həmçinin, dini – siyasi ekstremizmin dini-psixoloji və sosial-fəlsəfi cəhətlərinə xüsusi diqqət yetirilmiş və dini- siyasi ekstremizmə qarşı mübarizə yolları araşdırılmışdır. Dini ekstremizmə qarşı mübarizənin qanunvericilik əsaslarına diqqət yetirilmişdir. Bununla bağlı “Dini ekstremizmə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu və “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanunları haqqında müəllif tərəfindən ətraflı şərhlər verilmişdir.

Professor Sakit Hüseynovun gəldiyi qənaətlərdən biri də budur ki, Azərbaycanda İslam dəyərlərinə özünəməxsus qayıdış, İslam dinindən irəli gələn əxlaqi, humanist dəyərlərin müasir demokratik, hüquqi, dünyəvi, mütərəqqi inkişaf meyarları ilə uzlaşması milli-dünyəvi dəyərlərin tərəqqisi, cəmiyyətdə inanc hisslərinin möhkəmlənməsi baxımından müstəsna rol oynayır. Çünki, illər keçdikcə xüsusi ilə də gənclərimiz öz dəyərlərilə daha yaxından tanış olur, onlara daha dərindən yiyələnir və mənimsəyirlər. Gənc nəslin əldə etdikləri bu dəyərlərin tarixi keçmişi, sonrakı dəyişiklikləri və bugünkü əhəmiyyətini bilmək olduqca vacibdir. Prezident İlham Əliyev İƏT-ə üzv olan ölkələrin turizm nazirlərinin V konfransında (11 sentyabr 2006) belə qeyd etmişdir: “... Bizi birləşdirən İslam dini var, bizim mədəniyyətimiz var, insanlarımız bir-birilə nə qədər çox təmasda olsalar, bizim üçün bir o qədər də yaxşı olacaq, İslam dünyası bir o qədər də möhkəmlənəcək”

Bu gün Azərbaycandakı mövcud dini-etnik dözümlülük, müxtəlif mədəniyyətlər arasındakı sivil dialoq dünyanın ən nüfuzlu beynəlxalq təşkilatları tərəfindən də təqdir olunmaqdadır. Xalqlararası və mədəniyyətlərarası dialoqu inkişaf etdirmək, ona dəstək vermək, insanların gələcəyi naminə mədəniyyətlərin və dinlərin qarşılıqlı dialoquna nail olmaq dövlət siyasətinin mühüm tərkib hissəsidir. Milli mədəniyyətin və dini dəyərlərin qorunması, inkişaf etdirilərək gənc nəsillərə çatdırılması ilə bağlı siyasət də dövrün reallıqları ilə uyğunlaşır. Azərbaycan tolerant ölkədir və burada yaşayan bütün xalqların və dinlərin nümayəndələri arasında xoş münasibətlər və qardaşlıq ruhu yaratmaq məqsədilə səylər gündən-günə gücləndirilir.

Kitabın elmi redaktoru Fəlsəfə və Sosiologiya İnstitutunun baş direktoru, fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadə, elmi məsləhətçisi AMEA-nın vitse-prezidenti, akademik Gövhər Baxşəliyeva, rəyçiləri AMEA-nın müxbir üzvü Könül Bünyadzadə, Fəlsəfə elmləri doktoru, professor Əyyub Kərimov, tarix elmləri doktoru, dosent Eynulla Mədətli, fəlsəfə elmləri doktoru, professor Azər Mustafayev, hüquq elmləri doktoru, BDU-nun professoru Etibar Əliyev və ilahiyyat üzrə fəlsəfə doktoru, dosent Aqil Şirinovdur.

Sonda qeyd etmək istərdim ki, prof. S.Hüseynovun yazdığı bu fundamental əsər ağır işin və uzun zaman kəsiyində aparılmış tədqiqatların nəticəsidir. Belə ki, əsər Azərbaycan xalqı müstəqillik əldə etdikdən sonra ölkəmizdəki dövlət və din münasibətlərinin tarixindən, hazırki vəziyyətindən və gələcək perspektivlərindən bəhs edir.

***Elnur MUSTAFAYEV,***
***AMEA Şərqşünaslıq İnstitutu Din və ictimai fikir şöbəsinin müdiri, fəlsəfə doktoru***



# Müasir Azərbaycan Heydər Əliyev siyasətinin təntənəsidir

**Dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ölkəmizdə və onun hüdudlarından kənarda böyük təntənə ilə qeyd edilir. Dövlət başçısı İlham Əliyevin sərəncamı ilə 2023-cü ilin ölkəmizdə “Heydər Əliyev İli” elan edilməsi ümummilli liderin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərinin miqyasının nə qədər böyük olduğunun təsdiqidir.**

Adı daim milli dövlətçiliyimizlə qoşa çəkilən, fenomen şəxsiyyət Heydər Əliyevin hakimiyyətinin hər iki dövrü dövlətə, xalqa xidmət nümunəsidir. 1969–1982-ci illərdə ölkəmiz ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə böyük uğurlara imza atdı. Əgər o vaxt müttəfiq respublikalar arasında cəmi iki ölkə özü-özünü təmin edə bilirdisə, onlardan biri Azərbaycan idi. Bu gün də ölkəmizin inkişafına xidmət edən çox güclü infrastruktur, yeni sənaye sahələri məhz o illərdə yaradılmışdır. O illərdə əsas diqqət respublikada yeni müəssisələrin, zavod və fabriklərin yaradılmasına, yeni yolların, dəmir yollarının çəkilməsinə yönəldilmişdir. Siyasi hazırlığı və idarəşilik qabiliyyəti ilə diqqəti cəlb edən Heydər Əliyev SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini, MK Siyasi Bürosunun üzvü kimi çalışdığı dövrdə də Azərbaycanla bağlı məsələləri daim diqqət mərkəzində saxlamışdır.

Ümummilli liderin fəaliyyətinin hansı dövrünə diqqət yetirsək, Vətən, torpaq, xalq sevgisinin onda nə qədər böyük olduğunu görərik. Azərbaycançılıq məfkurəsinin ən parlaq səhifələri də məhz hakimiyyətinin birinci dövründə yazılmışdır. Ulu öndər o dövrdə Azərbaycanda milli ruhun sıxışdırılmasına nəinki yol verməmiş, əksinə, onu yüksəltmək yolunda bütün imkanlardan maksimum dərəcədə istifadə etməyi bacarmışdı. Bu baxımdan, Heydər Əliyevin respublika rəhbərliyinə gəlişindən sonrakı dövr milli özünüdərkin, milli özünəqayıdışın başlanğıcı kimi qəbul edilir. Dahi şəxsiyyət Azərbaycanın müstəqil gələcəyini düşünərək, mühüm addımlar atmışdır. Azərbaycanlı gənclərin keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərinə göndərilməsi, hərbi kadrların hazırlanması üçün Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılması, Azərbaycan dilinin inkişafına diqqətin yönəldilməsi və sair kimi mühüm məqamlar bu günümüzə hesablanmış addımlar idi. Məhz ümummilli liderin səyi və gərgin nəticəsində 1978-ci il Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olundu. Dövr baxımından qəhrəmanlığa bərabər olan belə bir addım məhz müstəqil Azərbaycanın gələcəyi naminə atılmışdır. Azərbaycan dilinin idarəçilikdə geniş tətbiqi, böyük klassiklərin İttifaq miqyasında yubileylərinin keçirilməsi və sair kimi mühüm tədbirlər Heydər Əliyevin milli dövlətçiliyimizin ideya təməlində dayanan siyasətinin əməli nəticələridir.

Naxçıvanda işlədiyi müddətdə də Azərbaycan naminə önəmli addımlar atan müdrik siyasətçi müstəqilliyimizin əbədiliyini təsdiqləyən Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının, gerbinin, himninin bərpası ilə uzaqgörənliyini təsdiqlədi. Sovet İttifaqının saxlanmasına dair referendum Naxçıvanda keçirilmədi. Muxtar respublikanın adından “sovet, sosialist” sözləri çıxarıldı. Ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, milyonların partiyası kimi nüfuz qazanan, yarandığı gündən ümumxalq partiyası kimi tanınan Yeni Azərbaycan Partiyasının yaradılması da Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısında ən böyük xidmətlərindəndir.

Ulu Öndərin 1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə qayıdışı Azərbaycanın xilası dövrü kimi xarakterizə edilir. 1991-ci il 18 oktyabr tarixində dövlət müstəqilliyini yenidən bərpa edən Azərbaycan ilk illərdə ölkəyə idarəçilikdən xəbərsiz, öz şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutan ünsürlərin rəhbərliyi ucbatından müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Xalqın sabaha ümidləri itmişdi. Belə bir çətin dövrdə xalq xilaskarını – Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Prezident İlham Əliyev həmin dövrü belə xarakterizə edir: “Xalq o ağır günlərdə yeganə nicat yolunu Heydər Əliyevdə görürdü və o da xalqın etimadını həmişə olduğu kimi doğrultdu. Onun rəhbərliyi ilə aparılan siyasət qısa müddət ərzində Azərbaycanda sabitliyə, inkişafa gətirib çıxarmışdır. Baxmayaraq ki, hələ 1994-cü və 1995-ci illərdə iki dəfə dövlət çevrilişinə cəhd göstərilmişdir və o cəhdlərin də qarşısını Azərbaycan xalqı aldı”. Məhz ümummilli liderin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində ölkəmizdə sabitlik təmin edildi, inkişaf, tərəqqi dövrü başlandı. Müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyev bir çox önəmli təşəbbüslər irəli sürdü, dövlətçiliyin əsasları qoyuldu, azərbaycançılıq fəlsəfəsi ideoloji siyasətimizin əsas amili kimi təfəkkürlərdə formalaşdı.

Azərbaycanın dövlətçilik tarixində 1993–2003-cü illər sabitlik, inkişaf illəri olmuşdur. Ulu öndər çoxşaxəli fəaliyyəti ilə təsdiqlədi ki, hər bir ölkənin həyatında lider amili əsasdır. Dövlətinin, xalqının gələcəyini düşünən Heydər Əliyev ölkəsini daim irəli aparır. Azərbaycanın qurucusu olduğunu əməlləri ilə təsdiqləyən, xalqın milli məfkurə və təfəkkürünü inkişaf etdirməklə ən böyük azərbaycanlı olduğunu sübuta yetirən, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı təşkilatlandıran, xalqı cəmiyyətin siyasi sistemində aparıcı qüvvə, möhtəşəm vahid siyasi güc mərkəzi kimi birləşdirən ulu öndər bir daha təsdiqlədi ki, mənalı həyatını xalqına həsr etmiş tarixi şəxsiyyətdir. Sağlığında əfsanəyə çevrilən ulu öndərin fəaliyyətinin hər bir istiqaməti tədqiqat mövzusudur. İllər ötdükcə xidmətlərin miqyası daha aydın görünür. 100 ilin zirvəsindən baxdıqda yaradılan möhkəm təməlin üzərində daha böyük addımlarla irəliyə inamla baxan, yeniliyə, təkmilləşməyə maraq göstərən Azərbaycanı möhtəşəm uğurlar gözlədiyini əminliklə qeyd edirik. Məhz möhkəm təməl Azərbaycana qalibiyyət sevincini yaşatdı. 2003-cü ildən başlanan böyük yol Azərbaycana bir-birindən önəmli uğurlar qazandırdı.

Ümummilli liderin ən böyük xidmətlərindən biri xalqa 2003-cü ildə tarixi müraciəti ilə Azərbaycanın bugünkü və gələcək inkişafı üçün inamın növbəti ünvanını göstərməsi oldu. Dahi şəxsiyyət cənab İlham Əliyevə özü qədər inandığını bildirdi. Həmçinin belə bir əminliyi ifadə etdi ki, axıra çatdıra bilmədiyi işləri, planları cənab İlham Əliyev xalqın və Yeni Azərbaycan Partiyasının dəstəyi ilə axıra çatdıracaq.

Azərbaycanın Günəş kimi dünyaya doğması ulu öndərin ən böyük arzuları sırasında idi. Dahi şəxsiyyət düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanın dünyaya Günəş kimi doğmasını təmin etdi, Prezident İlham Əliyev bu möhkəm təmələ söykənərək, ölkəmizi daha da gücləndirdi və torpaqlarımızın xilaskarı kimi adını tarixə qızıl hərflərlə yazdırdı. Müzəffər Ali Baş Komandan İlham Əliyev ata vəsiyyətini yerinə yetirdiyi üçün özünü xoşbəxt hiss etdiyini bildirir. Dövlət başçısı mayın 10-da ümummilli liderin anadan olmasının 100 illik yubileyi münasibətilə Şuşadan müraciətində xoşbəxtliyini bir daha bu fikirlərlə ifadə etmişdir. “Qarabağı azad görmək Heydər Əliyevin və bütün dünya azərbaycanlılarının əsas arzusu idi. Biz bu arzunu, Azərbaycan xalqının arzusunu yerinə yetirdik” söyləyən ölkə Prezidenti bildirmişdi ki, 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq: “O gün mənə, bax, bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport veriləndən sonra, bu binanın üstünə Bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, “Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!”. Ondan sonra Şəhidlər xiyabanını ziyarət etdim, şəhidlərimizin ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, qanınız yerdə qalmadı”.

Bu gün Qarabağ və Şərqi Zəngəzur dirçəlir. Tarixi sahibinə qovuşan torpaqlarımız özünün sevincli anlarını, bərpa-quruculuq dövrünü yaşayır. Hər bir şəhər, kənd və qəsəbə müasir tələblər səviyyəsində yenidən qurulur, soydaşlarımızın gələcəkdə daha yaxşı, təhlükəsiz yaşayışı üçün bütün zəruri addımlar atılır. Tezliklə Böyük Qayıdış proqramı uğurla başa çatacaq. Bu torplarımız sakinlərinə qovuşaraq həyatının tamamilə yeni dövrünü yaşayacaq. Qarabağ və Şərqi Zəngəzur cənnət məkana çevrilir. Dövlət başçısı İlham Əliyev “Qarabağın və Zəngəzurun bərpası missiyasını da uğurla icra edəcəyik. Necə ki, ulu öndərin vəsiyyətini yerinə yetirərək öz doğma torpaqlarımızı azad etdik, ərazi bütövlüyümüzü bərpa etdik, aprelin 23-də Azərbaycan–Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qurduq, orada Azərbaycan Bayrağını qaldırdıq, ərazi bütövlüyümüzü tam bərpa etdik, eləcə də mülki missiyamızı – bu gözəl diyarın bərpası missiyasını da şərəflə yerinə yetirəcəyik” fikirləri ilə Qarabağlı və Şərqi Zəngəzurlu Azərbaycanın gələcək inkişafının aydın mənzərəsini təqdim edir. Dünyaya səs salan bütün uğurlarımız, Azərbaycanın mükəmməl inkişaf modeli Heydər Əliyev siyasətinin təntənəsidir.

***Meydanəli YOLÇUYEV,***
***YAP Daşkəsən rayon təşkilatının sədri***

# Tələbə musiqiçilərin yubiley töhfəsi



**Rəşid Behbudov adına Mahnı Teatrında Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci tələbələrinin ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə və kollecin 125 illiyinə həsr edilmiş maraqlı konsert proqramı təqdim olunub.**



Konsert proqramı Elm və Təhsil Nazirliyi, Nəsimi Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı, Azərbaycan Milli konservatoriyası nəzdində Musiqi Kollecinin birgə təşkilatçılığı ilə reallaşıb.

Əvvəlcə ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş videoçarx təqdim olunub. Ardınca Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov ulu öndərin dövlətçilik tariximizdəki misilsiz rolundan danışıb. Vurğulayıb ki, Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkəmizdə siyasi sabitlik bərqərar oldu, vətəndaşlarımızın güzəranı xeyli yaxşılaşdı: “Respublikamız vətəndaş müharibəsinin astanasında idi. Məhz Heydər Əliyev ölkəmizi parçalanma təhlükəsindən xilas edərək dünya azərbaycanlılarının həmrəyliyini təmin etdi”.

Musiqi Kollecinin direktoru Nazim Kazımov çıxışında ulu öndərin mədəniyyət xadimlərinə, incəsənət adamlarına göstərdiyi xüsusi qayğıdan bəhs edib. Bildirib ki, Heydər Əliyevin mükəmməl bilik və bacarığı mədəniyyət sahəsində də dərin və silinməz izlər qoyub. Danılmaz həqiqətdir ki, onun hakimiyyəti illərində mədəniyyətimiz sürətlə inkişaf edib, milli ruhumuz özümüzə qayıdıb.

Daha sonra Yeni Azərbaycan Partiyasında fəal iştirakına görə kollecin müəllim və tələbələrinə mükafatlar təqdim edildi.

Konsert proqramı Musiqi kollecinin istedadlı tələbələrinin ifasında mahnı və musiqi kompozisiyaları ilə davam etdi. Kollecin xalq çalğı alətləri və nağaraçalanlar ansamblları, xor kollektivi, nəfəs və zərb alətləri orkestri və digər solistlərin ifasında yerli və xarici bəstəkarların mahnıları təqdim olundu.

Bakı Musiqi Kollecinin tələbəsi Amin Əsgərli və ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş Respublika müsabiqəsində fərqlənmiş İradə Məmmədovanın ifasında Ramiz Duyğunun “Karvan gedir öz yoluyla” və “Yurdum” şeirləri alqışlarla qarşılanıb.

**Fidan HÜQUQQIZI,**
**Rizvan FİKRƏTOĞLU,**
**Elşən AĞALAROV (foto),**
**“Xalq qəzeti”**

# Azərbaycan Xalq Cümhuriyyəti: MÜSTƏQİLLİK VƏ ƏYALƏTLƏR

**Azərbaycanın şimalını işğal edərək bu ərazidə milli dövlətçiliyimizə xitam vermiş çar Rusiyası imperiyasının 1917-ci ildə inqilabi yolla dağıdılması xalqımızın itirilmiş suverenliyini bərpa etmək üçün tarixi şans yaratdı. 1918-ci il mayın 28-də Cümhuriyyətin qurulması ilə Azərbaycan yenidən dövlət müstəqilliyinə qovuşdu. Müstəqillik Azərbaycanın dövlətçilik ənənəsini yeni tarixi şəraitdə davam etdirilməklə yanaşı, bir sıra mühüm başlanğıcların da əsasını qoydu. Dövlətçilik tarixində Respublika dövrü başlandı, onun atributları formalaşdırıldı, dünya birliyi tərəfindən de-yure tanındı.**



Müstəqilliyin ən mühüm yeniliklərindən biri isə əyalətləri Rusiya imperiyası dövründəki müstəmləkə sistemindən çıxararaq ümumazərbaycan tarixi proseslərinə cəlb etməsi, bir sıra məqamlarda həlledici mövqeyə yüksəltməsi oldu. AXC tarixinin nisbətən az öyrənilmiş mövzularından olan müstəqillik və əyalətlər məsələsi ilə bağlı apardığımız tədqiqatın milli hökumətin əyalətlər sisteminin formalaşmasına həsr edilmiş birinci hissəsini ilk dəfə “Xalq qəzeti”nin oxucularına təqdim edirik.

Xarici tarixşünaslıqda əyalət (provinsiya) anlayışının tarixi və mənası barədə müəyyən tədqiqatlar olsa da, Azərbaycan tarixşünaslığında bu barədə hələ ki, xüsusi araşdırma yoxdur. Ümumi şəkildə götürüldükdə “əyalət” anlayışı altında bir sıra hallarda olduğu kimi, əsasən, dövlətin inzibati-ərazi vahidləri nəzərdə tutulur. Müasir leksikonda daha çox region termini işlənir.

Rusiya imperiyası dövründə Şimali Azərbaycanda çoxqatlı əyalət sistemi mövcud olmuşdur. Mərkəzi Tiflis olan Qafqaz imperiyanın paytaxtı Sankt-Peterburqa görə əyalət idi. Rusiya geopolitik sisteminə uyğun olaraq, Zaqafqaziya (Cənubi Qafqaz) onun tərkib hissəsi kimi çıxış edirdi. Zaqafqaziya özü quberniyalara bölünürdü və bu quberniyalar da həm imperiyanın mərkəzinə, həm də Tiflisə nisbətdə əyalətləri təşkil edirdi. Quberniyalar isə qəzalara bölünürdü və onlar da quberniya mərkəzinə nisbətdə əyalət idi.

Cümhuriyyətin qurulması ilə dövlətin paytaxt şəhəri (əvvəlcə Gəncə, sonra Bakı) formalaşdı. İnzibati-ərazi vahidləri paytaxt şəhərlərinə münasibətdə yeni status qazandı. Beləliklə, imperiya dövründəki çoxqatlı əyalət sistemi dağıldı və Cümhuriyyət dövründə yeni tipli əyalət strukturu meydana gəldi.

## Cümhuriyyətin ərazisi və əhatəsi

Əyalət strukturunun formalaşması üçün ilk öncə dövlətin ərazisi mühüm şərt idi. Cümhuriyyətin ərazisi haqqında ilk dəfə İstiqlal bəyannaməsində bəhs edilmişdir. Həmin sənədin 1-ci bəndində qeyd edilirdi ki, “Bu gündən etibarən Azərbaycan xəlqi hakimiyyət həqqinə malik olduğu kibi, Cənub-Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan dəxi kamil-əl-hüquq müstəqil bir dövlətdir”. Dövlətin ərazisinin müəyyən edilməsinin ilk addımı uğurlu, o dərəcədə də ağır nəticəli oldu. Azərbaycan Milli Şurası 29 may 1918-ci ildə, bir tərəfdən tarixi həqiqətdən çıxış edərək İrəvanı öz ərazisi kimi təsdiq etdi, digər tərəfdən onu ermənilərə verdi. Görünür, bu hadisə ərazi məsələsində Cümhuriyyətin sonrakı fəaliyyətinə dərin təsir göstərdi.

Cümhuriyyət hökuməti bu aktdan başlayaraq, dövlətin ərazisinin müəyyən edilməsi üçün özünəməxsus konseptual yanaşma irəli sürə bildi. Bu, Cümhuriyyət dövrünə aid bir sıra mühüm sənəd və materiallarda təsbit olunub. Bu sırada Ə.M.Topçubaşovun Azərbaycanın təşəkkülünə dair özünün yazdığı kimi kiçik risaləsini, Antanta dövlətlərinin İstanbuldakı nümayəndələrinə təqdim edilən memorandumu (1918, noyabr), “Azərbaycan məclisi-Məbusanı təsisi haqqında qanunu”, Xarici İşlər Nazirliyinin əməkdaşı F.Şepotyevin məruzəsini (1919, fevral), yenə Topçubaşovun Qafqazda Azərbaycan Respublikası (1919) memorandumunu və 1920-ci ilə aid Ünvan-təqvimi qeyd etmək olar. Bu sənəd və materialların xronologiyası, təyinatı və sistemliliyi bu fikri bir daha təsdiq edir.

Bu konseptual yanaşma ərazinin təsviri ilə kifayətlənmir, eyni zamanda, əsaslandırılmasında kompleks faktorların kombinasiyasına istinad edilirdi. Onun ən önəmli cəhətlərindən biri tarixi ənənə ilə birlikdə, öz dövrünün şərtlərini də nəzərə alması idi. Əhalinin etnik tərkibi və iqtisadi faktorlara da önəm verilirdi. Azərbaycan dövlətinin tərkibinə daxil edilməsi zəruri olan ərazilərdən bəhs edilərkən orada yaşayan əhalinin öz müqəddəratını təyin etmək hüququna və iqtisadi mənafelərə də geniş yer ayrılırdı.

Paris sülh konfransındakı Azərbaycan sülh nümayəndəliyinin tələblərində bu konsepsiya əksini tapıb. “Tələb”lərdə qeyd edilirdi ki, Dağıstan vilayətinə gəldikdə, onun azərbaycanlılarla qohum olan hissəsi həmişə Azərbaycana meyl etmişdir. Onun iqtisadi mənafeləri Quba və Bakı şəhərləri ilə o dərəcədə bağlıdır ki, Dağıstanı bu siyasi və iqtisadi əlaqələrdən kənarda təsəvvürə gətirmək qeyri-mümkündür. Bu, Sulak çayı boyunca Dağıstanın Azərbaycana birləşdirilməsi barədə geniş müraciətlər edən əhali tərəfindən də dərk edilir. Qars əyaləti, Batum və Tiflis quberniyasının Axalsıx qəzasının Azərbaycanın tərkibinə daxil edilməsi isə burada etnik faktor və əhalinin müraciətləri ilə birgə, ciddi strateji hədəf, Qara dənizə çıxış əldə etmək siyasətində də əksini tapırdı. Osmanlı ordusunun bölgəni tərk etməsi nəticəsində yaranan yeni geopolitik vəziyyətdə həmin ərazilərdə müstəqil respublika yaratmaq da qəbul edilirdi. Bu mümkün olmadıqda isə Azərbaycan ona dənizə çıxmaq imkanı verən bu əraziləri daha böyük hüquqla iddiasını irəli sürməli idi.

Cümhuriyyətin ərazisinin əsas məsələləri bu konsepsiya daxilində Cənubi Qafqazın o zamankı inzibati-ərazi vahidləri üzrə müəyyən edilirdi.

Rusiya işğalı ərəfəsində Cənubi Qafqazda yalnız azərbaycanlı və gürcülərin dövlətləri var idi. Azərbaycan bu dövrdə xanlıqlara bölünmüşdü. Xanlıqlar mahallara bölünürdü. Xanlıqlar dövründə Azərbaycanın etnik və siyasi sərhədləri bir-birinə uyğun gəlirdi, daha doğrusu, Azərbaycanın tarixi siyasi-dövlət sərhədləri əhatə edirdi. İmperiya tədricən bu dövləti ləğv etməyə başladı. Bu prosesdə Cənubi Qafqazda, o cümlədən Azərbaycanda mövcud olan sərhədlər və inzibati-ərazi bölgüsü də ciddi dəyişikliklərə məruz qaldı.

Çar hökumətinin Cənubi Qafqazda həyata keçirdiyi inzibati-ərazi bölgüsü zamanı Şimali Azərbaycan torpaqlarının da inzibati-ərazi bölgüsündə (xüsusilə 1840, 1846, 1867, 1873-cü illərdə) yeni sistem formalaşdırıldı.

Qafqaz təqviminin (1917) məlumatına görə, Azərbaycan Xalq Cümhuriyyətinin və digər müstəqil dövlətlərin yaranması ərəfəsində Cənubi Qafqaz inzibati-ərazi bölgüsünə görə quberniya, vilayət və dairələrə bölünmüşdü. Cənubi Qafqazın ərazisi (Qara dəniz quberniyası daxil edilmədən) 208827,87 kv.verst (234639 kv.km.) idi. Bu, bütün Qafqaz ərazisinin 57,7%-ni təşkil edirdi.

Azərbaycana gəldikdə, bu məsələ daha geniş şəkildə Paris sülh konfransındakı Azərbaycan sülh nümayəndəliyinin tələblərində də əks olunmuşdu. Həmin sənədə əsasən, Azərbaycan Xalq Cümhuriyyəti aşağıdakı əraziləri əhatə edirdi: Bakı quberniyası (Bakı dairəsi ilə birlikdə Bakı qəzası, Cavad qəzası, Göyçay qəzası, Şamaxı qəzası, Quba qəzası, Lənkəran qəzası); Yelizavetpol (Gəncə) quberniyası (Yelizavetpol, yeni, Gəncə qəzası, Cavanşir qəzası, Nuxa qəzası, Ərəş qəzası, Şuşa qəzası, Qaryagin, yəni, Cəbrayıl qəzası, Zəngəzur qəzası, Qazax qəzası (bu ərazinin üçdə birini təşkil edən dağlıq hissəsi Azərbaycan və Ermənistan arasında mübahisəli ərazi kimi qalırdı); İrəvan quberniyası (Naxçıvan qəzası, Şərur-Dərələyəz qəzası, Sürməli qəzası, habelə Yeni Bəyazid qəzası, Eçmiədzin və Aleksandropol qəzalarının bir hissəsi); Tiflis quberniyası (Borçalı qəzası, Tiflis və Sığnaq qəzalarının bir hissəsi); Zaqatala dairəsi; Dağıstan vilayəti (Kür və Samur nahiyələrini əhatə edən ərazinin bir hissəsi, habelə Dərbənd şəhəri və onun ətrafı da daxil olmaqla, Qaytaq–Tabasaran qəzasının bir hissəsi). Bundan başqa, Azərbaycan Cümhuriyyəti Tiflis quberniyasındakı Axalsıx qəzasının bir hissəsi, Batum, xüsusən Qars əyalətlərinin də öz ərazisinə daxil etməyə xüsusi əhəmiyyət verirdi. Bu tələblərə xüsusi hazırlanmış xəritə də əlavə edilib.

“Tələb”lərdə qeyd edilirdi ki, əlavə edilmiş xəritədən də göründüyü kimi, indi Azərbaycan Respublikasının hakimiyyətinin faktiki yayıldığı Azərbaycan ərazisi Şərqdə Xəzər dənizi, Şimalda Dağıstan, Şimali Qafqaz və Gürcüstan, qərbdə Gürcüstan və Ermənistan, Cənubda İranla həmsərhəddir. Azərbaycan Respublikasının malik olduğu bu hüdudlarda 83278,66 kv. verst, yaxud 94137,38 kv. km ərazidə yerləşir. Bu ərazinin sahəsi Cənubi Qafqazın bütün sahəsinin 39%-nə bərabər olan 217408 kv. verst, yaxud 247376,15 kv. km təşkil edir. Hesablamaya görə, əgər həlelik Azərbaycan hakimiyyətinin malik olduğu əraziyə daxil olmayan sahə də əlavə edilsə, onda 132003, 25 kv. verst və ya, 150184, 88 kv. km ərazi alınar ki, bu da bütün Cənubi Qafqazın 60 faizini təşkil edər.

Cümhuriyyətin ərazisinə dair son məlumatlardan biri isə Xarici İşlər Nazirliyinə aiddir. Nazirliyin tədqim etdiyi xəritə və məlumatlar 1920-ci ilin ünvan - təqvimində nəşr olunmuşdur. Həmin məlumatlara görə, Cümhuriyyətin ərazisi 113,9 min kv. km-ə bərabər idi (o cümlədən, mübahisəsiz ərazi 97,3 min kv. km; mübahisəli ərazi 16,6 min kv. km). Bu, Qafqaz təqviminə (1917) görə, Cənubi Qafqaz ərazisinin 47,84%-nə bərabər idi. Mübahisəsiz ərazi üzrə bu rəqəm 40,87% idi.

## Paytaxt və əyalətlər sistemi

Cümhuriyyətin ərazisinin əhatə dairəsinin müəyyən edilməsi nə qədər vacib olsa da, əsas məsələ bu ərazinin siyasi birləşdirilməsi və müdafiəsinin həyat keçirilməsi ilə bağlı idi. İnzibati-ərazi bölgüsü və yerli idarəetmə onların həllindən asılı idi. Bir-birilə qarşılıqlı əlaqədə olan bu məsələlər Cümhuriyyətin mövcud olduğu bütün dövrdə gündəlikdə durduğundan dinamik bir proses oldu.

Burada ilk dövr kimi 1918-ci ilin may–noyabr aylarını ayırmaq olar. Cümhuriyyətin ərazisinin müəyyən edilməsi ilə birgə, onun təmin edilməsinə də məhz bu dövrdə başlanıldı. Bu dövr həm də ərazi və onun inzibati bölgüsünə dair dövlət siyasətinin formalaşmasının bazasını təşkil edib, onun istiqamətlərini müəyyən edib. Azərbaycan Cümhuriyyətinin tarixi coğrafi ərazi hüquqları ilə bərabər, hərbi-siyasi dominantlığı da bu prosesə müsbət təsir edib.

Cümhuriyyət hökumətinin Gəncəyə köçməsi və burada hakimiyyətini bərqərar etməsi bütün sahələrdə olduğu kimi dövlətin ərazisinin, o cümlədən ərazi-inzibati vahidlərinin siyasi cəhətdən birləşdirilməsinin əsasını qoydu. Cümhuriyyətin ilk əyalət sistemi onun birinci paytaxtı Gəncə ətrafında formalaşmağa başladı. Gəncə şəhəri və quberniyaya daxil olan Gəncə, Qazax, Ərəş, Nuxa, Cavanşir, Qaryagin, Şuşa və Zəngəzur qəzaları Cümhuriyyətə tabe edildi. Zaqatala dairəsi isə 1918-ci ilin iyunun 28-də Azərbaycan Cümhuriyyətinin tərkibinə daxil olundu.

Paytaxt Gəncə və onun əyalətlərinin resursları digər şərtlərlə birgə, Bakı və quberniyaya daxil olan əyalətlərin azad edilməsində mühüm rol oynadı. Bakı şəhəri və quberniyanın Bakı Xalq Komissarları Soveti, sonra isə Sentrokaspi və ingilis hərbi qüvvələrindən azad edilməsi uğrunda mübarizə başladı. Göyçay və Şamaxı qəzaları azad edildi. 1918-ci il sentyabrın 15-də Bakı şəhəri azad edildi və yeni paytaxt oldu. Bakının paytaxta çevrilməsindən sonra da Gəncənin dövlətin həyatındakı önəmi onu faktik olaraq ikinci paytaxt kimi müəyyən etdi. Təsadüfi deyil ki, ingilislərin dövründə Hərbi nazirlik silahlı qüvvələri ilə birgə, Gəncəyə köçürülmüşdü.

Sentyabrın 17-də hökumət Bakıya köçdü. Hökumətin Bakıya köçməsilə burada hakimiyyətin möhkəmləndirilməsi tədbirləri də gücləndirildi. Cümhuriyyətin hakimiyyəti altına keçən ərazi genişləndi və ərazi-inzibati quruluşu dolğunlaşdı. Bakı yeni paytaxt kimi ölkənin əyalətlərinin yeni siyasi mərkəz ətrafında birləşdirilməsini davam etdirdi.

Bakı, Quba və Cavad qəzalarında da hakimiyyət bərqərar edildi. Beləliklə, bu dövrün sonunda Lənkəran qəzası istisna olmaqla (1919-cu ilin iyulunda azad edildi) bütün Bakı quberniyası Cümhuriyyətə tabe edildi.

Azərbaycan torpaqlarının mühüm bir hissəsi İrəvan quberniyası tərkibində idi. İrəvan şəhərinin ermənilərə verilməsi belə, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin qarşısını ala bilmədi. Ermənistan yarandığı vaxtdan etibarən Cümhuriyyətə qarşı onun varlığının bütün dövrlərində davam edən qanlı müharibəsinin (1918–1920) əsasını qoydu. Bu müharibənin məhz ilk dövründə (1918-ci il iyun-oktyabr) Cümhuriyyət bu təcavüzün qarşısını ala bildi, İrəvan quberniyası tərkibində müəyyən etdiyi torpaqlara üzərində hakimiyyətini az və çox dərəcədə bərqərar edə bildi. Bunun nəticəsi idi ki, bu dövrdə Cümhuriyyət quberniyanın Naxçıvan, Şərur–Dərələyəz, Sürməli və İrəvan qəzasının bir hissəsində hakimiyyətini təmin edə bildi.

Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq fəaliyyəti məhdudlaşdırılsa da, onlar əsas diqqəti təbliğata yönəltmişdilər. Yuxarıda qeyd edilən kimi, İstanbul konfransının imkanları burada əsas yer tuturdu. Azərbaycan hakimiyyəti bu platformada da mübarizəsini davam etdirirdi.

Tiflis quberniyasının tərkibində qalan Azərbaycan torpaqlarının taleyi isə fərqli oldu. Gürcüstan hökuməti keçmiş Tiflis quberniyasına daxil edilmiş Azərbaycan torpaqlarını – Borçalı, Qarayazı və Sığnaq mahallarını Azərbaycana qaytarmaqdan boyun qaçırdı. Gürcü silahlı qüvvələri alman hərbi dəstələri ilə birləşərək, 1918-ci il iyunun əvvəllərində Borçalıya daxil oldular. Ayın 14-də Azərbaycanın Xarici İşlər Nazirliyi azərbaycanlıların məskunlaşdığı Borçalıya və digər ərazilərə birləşmiş gürcü-alman hərbi qüvvələrinin yeridilməsinə qarşı nota verdi, sərhəd məsələsinin siyasi yolla həll olunmasını təklif etdi. Gürcüstan hökuməti buna razılıq vermədi.

Beləliklə, Cümhuriyyət Əlimərdan bəy Topçubaşovun Antanta dövlətlərinin İstanbuldakı nümayəndələrinə göndərdiyi xüsusi memorandumda və Paris sülh konfransına tələblərdə göstərilən əraziyə daxil olan inzibati vahidləri (Dağıstan və Tiflis quberniyasının Axalsıx qəzası, Batum və Qars əyalətləri istisna olmaqla), əsasən, siyasi cəhətdən birləşdirməyə nail ola bildi.

Osmanlı ordusunun Mudros müqaviləsi əsasında Azərbaycan torpaqlarını tərk etməsi və ingilislərin gəlişi ilə yaranan yeni dövrdə (1918-ci il noyabr-1919-cu il avqust) dövlətin ərazisi, o cümlədən əyalətləri uğrunda mübarizə yeni mərhələyə qədəm qoydu.

1918-ci il noyabrın 17-də general U.Tomsonun başçılığı ilə ingilislər Bakıya daxil oldu. Hərbi vəziyyət elan olundu. Bakıda ingilis general-qubernatorluğu (1918-ci il noyabr–1919-cu il aprel) təşkil edildi. Bu, Azərbaycanın siyasi quruluşunda yeni bir qurum oldu. Tomson dekabrın 28-də Fətəli xan Xoyski hökumətini yeganə yerli qanuni hökumət kimi tanısa da, dövlət həyatının ən mühüm sahələri kimi ərazi məsələsinə də müdaxilə edirdi. Azərbaycan hökuməti bunları nəzərə alaraq bu general-qubernatorluğun diplomatik vasitələr ilə ləğvinə çalışırdı.

İngilislərin Bakı neftində iqtisadi maraqları olduğu üçün Bakıda sabitliyə üstünlük verirdilər, lakin siyasi məqsədlərini də davam etdirirdilər. İngilislərin dövründə Lənkəran qəzasında denikinçilərin hakimiyyəti (1918-ci il avqust-1919-cu il aprel) davam edirdi. Denikinçilərdən sonra qəzada Muğan Sovet Respublikası (1919-cu il aprel–iyul) elan edildi. Cümhuriyyət yalnız, ingilislərin mövqelərinin zəifləməsindən sonra Lənkəranda hakimiyyətini (1919-cu ilin iyul) yarada bildi.

Dövlətin şimal sərhədləri üçün isə Denikinin Könüllü ordusu tərəfindən ciddi təhlükə getdikcə artmaqda idi. İngilislər müəyyən siyasi manevrlərə baxmayaraq, Denikinlə əməkdaşlıq edirdi. Könüllü ordunun öz tərəfdarları vasitəsilə istər ölkənin daxilində, istərsə də onun sərhədlərindəki fəaliyyəti dövlətin ərazi bütövlüyünü təhdid edirdi. Azərbaycan hökuməti şimal sərhədlərini hərbi cəhətdən möhkəmləndirmək ilə birgə, siyasi tədbirlər də gördü. Denikinin hərəkatının qarşısının alınması üçün ingilis komandanlığına müraciət edilirdi. Denikin təhlükəsinə qarşı diplomatik mübarizə Paris sülh konfransındakı Azərbaycan nümayəndə heyətinin də gündəliyində idi.

Denikin təhlükəsini artıran ən mühüm amillərdən biri də onun Ermənistan dövləti ilə əməkdaşlığı idi. Denikin təhlükəsi 1919-cu ilin mayında çağırılan Zaqafqaziya konfransında müzakirə edilən zaman ermənilər Denikin ilə olan sazişi nəzərə alaraq, faktik kənarda qaldılar. Azərbaycan Gürcüstan ilə bu sahədə fəaliyyətini genişləndirib, 1919-cu il iyunun 16-da Gürcüstan ilə hərbi əməkdaşlıq haqqında saziş imzaladı.

**(ardı var)**




***Kərim ŞÜKÜROV,***
***AMEA Tarix İnstitutunun baş direktoru, professor***

# Müsəlman Şərqinin ilk Cümhuriyyəti

**(əvvəli ötən sayımızda)**

Gəncədə Qafqaz İslam Ordusu komandanlığı ilə yaranmış ixtilaflar nəticəsində öz işini dayandırmış Milli Şura noyabr ayında Bakıda fəaliyyətə başladı. Azərbaycan parlamentini 120 nəfərdən ibarət formalaşdırmağı qərara aldı. 1918-ci il noyabrın 19-da Azərbaycan parlamentinin yaradılması haqqında qanun qəbul edildi. Parlamentin tərkibinə əhalinin sayına uyğun olaraq 80 nəfər azərbaycanlı və digər xalqların nümayəndələri daxil edilməli idi. Dekabrın 7-də Tağıyevin qız məktəbində (indiki AMEA-nın Əlyazmalar İnstitutunun binasında) Azərbaycan parlamenti açıldı. Parlamentin sədri özü iştirak etmədən bu vəzifəyə seçilmiş, heç bir zaman iclaslara sədrlik etməmiş görkəmli hüquqşünas, diplomat Əlimərdan bəy Topçubaşov, müavinləri Həsən bəy Ağayev və Məmmədyusif Cəfərov idi. 11 fraksiyanın fəaliyyət göstərdiyi parlamentdə yerlər aşağıdakı kimi bölüşdürülmüşdü: türk–müsəlman əhali-80; ermənilər-21; ruslar-10; almanlar-1; yəhudilər-1; gürcülər-1; polyaklar-1; Bakı həmkarlar ittifaqı-3; Bakı neft sənayeçiləri Şurası və Ticarət-Sənaye İttifaqı-2.

Azərbaycanın müstəqilliyini qəbul etməyən ermənilər və başqaları parlamentin işində iştirakdan boyun qaçırdılar. Buna baxmayaraq, fəaliyyət göstərən parlamentin 155 iclası keçirildi. Müzakirəyə çıxarılan 270-dən çox qanun layihəsindən 230-u qəbul edildi. Parlamentin sonuncu iclası 1920-ci il aprelin 27-də bolşevik işğalı ərəfəsində keçirildi.

Qısa müddətdə tarixi əhəmiyyətli tədbirlər həyata keçirildi. Himn və bayraq qəbul edildi. Xüsusi xidmət orqanları yaradıldı. Sərhəd və Gömrük xidməti quruldu. Türk dili (Azərbaycan dili) dövlət dili elan edildi. İbtidai və orta məktəblərdə tədrisin ana dilində aparılması haqqında qanun qəbul edildi. Bakı Dövlət Universiteti yaradıldı. Təhsil və xalq maarifi, səhiyyə sahəsində tədbirlər həyata keçirildi. Müxtəlif səviyyəli məktəblər açıldı. Dərsliklər hazırlanmağa başladı. Türkiyədən müəllimlər dəvət edildi. Mədəniyyətə xüsusi diqqət yetirildi. Teatrlar, kitabxanalar açıldı. Ana dilində mətbuat orqanları quruldu. Milli kadrların hazırlanmasına xüsusi diqqət yetirildi. 100 nəfər azərbaycanlı gəncin xarici ölkələrdə oxumağa göndərilməsi barədə qərar qəbul edildi.

Qadınlara səsvermə hüququnu tanımaqla Azərbaycan dövləti dünya demokratiyasına mühüm töhfə verərək Qərb ölkələrinə nümunə oldu.

### Xarici siyasəti necə qurmalı?

Azərbaycan dövlətinin xarici siyasətinin başlıca məqsədi yeni yaradılmış dövləti tanıtmaq və qorumaq idi. Ona görə də fəal xarici siyasət yürüdülməyə başlandı. Cümhuriyyətin qurulması elan olunan kimi Avropanın bir sıra ölkələrinə yeni dövlətin yaradılması barədə məlumat göndərildi.

Xarici siyasət sahəsində ilk addımlardan biri Birinci Dünya müharibəsində qalib gəlmiş ölkələrin dövlət və hökumət başçılarının Paris sülh konfransına göndəriləcək nümayəndə heyətinin tərkibini müəyyənləşdirmək oldu. Nümayəndə heyətinin İstanbuldan Parisə getməsinə ABŞ hökuməti yardım göstərdi. Ə. Topçubaşovun rəhbərlik etdiyi və zəruri materiallarla təmin olunmuş heyət Parisdə bir sıra vacib görüşlər keçirdi. 1920-ci il yanvarında Azərbaycanın dövlət müstəqilliyi Antanta Ali Şurası tərəfindən de-fakto tanındı. Bu, Cümhuriyyətin elanından sonra üçüncü böyük hadisə olub, Azərbaycan xalqının iradəsinə hörmət əlaməti idi.

Antanta ölkələri Azərbaycana yardım göstərilməsi barədə qərarlar qəbul etdilər. Azərbaycan dövləti beynəlxalq münasibətlər sisteminə daxil olmaq üçün ilk addımlar atdı. Bir neçə xarici ölkədə nümayəndəliklər açıldı. Xarici siyasətin mühüm istiqamətlərindən biri qonşu dövlətlərlə münasibətlər idi. Lakin bu sahədə çoxlu problemlər mövcud idi. Ən ağrılı məsələ Daşnak Ermənistanının Azərbaycana qarşı hərbi təcavüzü və Qarabağa əsassız iddiaları idi. Düşmən üzərində qələbə qazanıldı və ermənilər Azərbaycan hakimiyyətini qəbul etdilər.

İran tərəfinin dövlətin Azərbaycan adlandırılmasına, müstəqilliyinə etirazları, İran tərkibində muxtariyyət verilməsi təklifi rədd edildi. Nəticədə bu ölkə Paris sülh konfransında iştirak etməyə buraxılmadıqdan sonra Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini tanımağa və sənədlər imzalamağa məcbur oldu. Bolşevik Rusiyası isə Cümhuriyyəti tanımaqdan imtina edirdi.

### Nədən süqut?

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci il aprelin 28-də bolşevik Rusiyasının təcavüzünə məruz qalaraq süqut etdi. Milli hökumət devrildi və Azərbaycan Sovet Sosialist Respublikası quruldu. Doğrudur, ağır şərait ucbatından ölkədə dövlət quruculuğu problemlərsiz, aparılan islahatlar ardıcıl deyildi. Aqrar islahat həyata keçirilmədi. Cümhuriyyətin sosial dayaqları zəiflədi. Çarizm tərəfindən Azərbaycana köçürülmüş gəlmə xalqlar dövlət müstəqilliyini tanımırdılar. Ermənistanın təcavüzü dövləti zəiflədirdi. Erməni terrorunun və ərazilərin işğalının dayandırılması başlıca problemlərdən idi. Aşırı demokratiya idarəçilikdə, xüsusən parlamentin fəaliyyətində çətinliklər yaradırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan xalqı müstəqil dövlətinin yanında idi. Cümhuriyyət daxili deyil, xarici amillər səbəbindən süqut etdi.

Yaranmış beynəlxalq şərait müstəqil dövlətin qorunması üçün əlverişli deyildi. Antanta ölkələrinin Rusiyada bolşevizmi “beşiyində boğmaq” və türk mülklərinə sahib olmaq uğrunda apardıqları müharibə hər iki dövləti yaxınlaşdıraraq Yaxın, Orta Şərqdəki və Qafqazdakı şəraitin dəyişməsinə təsir göstərdi.

Əvvəlcə Azərbaycan, sonra isə bütün Cənubi Qafqaz bolşevik Rusiyası tərəfindən işğal edildi, müstəqil dövlətlərin varlığına son qoyuldu və sovetləşdirildi. İşğalda Bakı nefti amili başlıca rollardan birini oynadı. Bir neçə il əvvəl Bakını itirməklə böyük dövlət statusunu da itirən Rusiya həmin mövqeyi bərpa etmək üçün Azərbaycanı yenidən işğal etməklə dünya dövləti olmaqdan ötrü ilk addımlarını atmağa başladı.

### Cümhuriyyətin süqutunun ibrət dərsləri

Cümhuriyyətin qurulması və milli hökumətin fəaliyyəti əhəmiyyətinə görə Azərbaycan hüdudları ilə məhdudlaşmır, coğrafi-siyasi sərhədləri aşaraq daha geniş anlam daşıyırdı. İlk növbədə, Cümhuriyyət bütün müsəlman Şərqinin Dan Ulduzu oldu. Müsəlman dünyasına respublika məfhumunu, məfkurəsini, idarə üsulunu gətirən Azərbaycan xalqı onlara zülmətdən xilas olmağın yolunu göstərdi, ürəklərində ümid çırağı yandırdı. Heç əbəs deyildir ki, Sibir sürgünündə azərbaycanlılarla yanaşı zülm çəkən yüzlərlə ərəb, fars, əfqan və başqa xalqların nümayəndələri Cümhuriyyətin elanından sonra vətəndaş olmaq üçün İrkutskdakı Azərbaycan Konsulluğuna müraciət etmişdilər. Bu gün Şərqdə müstəmləkəçiliyin və müstəmləkə zülmü altında inləyən xalqların olmaması eyni zamanda Cümhuriyyətin təsiri və Azərbaycan xalqının tarixi xidmətlərindən biridir.

Cümhuriyyət tarixinin öyrənilməsi bəzi ibrət dərslərini almağa imkan verir. Bunun üçün ilk növbədə həmin dövrdə zaman azlığı, imkanlar, beynəlxalq şərait və digər amilləri nəzərdən qaçırmadan buraxılan boşluqları dərindən bilmək və onlardan müvafiq nəticələr çıxarmaq gərəkdir. Hər şeydən əvvəl, Cümhuriyyətin tarixi təcrübəsi göstərdi ki, dövlətin yaradılmasını liberal dəyərlərlə elan etmək mümkündür, amma daxili və xarici təzyiqlərin daim olduğu və olacağı bir şəraitdə onu liberalizmlə qorumaq mümkün deyildir. Aşırı demokratiya anarxiyaya gətirdiyindən dövlət hakimiyyəti əleyhinə çıxan istənilən şəxs qanunlar qarşısında ədalət mühakiməsində cavab verməli, dövlətə qarşı silah işlədənlər isə anladıqları dildə dərhal məhv edilməlidirlər. Dövlət hakimiyyəti qüdrətli olmalıdır. Xalq öz dövlətinin mühafizəsinə, güclənməsinə və tərəqqisinə çalışmalı, onu qorumalı, maraqlarını hər şeydən üstün tutmalıdır. Hakimiyyət qanadları arasında sıx birlik olmalıdır. Azərbaycan xalqının tərəqqisinin və qarşıya qoyduğu başlıca məqsədlərə nail olmasının təməlində müstəqil güclü dövlət amili dayanır. Qüdrətli dövlət qələbələrin rəmzidir. Zəif dövlət hakimiyyəti zamanında Azərbaycan xalqı daim geri gedib.

Dünyanın hansı ölkəsində yaşamasından, hansı siyasi təşkilata mənsubluğundan asılı olmayaq, hər bir azərbaycanlı daim Azərbaycanın mənafelərini qorumalı, ümumi məqsədlərə xidmət etməlidir. Xaricdə yaşayan soydaşlarımız yalnız Vətənin, Azərbaycan dövlətinin yanında olduqda böyük, güclü və qüdrətli görünürlər.

Tarixi keçmişimizə olduğu kimi sistem və ideologiyadan asılı olmayaraq hörmətlə, varislikdə və sistemli yanaşılmalıdır. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti olmasaydı Azərbaycan SSR də qurulmazdı. Azərbaycan Respublikasının dövlət müstəqilliyi məhz Azərbaycan SSR-in coğrafi-siyasi sərhədləri daxilində bərpa edildi. Azərbaycan xalqının nicatı ən böyük nemət olan müstəqillikdədir. Cümhuriyyət süquta uğramasaydı Azərbaycan milləti və dövləti fərqli bir inkişaf yolu keçərdi.

### Ənənələrin dirçəldilməsi

Cümhuriyyətin süqutundan sonra siyasi və dövlət xadimlərinin bir qismi xarici ölkələrə mühacirət etməyə məcbur oldu. Onlar dərc etdikləri qəzet və jurnallarla istiqlal ideyalarını məhv olmağa qoymadılar. Bir qismi isə erməni və bolşevik terroruna qurban getdi. 20–30-cu illərdə milli düşüncəli ziyalılar repressiya edildilər. Amma sovet repressiya aparatı istiqlal fikrini məhv edə bilmədi.

70–80-ci illərdə ziyalılar Azərbaycan rəhbəri Heydər Əliyevin qayğısı ilə əhatə olundular. Müstəqilliyin təməllərini təşkil edən obyektiv amillər formalaşdı.



SSRİ-nin, kommunist ideologiyasının və sovet sisteminin mövcud olmasına baxmayaraq, 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin ağsaqqal deputat olaraq Ulu öndər Heydər Əliyevin sədrlik etdiyi ilk sessiya iclasında respublikanın adından “Sovet Sosialist” ifadələri çıxarıldı. Cümhuriyyət bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq qəbul edildi və Azərbaycan parlamentinə bu barədə müraciət olundu. SSRİ-nin saxlanılmasına dair referendum qədim diyarımız Naxçıvanda keçirilmədi. Beləliklə, Naxçıvan müasir müstəqil Azərbaycan Respublikası dövlətinin təməlinin rəsmi atıldığı yer oldu. 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi və Cümhuriyyətin varisi olan Azərbaycan Respublikası quruldu.

### Cümhuriyyətin məfkurə irsi

Sovet dövründə Cümhuriyyət tarixinin öyrənilməsi müstəqillik düşüncələri formalaşdıra biləcəyindən qadağan edilmişdi. 1918–1920-ci illərdə baş verənlər vətəndaş müharibəsi, sinfi mübarizə nöqteyi-nəzərindən araşdırılırdı. 80-ci illərin sonlarından etibarən bu sahədə ilk addımlar atılmağa başlandı. Lakin sistemli işlərin görülməsinə ehtiyac var idi. Bu baxımdan 1998-ci ildə Cümhuriyyətin 80 illiyinin qeyd edilməsi barədə Prezident Heydər Əliyevin imzaladığı sərəncam müstəsna rol oynadı. Cümhuriyyət dövrü tarixinin sistemli, kompleks araşdırılmasına başlandı. Xarici siyasət sənədləri, parlament iclaslarının stenoqramları nəşr edildi. Kitab və monoqrafiyalar çapdan çıxdı. Amma məlumdur ki, elm bir yerdə dayanıb qalmır, görüləsi işlər hələ də çoxdur. Xüsusən xarici ölkələrin arxivlərindəki yeni sənədlərinin elmi dövriyyəyə gətirilməsinə ehtiyac vardır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə ölkəmizin paytaxtında Cümhuriyyət xadimlərimizin şərəfinə abidə ucaldılıb. Onların xatirəsi əbədiləşdirilib. Adlarına qəsəbə, küçə və prospektlər vardır. Cümhuriyyətin 105 illiyi ilə bağlı müxtəlif səviyyələrdə tədbirlər həyata keçirilir.

### Arzuların qüdrətli dövləti

Cümhuriyyət xadimləri Azərbaycanın müstəqil və güclü dövlət olmasını arzulayırdılar. Lakin onlar bu arzuları görmədən dünyadan köçdülər. Bu gün həmin istək və arzular həyata keçirilib. Cümhuriyyət xadimləri Azərbaycan neftinə dair beynəlxalq konsorsium yaradılmasını arzulasalar da onu həyata keçirmək mümkün olmamışdı. Genuya konfransı zamanı mətbuata müsahibə verən Ə.Topçubaşov demişdi ki, Azərbaycanı işğal edərək müstəqilliyinə son qoyan bir ölkə ilə konsorsium yaratmaq olmaz, Azərbaycan gələcəkdə müstəqillik qazananda beynəlxalq konsorsium qurmaq olar. Təbii sərvət olan nefti ilk dəfə milli sərvətə çevirən Heydər Əliyev beynəlxalq konsorsium yaratdı. Cümhuriyyət xadimləri Bakı–Culfa dəmiryolunun tikintisini başa çatdırmaq məsələsini parlamentdə müzakirə edərək vəsait də ayırmışdılar. Hesab edirdilər ki, bu yolla Fars körfəzinə və Türkiyəyə çıxıb ticarət etmək olar. Lakin bolşevik işğalı onu reallaşdırmağa imkan vermədi. Bakı–Tbilisi–Qars dəmiryolu, Şimal–Cənub dəhlizi layihələrini reallaşdıran, Xəzər dənizində ən böyük ticarət donanmasına sahib olan Azərbaycan dövləti dünyanın vacib nəqliyyat-kommunikasiya mərkəzinə çevrilib. Zəngəzur dəhlizinin yaradılması gündəlikdədir.

Ən başlıcası, Cümhuriyyət xadimlərinin arzusu olan güclü Azərbaycan dövləti qurulub. Dövlət bayrağımız işğaldan azad edilən Şuşada və digər torpaqlarımızda dalğalanır.

Prezident İlham Əliyevin liderliyində Azərbaycan dövləti ərazisinin bir sıra ölkələrdən böyük olmamasına, əhalisinin isə çox olmamasına baxmayaraq, dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilib və birləşdirici gücdür. Dövlətimizin və millətimizin gözəl gələcəyi vardır. Gələcəyimizin başlıca formulunu Prezident İlham Əliyev aşağıdakı kimi müəyyənləşdirib:

“Yenilik, inkişaf, güc – bunlar əsas amillərdir. Bir də Vətən sevgisi”.

Cümhuriyyətin 105-ci ildönümü məhz bu əhvali-ruhiyyə ilə qeyd edilir.

***Musa QASIMLI,***
***Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü, professor***

---

# “Müstəqillik tariximiz 105 ildə”



**Azərbaycan Hərb Tarixi Muzeyində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 105 illik yubileyinə həsr olunmuş “Müstəqillik tariximiz 105 ildə” adlı tədbir keçirilib.**

Müdafiə Nazirliyinin idarə və müəssisələrinin, veteran təşkilatlarının və respublikada fəaliyyət göstərən QHT nümayəndələrinin iştirak etdikləri tədbirdə əvvəlcə respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə muzeyin rəisi polkovnik Əzizağa Qənizadə və tədqiqatçı baş elmi işçisi Vahid İsmayılovun məruzələri dinlənilib.

Qeyd edilib ki, 1918-ci il mayın 28-də “İstiqlal Bəyannaməsi” ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması müsəlman Şərqində ilk demokratik respublika olmaqla yanaşı, ölkəmizin tarixində mühüm hadisə idi. Belə ki, əsrlər boyu azadlıq arzusu ilə yaşayan xalqımız, nəhayət ki, öz müstəqil dövlətinə sahib oldu.

İyunda bu əlamətdar hadisənin 105-ci ildönümünün tamam olduğunu bildirən Ə.Qənizadə vurğulayıb ki, 1993-cü ilin ikinci yarısından ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə Azərbaycanda müstəqil dövlətçiliyin möhkəmlənməsinə şərait yaratdı: “Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən dövlət və ordu quruculuğu nəticəsində Azərbaycan regionun ən qüdrətli ölkələrindən birinə çevrildi, ordumuz dünyanın ən güclü 50 ordusu sırasına daxil oldu. Ötən əsrin 90-cı illərində havadarlarının hərtərəfli köməyi ilə Ermənistan ordusu tərəfindən işğal edilmiş Qarabağın dağlıq hissəsi və ətrafdakı 7 rayon Silahlı Qüvvələrimizin gücü ilə işğalçılardan təmizləndi. 44 gün çəkmiş Vətən müharibəsində Azərbaycan Ordusunun göstərdiyi qəhrəmanlıq Azərbaycanın şanlı hərb tarixinə qızıl hərflərlə yazıldı”.

Daha sonra Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və inkişafına həsr olunmuş qısametrajlı sənədli film nümayiş olunub.

Tədbir bədii hissə ilə davam edib.

***L.QURBANOVA, “Xalq qəzeti”***

# Daşkənddə dostluq konserti



**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) və Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə və Müstəqillik Gününə həsr olunmuş mərasim keçirilib.**

Toplantıda Özbəkistanın dövlət və hökumət qurumlarının nümayəndələri, diasporumuzun üzvləri, mədəniyyət, incəsənət xadimləri, ziyalılar, tələbə və gənclər iştirak ediblər.

AMM-nin direktoru Samir Abbasov müstəqil Azərbaycan dövlətinin banisi, ümummilli lider Heydər Əliyevin xidmətləri haqqında danışaraq ulu öndərin dünyada geniş tanıdılmasının zəruri olduğunu vurğulayıb. S.Abbasov ulu öndərin adını daşıyan Mədəniyyət Mərkəzinin ölkələrimiz arasında mədəni əlaqələrin inkişafına kömək edən layihələri haqqında da danışıb.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Azərbaycan diasporunun məhz ulu öndərin hakimiyyəti illərində formalaşdığını, Özbəkistanda çox sayda soydaşımızın yaşadığını və azərbaycanlıların ölkənin ictimai-mədəni həyatında aktiv iştirak etdiyini qeyd edib.

Özbəkistan Millətlərarası Münasibətlər və Xarici Ölkələrlə Dostluq Əlaqələri Komitəsinin sədri Rustambek Qurbanov iki qardaş respublika arasında münasibətlərin qurulması və inkişafında Heydər Əliyevin tarixi rolunu vurğulayıb. O, Özbəkistanda da Heydər Əliyevin 100 illik yubileyinin geniş qeyd olunduğunu bildirib.

Çıxışlardan sonra Diasporla İş üzrə Dövlət Komitəsinin layihəsi ilə hazırlanmış və Heydər Əliyevə həsr edilmiş sənədli film nümayiş etdirilib.

Sonra Özbəkistan Xalq Çalğı Alətləri Kamera Orkestri ulu öndərə həsr etdiyi dostluq konserti ilə çıxış edib. Özbəkistanın Əməkdar artisti, professor Firuzə Abdurahimovanın rəhbərlik etdiyi “Soqdiana” xalq çalğı alətləri kamera orkestrinin ifasında Azərbaycan bəstəkarlarının əsərləri və xalq mahnılarımız səsləndirilib.

***Q.KƏNGƏRLİ***

**Daşkənd**




# Azərbaycanın dövlət müstəqilliyi xalqımızın ən böyük sərvətidir

**(əvvəli 1-ci səhifədə)**

Milli tariximizin ən görkəmli simalarından olan Heydər Əliyevin inandığı, əminliklə verdiyi proqnozların hamısı indi günün reallıqları sırasındadır. O, Naxçıvan Muxtar Respublikasın adından "sovet və sosialist" sözlərinin çıxarılmasına nail olanda da Azərbaycanın bugünkü uğurlarına zəmin yaradırdı, Türkiyə Cümhuriyyəti ilə sərhəddə "Ümid körpüsü"nün açılışına nail olanda da. O, "bugünkü müstəqil Azərbaycan Respublikası 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin varisidir" – deyəndə də müdriklik nümayiş etdirmişdi, AXC-nin üçrəngli bayrağını qaldıranda da.

Bəli, bu gün 105 yaşı tamam olan Azərbaycan Xalq Cümhuriyyətinin mənəvi irsinin yaşadılması və gələcək nəsillərə ötürülməsi iki mühüm sütun üzərində qərar tutmuşdur: Birinci xalqın AXC-yə olan inam, etimad və sevgisi, ikincisi isə Heydər Əliyevin siyasi qətiyyəti.

Bəli, bu xalq 1918-ci ildə qazandığı möhtəşəm uğuru 70 illik sovet dönəmində də qətiyyən unutmadı və daim ürəyində yaşatdı. Xalq unutmadı ki, biz 1918-ci ildə müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətini yaradan tarixi şəxsiyyətlərin nəslindənik. Az qala, uşaqlarımız da bilirdilər ki, 1917-ci ildə Rusiyada baş vermiş Fevral inqilabı nəticəsində Rusiyada monarxiyaya son qoyulmuş, çarizmin məzlum vəziyyətə saldığı xalqların milli hərəkatı başlanmışdı. Həmin beynəlxalq proseslərdən ağılla istifadə edən babalarımız 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti adlı – müsəlman Şərqində ilk dünyəvi demokratik dövləti yaratmışdılar.

Biz iftixarla qeyd edirik ki, Azərbaycan Xalq Cümhuriyyəti Türk və İslam dünyasında ilk parlamentli respublika və ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi. Başqa bir qürurumuz isə ondan ibarətdir ki, müstəqil Azərbaycan Cümhuriyyəti qısa ömründə böyük nailiyyətlər əldə etmişdir. Bu gün dünyaya demokratiya dərsi keçmək istəyən avropalılardan əvvəl biz qadınlara seçib-seçilmək hüququ vermiş və qadın-kişi bərabərliyini təmin edən cümhuriyyət qurmuşduq. Uğurlarımız sırasında Milli Ordu, milli pul, demokratlaşma, Milli Bank, azad seçkilər, beynəlxalq əlaqələr və beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycan istiqlalının rəsmi şəkildə tanınması da var idi.



Bu gün fəxrlə yada salmaq istədiyimiz başqa bir məqam isə odur ki, Azərbaycan Xalq Cümhuriyyətini rəsmi surətdə tanıyan ilk dövlət Osmanlı dövləti olmuşdur. Həmin tarixi hadisə 4 iyun 1918-ci ildə baş vermişdir. Yəni, müstəqilliyimizi elan etməyimizdən cəmi bir həftə sonra tarix təkrar olundu. Biz 1991-ci ilin oktyabrında dövlət müstəqilliyimizi bərpa edəndə də Bakıya qardaş əli uzadan ilk dövlət məhz Türkiyə Cümhuriyyəti oldu.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi 23 ayda imza atılmış çoxsaylı uğur və nailiyyətlərdən bəzilərini yada saldıq. Ancaq bugünkü söhbət Cümhuriyyətimizin 105 illiyindən getdiyinə görə dövlət müstəqilliyimizin bərpasından sonrakı tarixi faktlardan bəzilərini də yada salaq.

Məsələn, 1991-ci ilin oktyabrından sonra Azərbaycan BMT-yə üzv oldu, ulu öndər Heydər Əliyev ölkədə siyasi hakimiyyətə qayıtdı, "Əsrin müqaviləsi" imzalandı, ilk Konstitusiyamız qəbul edildi, ulu öndər 2003-cü il oktyabrın 1-də xalqa müraciət etdi, Prezident İlham Əliyev AŞPA-dakı Azərbaycan və Türkiyə deputatlarının birgə fəaliyyət göstərməsinə nail oldu, gənc müstəqil dövlətimiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü və AŞPA Nazirlər Komitəsinin sədri seçildi, Avropa tarixinə yazılmış "Bakı prosesi"ni ərsəyə gətirdik, Bakıda ilk Avropa Oyunları, "Avroviziya" mahnı müsabiqəsi, İslam Həmrəylik Oyunları başda olmaqla yüzdən çox beynəlxalq tədbir keçirildi, Azərbaycan Türk Dövlətləri Təşkilatına və Qoşulmama Hərəkatına uğurla sədrlik etdi və sair.

Dövlət müstəqilliyimizin bütün bunların hamısının fövqündə duran uğuru isə ermənilərin iki yüz ildən bəri qurub yaratdıqları fitnə-fəsad torunu dağıdaraq, erməni miflərini puç edərək, ölkəmizin ərazi bütövlünün bərpasına nail olmağımızdır. İşğalçı dövlətin başçısı dəfələrlə bəyan edib ki, biz Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq və Qarabağ da həmin əraziyə daxildir. Fikrimizcə, bu, çox möhtəşəm uğurdur.

Bakıda keçirilən möhtəşəm Zəfər paradında və işğaldan azad edilmiş ərazilərimizdə inşa olunmuş beynəlxalq hava limanlarının açılışında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı da müstəqilliyin bizə bəxş etdiyi xoşbəxtliklərdən idi.

Ancaq kiməsə xırda detal kimi görünə biləcək önəmli bir məqam da var ki, son günlərdə biz onunla daha çox fəxr edirik. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin rusiyalı həmkarı Vladimir Putinin dəvəti ilə fəxri qonaq qismində iştirak etdiyi Avrasiya İqtisadi İttifaqına üzv dövlətləri liderlərinin Sammitində işğalçı ölkənin baş naziri Nikol Paşinyana diplomatiya üzrə "master klass" keçməsi oldu. Fikrimizcə, həmin dərs bugünkü bayrama – Azərbaycan Xalq Cümhuriyyətinin 105 illiyinə əlavə rəng qatdı.

*İttifaq MİRZƏBƏYLİ,*
*"Xalq qəzeti"*

**Bu gün eyni vaxtda iki yubileyi bayram edən hər bir azərbaycanlı şanlı tarixi və bu tarixdə silinməz izlər buraxmış şəxsiyyəti ilə qürur duyur. Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranmasının 105 illiyi ilə üst-üstə düşən dahi siyasətçi və qüdrətli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı təntənəli mərasimlər ölkə daxilində olduğu kimi, onun sərhədlərindən uzaqlarda böyük coşqu ilə davam edir.**

# 28 May – milli istiqlalın qürur günü

*Qədirbilən Azərbaycan xalqı üçrəngli bayrağını qaldıranları və onu bir daha enməyə qoymayanı ehtiramla anır*

## Tolerantlıq dəyərlərinin qoruyucusu

Moskva Dövlət Avtomobil Yolları Texniki Universitetində (MDAYTU) görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı beynəlxalq elmi-praktik konfrans keçirilib.



Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, "Moskva Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyəti" regional ictimai təşkilatının və MDAYTU ilə birgə keçirdiyi tədbir "Heydər Əliyev İli" və Rusiyadakı "Müəllim, ustad ili" çərçivəsində gerçəkləşdirilib. MDAYTU-nun hazırlıq fakültəsinin dekanı Andrey Novikovun moderatorluğu ilə keçən tədbiri universitetin prorektoru İqor Artemiyev açıb. O, "Moskva Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyəti" regional ic-



timai təşkilatının sədri Bəxtiyar Həsənovun konfrans və müsabiqə keçirmək təşəbbüsünü dəstəklədiyini bildirib. Sonra Moskvanın Milli Siyasət və Regionlararası Əlaqələr Departamentinin rəhbəri Vitali Suçkovun konfrans iştirakçılarına müraciəti oxunub. Konfransda MDB ölkələri üzrə Avtomobil Yolları İşçiləri Hökumətlərarası Şurasının katibliyinin rəhbəri, professor Buri Karimov, professor Kamran Rüstəmov, jurnalist Kseniya Karaulova, professor İbrahim Məlikov, MDAYTU-nun rus dili kafedrasının dosenti Larisa Denisova və Beynəlxalq Avtomobil Yolları Təhsili Assosiasiyasının vitse-prezidenti Valentin Silyanov çıxış ediblər. Onlar Azərbaycanın və SSRİ-nin yollarının tikintisində misilsiz xidmətlər göstərmiş, yüksək peşəkar və insani keyfiyyətlərə malik Heydər Əliyevin çoxmillətli Azərbaycanda unikal multikulturalizm və tolerantlıq dəyərlərini inkişaf etdirdiyini bildiriblər. Vaxtilə Azərbaycanın Mingəçevir şəhərində yaşamış, Bakıda M.F.Axundov adına Rus dili və ədəbiyyatı İnstitutunu bitirmiş Larisa Denisovanın xalq şairi Səməd Vurğunun məşhur "Azərbaycan" şeirini Azərbaycan dilində səsləndirməsi tədbiri daha da rövnəqləndirib.

## Musiqi ilə müşayiət olunan yubileylər

Estoniyanın paytaxtı Tallin şəhərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi, Azərbaycanın Müstəqillik Gününün 105-ci ildönümü münasibəti ilə konsert proqramı düzənlənib.

Yubiley mərasimi "Aydan" Estoniya–Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə baş tutub. Tədbirdə bəstəkar, dirijor, beynəlxalq müsabiqələr laureatı, Vyana Musiqi və Səhnə Sənətləri Universitetinin dirijorluq fakültəsinin məzunu Abuzər Manafzadə və onun həyat yoldaşı, vokalist Karen Danger-Manafzadə, eləcə də vokalist Leyla Rəhimova, Bakı Xoreoqrafiya Akademiyası Təhsil Kompleksinin tam orta məktəbinin məzunu, respublika və beynəlxalq müsabiqələr laureatı Şirin Əmiraslanova, sopranoçu Dərya Hüseynova və Tatyana Qasımova çıxış ediblər. Tədbirdə, həmçinin Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Leyla Həmzəyeva, Estoniya parlamentinin üzvləri, diplomatik korpusların nümayəndələri, Tallin şəhər rəhbərliyi və media nümayəndələri iştirak ediblər.

## Azərbaycan Türk dünyasına açılan qapıdır

Şimali Kipr Türk Cümhuriyyətində Azərbaycanın Müstəqillik Gününə həsr olunmuş sərgi açılıb.

Yaxın Şərq Universiteti xəstəxanasının sərgi salonunda Kipr Müasir İncəsənət Muzeyinin təşkilatçılığı ilə azərbaycanlı 54 rəssamın əsərlərindən ibarət sərgi təşkil olunub. Muzeyin Azərbaycanın Müstəqillik Gününə həsr



edilən sayca 444-cü sərgisi iyunun 2-dək ziyarətçilər üçün pulsuz olacaq. Sərginin açılış mərasimində ŞKTC-nin Prezidenti Ersin Tatar, Cümhuriyyət Məclisinin sədri Zorlu Törə, Azərbaycan – Kipr Dostluq Cəmiyyəti və KTC Heydər Əliyev Beynəlxalq Mədəniyyət Mərkəzinin sədri Orxan Həsənoğlu və Yaxın Şərq Universitetinin rektoru, professor Tamer Şanlıdağ çıxış ediblər. "Türk dünyasından belə böyük kolleksiyanı bir yerə toplayan yeganə muzeyin Şimali Kipr Türk Cümhuriyyətində olması bizim üçün böyük şərəfdir", – deyən Prezident E.Tatar Azərbaycan Müstəqillik Gününə ərməğan edilmiş sərgidə iştirakdan məmnunluğunu bildirib. O, Azərbaycan xalqının böyük oğlu ulu öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad etdiyini dilə gətirib. Çıxışında Azərbaycanın Türk dünyası üçün əhəmiyyətini vurğulayan Cümhuriyyət Məclisinin sədri Zorlu Töre ölkəmizi digər Türkdilli dövlətlərə açılan qapı kimi dəyərləndirib.

*Hazırladı:*
*İmran BƏDİRXANLI,*
*"Xalq qəzeti"*

# Dünya Bankı missiyası kiçik bizneslə maraqlanır

**Dünya Bankının "Məşğulluğa Dəstək Layihəsi" üzrə qiymətləndirmə missiyası ölkəmizə səfəri çərçivəsində Dövlət Məşğulluq Agentliyinin Quba–Xaçmaz regional məşğulluq filialında olub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız məlumatda belə deyilir.**



Bildirilir ki, missiyanın üzvləri – Dünya Bankının sosial müdafiə məsələləri üzrə baş mütəxəssisi Mirey Ovadiya, layihənin baş iqtisadçısı Sirma Demir Şeker, sosial müdafiə üzrə mütəxəssisi Anna Suxova, həmçinin missiyanın digər üzvləri, eləcə də, Layihə icra qrupunun rəhbəri Fəqan Əsgərov və üzvü Faiq Sadıqov ilə birgə layihənin komponentləri üzrə görülən işlər müzakirə olunub.

Filialın müdiri Ramal Quluzadə layihə çərçivəsində bölgədə görülən işlər, benefisiarlar, onların tələbatları, o cümlədən təqdim edilən aktivlər barəsində ətraflı məlumat verib.

Missiya tərəfindən "Məşğulluğa Dəstək Layihəsi" çərçivəsində Quba və Xaçmazda aktivlərlə təmin olunan benefisiarlardan bir neçəsinin bu aktivlər hesabına qurduqları kiçik bizneslərə baxış keçirilib. Hər benefisiar layihənin onların biznes imkanlarına yiyələnmələrində mühüm dəstək olmasından razılıq ifadə edib, qurduqları biznesləri daim inkişaf etdirmək əzmi ilə səy göstərdiklərini bildiriblər.

Missiya Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) Quba–Xaçmaz Regional İnkişaf Mərkəzi ilə də tanış olub. KOBİA-nın regional koordinatoru Azər Pənahov agentliyin regionda gördüyü işlər, kiçik və orta biznesin inkişafında vətəndaşlara göstərdiyi dəstək barədə ətraflı məlumat verib.

*Z.BƏŞİRQIZI,*
*"Xalq qəzeti"*

# Bakı–Tbilisi–Qars dəmir yolu xəttində qəza

**Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin Gürcüstan ərazisindən keçən sərt aşırımlı Trialeti–Tsalka mənzilində aparılan təmir-bərpa işləri zamanı hərəkətdə olan manevr teplovozunun qəfil relsdən çıxması nəticəsində "Azərbaycan Dəmir Yolları" (ADY) QSC-nin Gürcüstan filialının bir nəfər əməkdaşı, maşinist köməkçisi Ruslan Sadıqov dünyasını dəyişib.**



Göstərilən ilkin tibbi yardıma baxmayaraq, əməkdaşımızın həyatını xilas etmək mümkün olmayıb. Manevr teplovozunun digər ekipaj üzvlərinin səhhəti normaldır, əlavə xəsarət alan olmayıb. Hadisənin başvermə səbəbləri araşdırılır.

# Rusiyanın Cənubi Qafqaz vasitəçiliyi, “avrasiyaçılıq”… və Paşinyan diversiyanizmi



(əvvəli 1-ci səhifədə)

Heç şübhəsiz, V.Putin Azərbaycanı Rusiyanın hakim rol oynadığı Avrasiya İqtisadi İttifaqında (AİI) görmək istəyir. Ümumən, Moskvanın keçmiş Sovetlər Birliyini vahid orqanizm olaraq təsəvvürə gətirib, onu dünyaya yeni SSRİ kimi təqdim etmək niyyəti indinin söhbəti deyil. Əlbəttə, biz bu ideyanın nə dərəcədə məqbulluğu, eləcə də müstəqil dövlətlər birliyi məkanın ona münasibətdəki əks reaksiyalardan söz açmaq niyyətində deyilik. Həm də ona görə ki, görünən dağa bələdçi lazım deyil. Qazaxıstan Prezidenti Kasım Jomart-Tokayevin Ali Avrasiya İqtisadi Şurasının iclası müstəvisində Rusiyanın İttifaq dövləti təşəbbüsü əleyhinə səsləndirdiyi fikirlərdəki qəbuledilməzlik hər sözü deyir…

Bəs, Azərbaycan? Ölkəmiz müstəqil siyasi və iqtisadi xəttinə sadiqdir. Bu siyasətdə başlıca məqam ayrı-ayrı ittifaqlarda birləşmək yox, fərdi əlaqələrin qurulmasıdır. Məsələyə mövcud müstəvidən yanaşsaq, ölkəmiz AİI-də təmsil olunan bütün ölkələrlə, kifayət qədər, yüksək əməkdaşlığa malikdir və bu əməkdaşlıq ölkəmizin milli maraqlarının təminatına imkan verməkdədir. Digər tərəfdən, daha bir prinsipial məqam var: Azərbaycan bütün sahələrdə olduğu kimi, iqtisadi sferada da yüksək sürətlə inkişaf etməkdədir və inkişafın diktə etdiyi məqsədlər hansısa qurumun kollektivçilik ideyası ilə məhdudlaşa bilməz.

…İqtisadi inkişafdan söz düşmüşkən, Prezident İlham Əliyev qonaq qismində qatıldığı Ali Avrasiya İqtisadi Şurasının iclasındakı çıxışında mövcud istiqamətdəki konkret məqamları açıqladı: “Həmkarlarıma məlumat vermək istəyirəm ki, ötən il Azərbaycanın Avrasiya İqtisadi Birliyi ilə əmtəə dövriyyəsi 31 faiz artıb və 4,7 milyard dollar təşkil edib. Bu ilin yanvar-aprel aylarında qarşılıqlı ticarətin həcmi daha 38 faiz artıb. Ötən il Avrasiya İqtisadi Birliyinə üzv ölkələrin Azərbaycanın xarici ticarət dövriyyəsində payı 9 faizə yaxın olub. Biz əmtəə dövriyyəsinin gələcək artımında böyük potensialın olduğunu görürük”.

Deməli, ölkəmiz AİI-də yer almamaqla da, quruma üzv ölkələrlə sıx iqtisadi əlaqələrə malikdir. Prezidentin vurğuladığı başlıca məqam isə iqtisadi müstəqilliklə bağlıdır ki, bunun fəlsəfəsində müstəqilliyin də ayrı-ayrı təşkilatlarda təmsilçiliklə məhdudlaşmaması dayanır. “Biz tam iqtisadi müstəqilliyə nail olmuşuq. Bu da bizim uğurla həyata keçirdiyimiz müstəqil xarici siyasət kursunu aparmaq imkanının mühüm amilidir”, – deyən dövlətimizin başçısının çıxışının lap əvvəlində AİI-yə üzv Ermənistana köklənməsi, heç də təsadüf sayılmamalıdır: “Ermənistan istisna olmaqla, Azərbaycanın Avrasiya İqtisadi Birliyinin üzvləri ilə əməkdaşlığı 30 il ərzində uğurla inkişaf edir. Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı şəkildə tanınması əsasında ciddi imkanlar var. Bu gün Rusiya tərəfinin təşəbbüsü ilə Rusiya, Azərbaycan və Ermənistan rəhbərlərinin üçtərəfli görüşü olacaq”.

Siyasi müşahidəçilər Putinin vasitəçilik təşəbbüsünün AİI-in iclası ilə eyni vaxta təsadüf etməsinə diqqət çəkərək, bildirirlər ki, Rusiya lideri bu yolla Azərbaycanın da ölkəsinin hakim rol oynadığı təşkilata qoşulmasının vacibliyi mesajını verib. Ekspertlər onu da vurğulayırlar ki, Kreml rəhbərinin mesajı İrəvanla münaqişəli durumu aradan qaldırmaq yönündə Moskvanın Bakıya əlavə dəstək eyhamıdır.

Məsələyə qeyd etdiyimiz kontekstdən yanaşsaq, dövlətimizin başçısının çıxışındakı motiv onu deməyə əsas verir ki, ölkəmiz sözügedən niyyətdən xəbərdardır, ancaq razılaşmır. Görünür, cənab İlham Əliyev iclasdakı çıxışında respublikamızın müstəqil iqtisadi xətt yeritdiyini məhz buna görə vurğuladı. Deməli, Rusiyanın belə bir planı varsa da, onun istəyi Azərbaycan tərəfindən qəbul edilmir. Əksinə, gətirdiyimiz sonuncu iqtibasdan göründüyü kimi, Prezident İlham Əliyev Ermənistan üçün də şans yaradan tərəf kimi çıxış etməkdədir. Dövlətimizin başçısı nitqində üçtərəfli görüşü yada salmaqla, həm də çox incə mesaj verir: Rusiyanın tənzimləmə missiyası əlahiddə olsa belə, məsələ ölkənin Azərbaycanı özünün iqtisadi orbitində görmək niyyəti ilə əlaqələndirilə bilməz.

***

Prezident İlham Əliyev çıxışında, həmçinin “AİI-də təmsil olunan Ermənistan” məntiqi də var. O Ermənistan ki, Azərbaycana münasibətdə destruktiv mövqe tutmaqdadır. Üstəlik, İrəvanın mövqeyi sülh pozuculuğu baxımından aşkardır və buna Moskvanın təsir imkanları istisnadır. Əslində, mayın 25-də keçirilmiş üçtərəfli görüşün nəticələri, daha doğrusu, nəticəsizliyi də qeyd etdiyimiz fikri sübuta yetirdi. Ermənistan baş naziri Nikol Paşinyan həmin görüşdən əvvəl Azərbaycan Prezidentinin (Ali Avrasiya İqtisadi Şurasının iclasındakı) çıxışına mənasız replika verməklə, Putinin təşəbbüsünün səmərəsiz olacağına dair yetkin təsəvvür formalaşdırdı.

Bəli, Ermənistan lideri cənab İlham Əliyevlə şifahi “söz savaşına” başlamağa cəhd göstərərək, əslində, Putinə münasibətdə nalayiq rəftar nümayiş etdirdi ki, bu, ikincinin İrəvanın AİI-dəki təmsilçiliyi barədə düşünməsi üçün ciddi siqnaldır. Nəzərə alaq ki, hazırda Paşinyanın komandası Ermənistanın üzvü olduğu və Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına da hörmətsiz yanaşmaqdadır. Paşinyanın Azərbaycan Prezidentinin fikirlərinə mənasız replikası onun eyni yanaşmanı AİI-yə də şamil etdiyinin bariz göstəricisidir.

Belə nəticəyə gəlirik ki, Ermənistan Rusiyanın vasitəçilik missiyasının mənəvi immuniteti kimi qarşılanan platformaları gözdən salmaq xətti yürüdür. Əlbəttə, bu tendensiya Paşinyanın özünü gülüş obyektinə çevirməsi ilə müşayiət olunmaqdadır. Ancaq gülünc duruma düşmək Nikolu narahat etmir. Bir baş nazir ki, ölkəsində şəxsinə ünvanlanan “satqın” ifadəsinə öyrəşdiyini bildiririb, bunu normal sayırsa, daha nə deyəsən. Ancaq…

Təsəvvür edin ki, Prezident İlham Əliyev Paşinyana Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını xatırladaraq başlatdığı mübahisə görüntüsünün səmərəsizliyini bildirir, Nikol isə guya, ölkəsi üçün prinsipial qəbuledilməzlik qondarır və söz yığınına üstünlük verir. Baxın, hazırda Ermənistan müxalifəti də baş naziri həmin replikalarına görə tənqid edir. Çox sadə məntiqlə, çünki Paşinyan İlham Əliyevin Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması ilə bağlı sözlərinə etiraz etmədi. Yəni, əsas məsələ bu idi və Nikol, yumşaq desək, susdu…

Bəs, etiraz nəyə idi? Dövlətimizin başçısının Zəngəzur dəhlizinin səmərəliliyi və perspektiv iqtisadi inkişafın əsasında dayanması ilə bağlı fikirlərinə: “Bakı–Tbilisi–Qars dəmir yolu Avropaya, həmçinin Türkiyənin Aralıq dənizi limanlarına çıxışı təmin edir. Azərbaycan “Şimal–Cənub” nəqliyyat dəhlizi layihəsinin fəal iştirakçısıdır. Biz, həmçinin ölkənin əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, həm də beynəlxalq dəmir yolu marşrutlarının bir hissəsi olacaq Zəngəzur dəhlizinin yaradılması təşəbbüsünü irəli sürmüşük”.

Əslində, Azərbaycan Prezidentinin Ali Avrasiya İqtisadi Şurasının iclasındakı növbəti fikirləri də haqqında söz açdığı Zəngəzur dəhlizi ideyasının nəhənglik trayektoriyasına respublikamızın adekvat imkanlarının vurğulanması idi. Cənab İlham Əliyev Azərbaycanda 8 beynəlxalq aeroportun fəaliyyət göstərdiyini, onlardan ikisinin işğaldan azad olunmuş torpaqlarda – Füzuli və Zəngilanda tikildiyini, doqquzuncu beynəlxalq aeroportun azad olunmuş Laçında tikildiyini və 2025-ci ildə istismara veriləcəyini, ölkəmizin illik 500 min ton yük dövriyyəsi ilə regionda ən iri hava yük donanmasına malikliyini, iqtisadiyyatımızın müstəqilliyinin demək olar ki, bütün dövrü ərzində dayanıqlılıq və artım nümayiş etdirdiyini heç də əbəs yerə vurğulamadı.

Yəni, normal baş bu imkanların qarşısında ona sahib ölkənin uzatdığı əməkdaşlıq əlini sıxmalıdır. Ermənistan siyasi istableşmenti, o cümlədən, hakim qüvvələri isə normal düşüncədən uzaqdırlar. Paşinyanın Ali Avrasiya İqtisadi Şurasındakı replikası da, əslində, həmin anormallığın ifadə meydanı kimi son dərəcə miskin mənzərə formalaşdırdı. Belə görünür ki, erməni xəstəliyi öz aktuallığını saxlamaqdadır. Bunu sübuta yetirən digər məqam da var.

***

Söhbət Putinin qeyri-məqbul qiymətləndirmək imkanının olmadığı və pozitiv notlarla qələmə verdiyi 25 may üçtərəfli görüşündən sonra Azərbaycan–Ermənistan dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Ermənistan silahlı qüvvələrinin təxribat-diversiya qrupunun peyda olmasından gedir. Yəni, ortada dövlət sərhədimizi pozmaq cəhdi var. Əlbəttə, cəhdin qarşısı alındı. Amma bu hadisə düşüncələrə yol açmaqdadır.

Azərbaycan Prezidenti Ali Avrasiya İqtisadi Şurasının iclasında ölkəmizin digər ərazilərini Naxçıvanla birləşdirən yoldan danışırsa, həmin yolu Zəngəzur dəhlizi adlandırıb-adlandırmamasından asılı olmayaraq, İrəvanın bununla bağlı öhdəliyi Paşinyanın Rusiyaya başqaxıncı kimi dilə gətirdiyi üçtərəfli bəyanata əsasən müəyyənləşib. Yəni, Nikol bu dəhliz ilə Ermənistanın ərazi bütövlüyünün pozulacağı məntiqinə söykənə bilməz. Həm də ona görə ki, artıq qatar gedib. Yəni, üçtərəfli bəyanatda Paşinyanın imzası var. Sadəcə olaraq, həmin imzanı ona xatırlatmaq lazımdır. Çünki unutqandır…

Əlbəttə, unutqanlıq həyasızlığa maneçilik törətmir. Paşinyan Azərbaycanı üçtərəfli Bəyanatı pozmaqda, dolayısı ilə isə Rusiyanı ölkəmizin hərəkətinə – Laçın–Xankəndi yolunda sərhədburaxılışı məntəqəsi qurmasına – göz yummaqda ittiham edir. Digər yandan isə Azərbaycan Prezidentinin dəhliz məntiqi üçün təhlükə yaradır. Üçtərəfli görüşdən bir gün sonra erməni diversiya qrupu göndərilirsə, başqa cür düşünməyə əsas yoxdur. Nəzərə alaq ki, diversiya qrupunun məqsədinin Zəngilan istiqamətində Azərbaycan ərazisinin dərinliyinə doğru irəliləyib təxribat törətməkdən, dinc vətəndaşları həyatlarından məhrum etməkdən ibarət olduğu şübhə doğurmur.

İlk baxışdan bu nəticə hasil olur ki, Ermənistan Cənubi Qafqaz vasitəçiliyinin Rusiya formatını manipulyasiya platformasına çevirməkdədir. Rusiyanın da özünün vasitəçilik missiyasından fərqli müstəvidə yararlanmaq istəyinə dair şübhələr var. Mənzərəyə İrəvanın diversiya qrupu “təşəbbüsünü” də əlavə etsək, gözlər V.Putinin dediyi kimi, Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinlərinin görüşünün keçiriləcəyi Moskvaya yox, Kişineuya yönələcək. Söhbət postsovet ölkəsi olan Moldovanın Azərbaycan–Ermənistan münasibətlərinin nizamlanmasının Qərb formatının növbəti raunduna evsahibliyini həyata keçirməsindən gedir.

Məlum olduğu kimi, iyunun 1-də Kişineuda Avropa Siyasi İcmasının növbəti iclası çərçivəsində Fransa Prezidenti və Almaniya Kanslerinin iştirakı ilə Azərbaycan və Ermənistan liderləri arasında görüş nəzərdə tutulur. Hərçənd, həmin görüşün də əsaslı müsbət nəticələr verəcəyinə inam azdır. Çünki Moskva Kişineuya nikbin estafet ötürməyib.

***Ə.CAHANGİROĞLU,***
***“Xalq qəzeti”***

**Mayın 25-də Moskvada keçirilən Ali Avrasiya İqtisadi Şurasının iclasında Azərbaycan Prezidenti İlham Əliyevin çıxışına yersiz replika ilə müdaxilə edən və anındaca tutarlı cavab alan Ermənistan baş naziri Nikol Paşinyan ənənəsinə sadiq qalaraq hərbi təxribata əl atıb. Belə ki, mayın 26-da Ermənistan–Azərbaycan şərti sərhədinin Zəngilan rayonunun Rəzdərə kəndi ərazisindən keçən hissəsində Hayastan ordusunun diversiya qrupu təxribata cəhd göstərib. Azərbaycan Dövlət Sərhəd Xidmətinin hərbçiləri tərəfindən təxribatın qarşısı dərhal alınıb.**

# İrəvan taktikasına sadiqdir: siyasi və hərbi təxribat



Bununla bağlı Baş Prokurorluğun və Dövlət Sərhəd Xidmətinin birgə məlumatında bildirilib ki, sərhəd-döyüş məntəqəsində xidmətdə olan hərbi qulluqçularımızın sayıqlığı nəticəsində təxribat-diversiya qrupunun hərəkəti vaxtında aşkarlanaraq zəruri tədbirlər görülüb. Baş Prokurorluğun İstintaq İdarəsində aparılan araşdırma zamanı diversantların Azərbaycan ərazisində terror-təxribat əməlləri törətməyi planlaşdırdıqları məlum olub. Nəticədə Ermənistan ordusunun 2 hərbi qulluqçusu saxlanılıb. Toplanmış sübutlar əsasında cinayət işi açılıb. Harutyun Ovakimyan və Karen Qazaryan şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub. Diversiya qrupunun digər üzvləri ərazinin mürəkkəb relyefə malik olmasından istifadə edərək, geri qaça biliblər.

Erməni diversantlar qrupu Azərbaycan vətəndaşlarını, o cümlədən, hərbçilərini öldürməyi planlaşdırsa da, Dövlət Sərhəd Xidmətinin hərbçiləri tərəfindən vaxtında aşkar ediliblər. Əgər diversiya baş tutsaydı, onlar Azərbaycanın digər ərazilərində də təxribat törədib mülki insanları hədəfə götürə bilərdilər.

Təxribatçıların ələ keçməsinə dair Azərbaycan mediasında məlumatın yayılmasından sonra erməni tərəfi məsələyə öz xislətinə uyğun münasibət bildirib. Hayastanın müdafiə nazirliyi ilk olaraq, xəbəri həmişəki kimi təkzib etməyə çalışıb: “Azərbaycan mediasında Ermənistan tərəfinin sərhəd xəttinin cənub-şərq hissəsində təxribat cəhdi barədə yayılan məlumat tamamilə yalandır”. Sonra, artıq gecəyarısı təcavüzkar ölkənin müdafiə nazirliyi “döyüş mövqelərini qida ilə təmin edən Ermənistan silahlı qüvvələrinin iki hərbçisi ilə əlaqənin kəsildiyini” bəyan edib. Erməni tərəfi mayın 27-də günorta saatlarında, guya, həmin hərbçilərin olduğu qida və su ilə dolu hərbi yük maşının meşəlik ərazidə tapılması barədə məlumat yayıb. Əslində, bunu səhnələşdirilmiş oyun adlandırmaq daha doğru olardı. Yəni, onlar, sadəcə olaraq, “KamAZ”ı meşəlik əraziyə sürüb, əlverişli rakursdan bir neçə kadr çəkib və bununla da təxribat törədilməsi ilə bağlı ittihamlardan qaçmaq istəyiblər. Yəqin ki, əməliyyatın uğursuz olmasından sonra Ermənistan müdafiə nazirliyində bununla bağlı fəal müzakirə aparılıb. Güman etmək olar ki, bu müzakirə zamanı erməni tərəfi hərbçilərinin “itkin düşməsi” ilə bağlı vəziyyətin yeni “təfərrüatları”nı və versiyaları düzüb-qoşub. Bu yanaşmanın məqsədi bəllidir – özünü “günahsız keçi” qismində göstərmək. Bu, həm də diqqəti əməliyyatın uğursuzluğundan yayındırmaq cəhdidir.

44 günlük Vətən müharibəsində biabırçı məğlubiyyətə uğrayan, kapitulyasiya sənədinə imza atan Nikol Paşinyan qeyd etdiyimiz kimi, Moskvada Prezident İlham Əliyevlə “söz savaşı”na başlamağa cəhd göstərib. Lakin son nəticədə həm Azərbaycanda, həm də Ermənistan və Rusiyada gülüş obyektinə çevrilib. Bu hadisə, vaxtaşırı pis vəziyyətlərə düşən N.Paşinyan üçün növbəti biabırçılıq idi, – desək, səhv etmərik. Paşinyan cənab İlham Əliyevin sammitdə Ermənistanın rəsmən Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması ilə bağlı sözlərinə etiraz etmədiyi üçün ölkə müxalifəti tərəfindən sərt tənqid edilib. Görünür, bu vəziyyətdə, baş nazir “uğurlu lokal qələbə” ilə nəticələnəcək hərbi təxribata əl atmaq qərarına gəlib. Nikol Paşinyan bununla həm daxildə siyasi mövqeyini gücləndirəcəyinə, həm də iyunun 1-də Kişineuda keçirilməsi nəzərdə tutulan görüşdən əvvəl danışıqlarda irəliləyiş əldə olunmasının qarşısını alacağına ümid edib. Çünki sülh prosesini uzatmaq Ermənistanın həm əvvəlki rejimlərinin, həm də indiki hökumətinin məlum taktikasıdır.

Ermənistanın hərbi-siyasi rəhbərliyi bundan əvvəlki təxribatların da qarşısının Azərbaycan hərbçiləri tərəfindən qətiyyətlə alındığını nəzərə alaraq, nəhayət, bu taktikadan əl çəkməli və hələ dərk etmədiyi sadə həqiqəti anlamalıdır. İrəvan rəhbərliyi başa düşməlidir ki, Ermənistan üçün iqtisadi inkişaf, xilas yolu Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşdırılmasından keçir. Bunun üçün İrəvan Bakı və Ankaraya ərazi iddialarına, təxribatlara son qoymalı, Azərbaycanla sülh danışıqlarını uzatmamalı, tezliklə sülh sazişinin imzalanmasına çalışmalı, Zəngəzur dəhlizinin açılmasına mane olmağa cəhd etməməlidir. Ermənistan sülh gündəliyinə sadiqlik nümayiş etdirməli və təxribatçı əməlləri ilə sülhün qarşısını almaqdan əl çəkməlidir. Çünki sülhdən, regionda kommunikasiyaların açılmasından ən çox xeyir görən tərəflərdən biri Ermənistan olacaq. Hər halda, Ermənistanın regionda bütün nəqliyyat və iqtisadi kommunikasiyaların blokadadan çıxarılmasına hazır olduğunu mayın 25-də Nikol Paşinyan özü Moskvada etiraf edib.

**Ermənistanın törətdiyi son təxribata münasibət bildirən politoloq Tural İsmayılov deyib ki,** Azərbaycanın sülhdən danışdığı bir vaxtda İrəvanın ölkəmiz əleyhinə təxribat-diversiya qrupu vasitəsilə hücumlar təşkil etməsi, tez-tez şərti sərhəddə və cəbhə bölgəsində vəziyyəti gərginləşdirməyə çalışması bu dövlətin terrorçu mahiyyətini növbəti dəfə ortaya qoymuş olur: “Moskva görüşündən sonra Kişineuda iki ölkə arasında yekun sülh sazişinin imzalanması ilə bağlı razılığın əldə olunacağı məqamında İrəvanın Zəngilana diversantlar göndərməsi bir daha bunu deməyə əsas verir ki, Ermənistan yenidən Qarabağ və Şərqi Zəngəzurda vəziyyəti gərginləşdirməyə çalışır. Həmçinin diversantların ərazilərimizə göndərilməsi Zəngilana qayıdacaq soydaşlarımıza qarşı müxtəlif məkrli planların olduğunu göstərir. Məlumdur ki, Azərbaycan vətəndaşları artıq Zəngilanın Ağalı kəndinə geri dönüblər. Yaxın zamanda Zəngilanın digər kəndlərinə də soydaşlarımızın qayıdışı planlaşdırılır. Ona görə də Ermənistan qəsdən Zəngilana diversantlar göndərərək, müxtəlif təxribatçı əməllər törədə, o cümlədən, orada minalar basdıraraq soydaşlarımıza qarşı terror aktları həyata keçirə bilərdi. Sərhədçilərimizin ayıq-sayıqlığı nəticəsində növbəti dəfə Ermənistanın məkrli planları ifşa edildi”.



Tural İsmayılov onu da bildirib ki, Kişinyov görüşü öncəsi Zəngilanda həyata keçirilən diversiya hücumu həm Qərb, həm də Rusiya tərəfindən mütləq daha aydın şəkildə qiymətini almalıdır: “Siyasi güclər Ermənistanın bu hərəkətlərini pisləməlidir. Əks-təqdirdə Azərbaycan sülh əlini uzatdığı halda, Ermənistan yenə təxribatlara davam edəcək”.

***Səxavət HƏMİD,***
***“Xalq qəzeti”***

# Azərbaycanın elektrik enerjisi sistemində bərpaolunan mənbələrin çəkisi artır



**İqtisadiyyat naziri Mikayıl Cabbarovun mətbuata verdiyi məlumata əsasən, Azərbaycanın nümayəndə heyəti Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) səfərdə olarkən, bu ölkənin sənaye və qabaqcıl texnologiyalar naziri, Əbu-Dabi Milli Neft Şirkətinin Baş icraçı direktoru və "Masdar" şirkətinin sədri Sultan Əhməd Əl Caber ilə görüşüb. Söhbət zamanı ölkələrimiz arasında iqtisadi əlaqələrin uğurlu inkişafı, "yaşıl enerji" sahəsində Masdar şirkəti ilə birgə reallaşdırılan mühüm layihələr və energetika sahəsində əməkdaşlığın perspektivləri barədə müzakirələr aparılıb.**

İqtisadiyyat Nazirliyinin məlumatına görə, nazir Mikayıl Cabbarovun BƏƏ-yə səfəri çərçivəsində bir sıra görüşlər keçirilib. SOCAR prezidenti Rövşən Nəcəfin də iştirak etdiyi tədbirlərdə qarşılıqlı faydalı əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

BƏƏ-nin sənaye və qabaqcıl texnologiyalar naziri, Əbu-Dabi Milli Neft Şirkətinin (ADNOC) baş icraçı direktoru və "Masdar" şirkətinin sədri Sultan Əhməd Əl Caberlə görüşdə iqtisadiyyat naziri ölkəmizin təmiz ətraf mühit və "yaşıl" enerji ölkəsinə çevrilməsinin qarşıya mühüm vəzifə kimi qoyulduğunu vurğulayıb, enerjidən səmərəli istifadə olunması və yeni dayanıqlı enerji mənbələrinin yaradılması istiqamətində həyata keçirilən layihələr, habelə onların icra vəziyyəti barədə məlumat verib.

Nazir M.Cabbarov daha sonra alternativ enerji mənbələrinin yaradılması istiqamətində ölkəmizin güclü potensiala malik olduğunu və Azərbaycanın bu sahədə BƏƏ-nin "Masdar" şirkəti ilə uğurlu əməkdaşlıq etdiyini vurğulayıb.

Yeri gəlmişkən, hazırda ölkəmizdə enerji istehsalının bərpaolunan mənbələr hesabına şaxələndirilməsi əsas vəzifələrdən biridir. Bu istiqamətdə "Masdar"ın fəaliyyəti xüsusi diqqət çəkir. Şirkətin respublikamızda həyata keçirdiyi layihə dayanıqlı, təmiz enerji ilə bağlı prioritetlərin reallaşdırılmasına xidmət edir.

Xatırladaq ki, respublikamızda iqtisadi cəhətdən əlverişli və texniki baxımdan istifadəsi mümkün bərpaolunan enerji mənbələrinin böyük potensialı var. Ölkəmizin quruda 27 giqavatt enerji potensialı (günəş və külək enerjisi), dənizdə isə 157 giqavatt enerji potensialı mövcuddur. Bu enerjinin gerçəkləşdirilməsi, istehsalı və ixracı üçün genişmiqyaslı layihələrin reallaşdırılması, həmçinin investisiyaların qoyulması tələb olunur.

Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində indiyədək bu istiqamətdə mühüm tədbirlər həyata keçirilib, xarici investisiyaların cəlb olunması istiqamətində bir sıra danışıqlar aparılıb, müqavilələr imzalanıb. Bununla da respublikamızda bərpaolunan elektrik enerjisi ixracını artırmaq üçün geniş imkanlar açılıb.

Azərbaycanın bərpaolunan enerji mənbələri sahəsində bir sıra mühüm investisiya müqavilələrini imzalaması, respublikamızda günəş və külək enerjisi stansiyalarının tikintisinə başlanılması da yuxarıda vurğulanan fikrin bariz ifadəsidir. 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyası layihəsinin BƏƏ-nin "Masdar" şirkəti ilə birgə həyata keçirilməsi də həmin istiqamətdə atılan uğurlu addımlardan biridir. Mütəxəssislərin bildirdiyinə görə, adıçəkilən şirkət mövcud sahədə Azərbaycan üçün əsas və güvənilən tərəfdaşlardan biridir. İlkin hesablamalara əsasən, stansiya tərəfindən illik 500 milyon kVt/st elektrik enerjisi istehsal olunacağı nəzərdə tutulur.

Son məlumata görə, Qaradağ Günəş Elektrik Stansiyasında hazırda panellər tədricən əraziyə gətirilir. Eyni zamanda, 330/35 kV-luq yarımstansiyanın tikintisi davam etdirilir. Tək oxlu günəş izləmə sistemi ilə təchiz olunacaq GES-in cari ilin sonuna qədər istismara veriləcəyi də vurğulanır.

Bir sözlə, "Masdar" Azərbaycanda alternativ enerji sahəsində böyük layihələrin həyata keçirilməsində fəal iştirak edir. Bu, cari il yanvarın 15-də Prezident İlham Əliyevin BƏƏ-yə işgüzar səfəri çərçivəsində Əbu-Dabi şəhərində Azərbaycan Respublikası SOCAR ilə adıçəkilən xarici şirkət arasında imzalanan sazişlə öz təsdiqini tapıb.

Bu məqamda onu da qeyd edək ki, respublikamızın strateji investorlarının biri ilə Azərbaycan 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat Günəş enerjisini istehsal etməyi planlaşdırır ki, onun da 80 faizinin ixrac olunacağı planlaşdırılır. Bununla yanaşı, 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə güclərin yaradılması da nəzərdə tutulur.

Göründüyü kimi, ölkəmizdə bərpaolunan enerji layihələrinin reallaşdırılması prioritet istiqamətdir. Dövlətimizin başçısı bu sahənin inkişafına, sözügedən istiqamətdə tədbirlərin genişləndirilməsini diqqət mərkəzində saxlayır.

ADA Universitetinin təşkilatçılığı ilə mayın 3-də Şuşada ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda bərpaolunan enerji ilə bağlı məsələyə münasibət bildirən Prezident İlham Əliyev deyib: "İstər hidro, istər külək enerjisi sahəsində həm Gürcüstanda, həm də Azərbaycanda, o cümlədən Qarabağda böyük potensial var. Artıq dediyim kimi, biz 25 qiqavat enerjini istehsal etmək məqsədilə bərpaolunan enerji sahəsində məşhur olan bir neçə əsas beynəlxalq şirkətlə müqavilə və anlaşma memorandumları imzalamışıq. Onun, təxminən, 500 meqavatı üçün artıq tikinti işləri gedir. 230 meqavatlıq güclərin açılışını biz bir neçə ay ərzində planlaşdırırıq. 700 meqavatdan artıq günəş və külək enerjisini biz ola bilsin, maksimum 2025-ci ilə qədər təmin edəcəyik. Qalan güclərin yaradılması plandadır. Bir sözlə, gələcəyimizin böyük üfüqləri var və biz hər zaman bir yerdə olmalıyıq".

Dövlətimizin başçısının diqqətə çatdırdığı bütün bu fikirlər Azərbaycanın Avropa üçün vacib "yaşıl enerji" təchizatçısına çevrilməsi yolunda atdığı uğurlu addımlardan xəbər verir.

Beləliklə, Azərbaycanın zəngin enerji resursları həm ölkəmizin iqtisadi potensialını gücləndirir, həm də regional əməkdaşlıqda çox mühüm rol oynayır. Tikilib istifadəyə verilən neft kəmərləri isə Azərbaycan neftini dünya və Avropa bazarlarına çıxarır. Respublikamız qlobal miqyasda artıq qaz ixrac edən ölkəyə çevrilir.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***

### Ekspert rəyi



**Vəkil HÜSEYNOV, iqtisadçı-ekspert**

Hazırda respublikamızda elektroenergetika sistemində ümumi gücü 6642 meqavat olan 22 istilik elektrik stansiyası, ümumi gücü 1158,1 meqavat olan 30 su elektrik stansiyası, 37 meqavat gücündə bərk məişət tullantıları elektrik stansiyası, 63,3 meqavat gücündə 4 külək elektrik stansiyası, ümumi gücü 46,1 meqavat olan 8 Günəş elektrik stansiyası və ümumi gücü 7,4 meqavat olan 3 hibrid elektrik stansiyası fəaliyyət göstərir. Su elektrik stansiyaları daxil olmaqla bərpaolunan enerji mənbələri üzrə elektrik stansiyalarının gücü 1311,9 meqavatdır ki, bu da ümumi istehsal gücünün, təxminən, 16,5 faizini təşkil edir.

Bu məqamda onu da xatırladaq ki, respublikamızda iqtisadi cəhətdən əlverişli və texniki baxımdan istifadəsi mümkün güclü bərpaolunan enerji mənbələri hesabına yeni elektrik stansiyalarının istifadəyə verilməsi nəticəsində hazırda ölkəmizin ümumi elektrik enerjisi istehsalı gücü 7953,9 meqavata çatıb. Bununla da ötən illə müqayisədə 392,4 meqavat və ya 4,9 faiz artım yaranıb.

Növbəti illərdə elektrik enerjisinin istehsal dinamikası artıq bərpaolunan enerji mənbələrinə əsasən formalaşacaq. Bunun üçün zəngin potensial, bərpa olunan enerjinin inkişafını prioritetləşdirən dövlət siyasəti, yeni qanunvericilik bazası və xarici investisiyaların cəlbi kimi bütün zəruri şərtlər mövcuddur.

## Azad edilmiş ərazilərdə 11 SES qurulub

**Dövlət Ekoloji Ekspertiza Agentliyində Oxçuçay üzərində "Azərenerji" ASC tərəfindən inşası həyata keçirilən "Şayıflı", "Sarıqışlaq", "Zəngilan" və "Cahangirbəyli" kiçik su elektrik stansiyalarının binasının, suqəbuledicisinin və basqılı su borusunun tikintisi məqsədilə "Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi" hesabatına dair ictimai dinləmə keçirilib.**



"Azərenerji" prezidentinin müşaviri Vüqar Əliyev deyib ki, ötən müddətdə 11 yeni 110 kilovoltluq, bir 330 kilovoltluq yarımstansiya tikilib. İdarəetmə mərkəzləri yaradılıb, 600 kilometrdən artıq xətt çəkilib. İşğaldan azad edilmiş ərazilərdə 11 su elektrik stansiyası yenidən qurulub. İşğalçılar tərəfindən dağıdılaraq yararsız vəziyyətə salınmış 29 stansiyanın ümumi gücü 135,8 meqavat təşkil edib. Bunlardan da ümumi gücü 53,6 meqavat olan 11 ədədi bərpa olunaraq istifadəyə verilib. O, həmçinin deyib ki, işğaldan azad edilmiş ərazilərdə 237,55 meqavat gücündə 38 yeni su elektrik stansiyasının tikintisi təklif olunur.

"Azərenerji"nin nümayəndəsi onu da əlavə edib ki, SES-lər üzrə layihələr hazırlandıqda su resurslarından səmərəli istifadə, istehlakçıların suya olan tələbatının təmin olunması, ekoloji normaların qorunması və kinetik enerjisindən istifadə edilərək elektrik enerjisinin istehsalı məqsədləri nəzərə alınır.

***"Xalq qəzeti"***

## Özəlləşdirmədən büdcəyə köçürmələr 2,7 dəfə artıb

**Bu ilin yanvar–aprel aylarında İqtisadiyyat Nazirliyi Əmlak Məsələləri Dövlət Xidməti dövlət büdcəsinə 51,1 milyon manat köçürüb.**



Əmlak Məsələləri Dövlət Xidmətinin məlumatına görə, 4 aylıq ödənişin 40,8 milyon manatı özəlləşdirmə, 10,8 milyon manatı isə icarə hesabına təmin edilib. Bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 2,7 dəfə və 25,2 faiz çoxdur.

Hesabat dövründə 16 hərrac keçirilib. Hərraclarda 2 səhmdar cəmiyyətinin səhm paketi, 8 kiçik dövlət müəssisəsi, 1 yarımçıq tikili sahəsi və 198 nəqliyyat vasitəsi özəlləşdirilib. Ötən müddətdə hərraca çıxarılmış dövlət əmlakları üzrə 130 elektron sifariş qəbul edilib, hərraclarda iştirak etmək məqsədilə "Elektron hərrac" proqram təminatı vasitəsilə 26 onlayn qoşulma reallaşıb. İlin ilk 4 ayı ərzində hərrac vasitəsilə 13 faydalı qazıntı yatağı sahibkarların istifadəsinə verilib.

Cari ilin yanvar–aprel aylarında bağlanmış 1045 yeni icarə müqaviləsinin 223-ü qeyri-yaşayış sahələrinə, 822-si isə torpaq sahələrinə aid olub.

## Naxçıvanda "yaşıl enerji" texnologiyaları

**Energetika nazirinin müavini Elnur Soltanovun mətbuata məlumatında işğaldan azad edilən ərazilərdə yüksəkvoltlu enerji təchizatı sistemlərinin, demək olar ki, tam qurularaq başa çatdırıldığı bildirilib.**



E.Soltanov daha sonra Qarabağın elektrik enerjisi ilə təmin olunmasının yüksək sürətlə davam etdiyini, Azərbaycan Prezidentinin tapşırığına əsasən, burada "yaşıl enerji" texnologiyaları tətbiq olunduğunu vurğulayıb. Naziri müavini, həmçinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında günəş və külək enerjilərinin əldə olunması üçün stansiyaların inşa edildiyini də xatırladaraq həmin ərazilərin iqlim potensialının bu coğrafiyada "yaşıl zona" yaradılmasına imkan verdiyini diqqətə çatdırıb.

E.Soltanov sonda Qarabağda tətbiq olunan "yaşıl enerji" texnologiyalarının Naxçıvanda da həyata keçiriləcəyini, muxtar respublikanın iqlim şəraitinin ekoloji təmiz enerji istehsal etməyə böyük imkan yaratdığını bildirib.

***"Xalq qəzeti"***

## Bakı–Tbilisi–Qars dəmir yolu Orta Dəhlizə qovuşur



**Hazırda Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu xətti ilə yüklərin daşınma potensialının artırılması istiqamətində tikinti tempinin sürətləndirilməsi üçün zəruri tədbirlər həyata keçirilir. BTQ-nin genişləndirilməsi isə Orta Dəhliz vasitəsilə daha çox yüklərin cəlb edilməsi məqsədi daşıyır.**

Artıq "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti adıçəkilən dəmir yolu xəttinin Gürcüstandan keçən, uzunluğu 183 kilometr olan mürəkkəb coğrafi relyefə malik sahəsində təmir-bərpa, rekonstruksiya və tikinti işlərini sürətləndirmək və layihənin qısa müddətdə başa çatdırılması üçün yeni podratçılar cəlb edib.

Qeyd edək ki, 2017-ci ildən ilkin olaraq istifadəyə verilmiş sözügedən dəmir yolu xəttinin çətin relyefli dağlıq və meşəlik ərazidən keçən Marabda-Kartsaxi sahəsində təmir-bərpa işlərinə başlanılması yol təsərrüfatının sağlamlaşdırılması, onun buraxıcılıq gücünün artırılması və hərəkətin təhlükəzliyi baxımından həyata keçirilən tədbirlərdir. Hazırda aparılan işlər nəticə etibarı ilə Çin və Orta Asiyadan daha çox yükün qəbul edilərək Avropaya çatdırılmasında önəmli rol oynayacaq. Belə ki, Asiyadan gələn yüklərin Azərbaycan üzərindən biraşırımlı əməliyyatla Avropaya daha sürətli çatdırılması BTQ-ın regional nəqliyyat şəbəkəsindəki əhəmiyyətini daha da önə çıxarır.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin məlumatına görə, ötən müddətdə xətlər tam elektrikləşdirilib, dəmir yolunun inşası, əsasən, tamamlanıb. Hazırda 12 stansiyada elektrik təchizatı, rabitə və işarəvermə qurğularının, stansiya işçiləri üçün inzibatı binaların, müasir köməkçi kommunikasiya işlərinin tamamlanması yerinə yetirilir. Layihə üzrə müvafiq tamamlama işlərinin qısa müddətdə yekunlaşdırılması üçün may ayının ortalarından etibarən yolda yüklərin daşınması müvəqqəti olaraq məhdudlaşdırılıb.

Yeri gəlmişkən, mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda Prezident İlham Əliyev BTQ-nin Gürcüstan hissəsində həyata keçirilən genişləndirmə işləri ilə bağlı deyib: "Hazırda Azərbaycan Bakı–Tbilisi–Qars dəmir yolunun uzadılmasına əlavə vəsaitlər ayırır. Gürcüstan ərazisində ötürmə qabiliyyətinin 5 milyon tona qədər artırılmasına biz təxminən 140 milyon dollar ayırdıq. Ümid edirik, bu gündən etibarən maksimum bir il ərzində biz buna nail olacağıq".

Xatırladaq ki, Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi ilə bağlı razılaşma sənədi Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçılarının 2005-ci ilin yanvar ayında baş tutan görüşü zamanı imzalanıb. Bununla belə, maliyyə çatışmazlığı ucbatından layihənin icrası ləngiyib. 2005-ci ilin may ayında Azərbaycan paytaxtında Bakı–Tbilisi–Ceyhan boru kəmərinin açılışı zamanı üç ölkənin prezidenti yenidən bu məsələyə qayıdaraq dəmir yolu xəttinin tikintisinə başlamağın vacibliyini növbəti dəfə bəyan ediblər. Yeri gəlmişkən, ABŞ və Avropa Birliyi Ermənistan amilinə görə layihəyə qarşı çıxaraq dəmir yolunun tikintisinin maliyyələşdirilməsindən imtina ediblər. Belə olan təqdirdə Azərbaycan tikintinin maliyyələşdirilməsini öz üzərinə götürüb. Bu məqsədlə qonşu Gürcüstana ildə 1 faiz dərəcəsi ilə 25 il müddətinə 220 milyon dollar kredit ayrılıb. Bütövlükdə isə, BTQ-nin tikintisinin maliyyələşdirilməsinə Azərbaycan Respublikası Dövlət Neft Fondunun xətti ilə indiyədək təqribən 745 milyon dollar vəsait yönəldilib. Türkiyə hökuməti isə Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin ölkə ərazisindən keçən hissəsinin inşasına 345 milyon dollar ayırıb.

2007-ci il noyabr ayının 21-də Gürcüstanın Marabda kəndində Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin təməli qoyulub. 10 il ərzində Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərində nəhəng tikinti-quraşdırma işləri həyata keçirilib. Bakı–Tbilisi–Qars dəmir yolu 2017-ci il sentyabrın 7-də də Tbilisidən Axalkalakiyə gedən ilk sınaq sərnişin qatarının yola salınmasından sonra istifadəyə verilib. Bu münasibətlə oktyabr ayının 30-da Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Bakı yaxınlığındakı Ələt qəsəbəsində təntənəli açılış mərasimi keçirilib. Tədbirdə çıxış edən dövlətimizin başçısı Bakı–Tbilisi–Qars dəmir yolunun Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrildiyini vurğulayaraq deyib: "Bu yolun fəaliyyəti nəticəsində yol boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu artacaq. Bu yoldan istifadə edən bütün ölkələr arasındakı əməkdaşlıq dərinləşəcək. Bu yol sabitliyə və təhlükəsizliyə xidmət göstərəcək. Bu yolun istifadəsi zamanı əminəm ki, turizmin inkişafı da geniş vüsət alacaq, turistlərin sayı artacaq. Təbii ki, Bakı–Tbilisi–Qars dəmir yolunun uğurlu fəaliyyəti ölkələrimizin geosiyasi əhəmiyyətini artıracaq və bizim üçün əlavə imkanlar yaradacaq".

Yeri gəlmişkən, Bakı–Tbilisi–Qars dəmir yolu Türkiyə və Azərbaycanı, xüsusən də Mərkəzi Asiya və Çini Avropa ilə dəmir yolu vasitəsilə birləşdirmək məqsədilə inşa olunub. Hazırda adıçəkilən marşrutla Asiyadakı məhsulların 15 gün müddətində Avropaya çatdırılması mümkündür. İndiki mərhələdə Şərq-Qərb nəqliyyat dəhlizinin mühüm seqmenti olan Bakı–Tbilisi–Qars dəmir yolu ilə ildə təqribən 6-8 milyon ton yük daşınır. Layihəyə əsasən, polad magistralla növbəti illərdə 3 milyon sərnişin və 17 milyon ton yük daşınması nəzərdə tutulur.

BTQ-nin ümumi uzunluğu 826 kilometr təşkil edir. Bunun da 504 kilometri Azərbaycana aiddir. Bu isə BTQ-nin ölkəmizin ən mühüm nəqliyyat infrastrukturu olduğunu deməyə əsas verir. Pezident İlham Əliyevin qeyd etdiyi kimi, Bakı–Tbilisi–Qars dəmir yolu tarixi, strateji əhəmiyyətli layihədir. Layihə Azərbaycan üçün siyasi, iqtisadi və strateji baxımdan xüsusi əhəmiyyət daşıyır. Hər şeydən əvvəl, ölkəmiz bu marşrut vasitəsilə beynəlxalq nəqliyyat dəhlizlərinə və Türkiyəyə birbaşa gediş imkanı qazanıb. Belə ki, dəmir yolu ilə bir günə Qarsa, iki gün yarıma isə İstanbula getmək mümkündür. Azərbaycanın iqtisadi inkişafına mühüm töhfələr verən BTQ, həm də ölkəmizin tranzit imkanlarını xeyli artırıb.

***Mirbağır YAQUBZADƏ, "Xalq qəzeti"***

# Bölgələrdə müstəqillik bayramı

**Müsəlman dünyasında ilk parlamentli, dünyəvi, demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 105 illiyi bölgələrimizdə təmtəraqla qeyd olunur. Tədbirlərdən göründüyü kimi, cəmi 23 ay yaşamış Cümhuriyyətin azadlıq ideyaları və dövlət müstəqilliyi ənənələri xalqımızın təfəkküründə möhkəm yer tutub və ölkəmiz 1991-ci ildə müstəqilliyini yenidən bərpa edib.**





**XAÇMAZ**

"Müstəqilliyimiz əbədidir" mövzusunda tədbirinin iştirakçıları əvvəlcə Xaçmaz rayon Heydər Əliyev Mərkəzində ulu öndər Heydər Əliyevin regionlara səfərlərini əks etdirən fotostendlərlə tanış olublar.

Tədbirdə Dövlət Himni səsləndirilib, ümummilli liderin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Rayon icra hakimiyyəti başçısının müavini Günel Nürəddinova müstəqillik tariximizlə bağlı məlumat verib. Qeyd edib ki, Müstəqillik Günü tariximizin ən şanlı və parlaq səhifələrindən biridir.Azərbaycan Xalq Cümhuriyyəti özünün dövlətçilik əsasları və demokratik islahatları ilə xalqımızın tarixi taleyində mühüm rol oynayıb.

Çıxışlarda vurğulanıb ki, ulu öndərin layiqli davamçısı, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsində işğalçı Ermənistan ordusu darmadağın edildi və tarixi Zəfərə qazanıldı. Bu, Azərbaycan xalqının böyük tarixi Qələbəsidir. Bununla Müstəqillik Günü ikiqat əlamətdar tarixi bayrama çevrilib.

Sonra Müstəqillik Günü ilə bağlı videoçarx nümayiş etdirilib, konsert proqramı təqdim olunub.

**ŞƏKİ**

Gənclər və İdman Nazirliyinin təşkilatçılığı, Səhiyyə Nazirliyi və Mərkəzi Qan Bankının dəstəyi ilə 28 May – Müstəqillik Günü ilə əlaqədar "Qan ver, həyat xilas et!" şüarı altında keçirilən könüllü qanvermə aksiyasına Şəki gəncləri də fəal qoşulublar.

Şəki Şəhər Gənclər və İdman İdarəsindən bölgə müxbirimizə bildirilib ki, dünən B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya



İnstitutunun nəzdindəki Mərkəzi Qan Bankının Şəki regional bölməsində keçirilən qanvermə aksiyasında idarənin əməkdaşları, idmançılar, gənclər iştirak ediblər. Regional bölmənin həkim-hematoloqları tərəfindən həyata keçirilən xeyriyyə aksiyası zamanı 30 könüllü qan verib.

Toplanan qan laboratoriya müayinəsindən keçirildikdən sonra Mərkəzi Qan Bankına təhvil veriləcək və irsi qan xəstəliklərindən əziyyət çəkən insanların müalicəsində istifadə olunacaq.

**MASALLI**

Rayondakı Heydər Əliyev Mərkəzi, Masallı Tarix-diyarşünaslıq Muzeyi və Cəlilabad rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə 28 may – Müstəqillik Günü qeyd olunub.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, eləcə də Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Masallı rayon Heydər Əliyev Mərkəzinin direktoru Dilbər İbayeva giriş nitqi ilə tədbiri açıq elan edib. O, ümummilli liderin və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamlarına əsasən bu tarixi günün hər il xalqımız tərəfindən bayram edildiyini xüsusi vurğulayıb.

Masallı Tarix-diyarşünaslıq Muzeyinin direktoru Əntiqə Tağıyeva çıxışında Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından, müstəqilliyimizin keşməkeşli yollarından, milli dövlətçiliyimizin parlaq səhifələrindən danışıb.

"Azərbaycan Xalq Cümhuriyyəti müasir dövlətçiliyimizin təməlidir" mövzusunda mühazirə ilə çıxış edən muzeyin əməkdaşı Sevinc Əliyeva bildirib ki, 1918-ci ildə Şərqdə ilk demokratik respublika Azərbaycan Xalq Cümhuriyyətinin yaranması milli dövlətçilik tariximizdə öz önəmi və dəyəri, böyük tarixi əhəmiyyəti olan hadisədir. AXC-nin qısa müddətdə həyata keçirdiyi silsilə tədbirlər onun beynəlxalq səviyyədə tanınmasına, müstəqil demokratik dövlət kimi fəaliyyət göstərməsinə tutarlı bir tarixi faktdır.

Sonra Müstəqillik Gününə həsr olunan sənədli film nümayiş olunub.

**CƏLİLABAD**

Rayon Heydər Əliyev Mərkəzində 28 May–Müstəqillik Gününə həsr olunmuş dəyirmi masa tədbirində ziyalılar, idarə, müəssisə və təşkilatların rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Rayon icra hakimiyyətinin başçısı Rafiq Cəlilov Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını tarixi keçmişimizin şanlı səhifələrindən biri kimi qiymətləndirib, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq və sair sahələrdə Cümhuriyyətin həyata keçirdiyi işlərin Azərbaycan tarixinin parlaq səhifəsi olduğunu bildirib.

Azərbaycanın yenidən müstəqillik əldə etdikdən sonrakı ilk dövrlər də qədirbilənliklə xatırlanıb. Qeyd edilib ki, respublikamız 1991-1993-cü illərdə mövcud olan xaos və anarxiya nəticəsində müstəqilliyimizi itirmək təhlükəsi ilə baş-başa qaldığı dövrdə ümummilli lider Heydər Əliyevin dövlət quruculuğu sahəsindəki misilsiz xidmətləri sayəsində müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin taleyini yaşamadı və müstəqillik yolunda dönmədən, inamla irəlilədi. Bu gün bu siyasət ulu öndərin layiqli davamçısı – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

YAP Cəlilabad Rayon Təşkilatının sədri Mirsüleyman Mirxaslı və digər natiqlər Müsəlman Şərqində ilk parlament respublikası – Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan xalqının milli oyanışında oynadığı roldan bəhs ediblər.

**İMİŞLİ**

Heydər Əliyev Mərkəzinin akt zalında Müstəqillik Günü münasibətilə tədbir keçirilən tədbirdə rayon rəsmiləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisələrin rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Öncə ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb. Sonra Dövlət Himni səsləndirilib.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Elçin Rzayev çıxış edərək iştirakçıları Müstəqillik Gün münasibətilə təbrik edib, hər kəsə müstəqil Azərbaycanın çiçəklənməsi naminə işlərində uğurlar diləyib.

Bildirilib ki, xalqımız 28 May – Müstəqillik Gününü hər il böyük təntənə ilə qeyd edir. Çünki 1918-ci il mayın 28-də yüz ildən artıq müstəmləkə şəraitində yaşayan, mədəniyyəti, dili, dini sıxışdırılan Azərbaycan azadlığa çıxıb. AXC 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra süquta uğrayıb. Xalq Cümhuriyyətinin üçrəngli bayrağını yenidən ucaldan və Azərbaycan xalqının əbədi müstəqilliyini təmin edən şəxsiyyət isə xalqımızın ümummilli lideri Heydər Əliyev olub. Bu gün Heydər Əliyevin əsasını qoyduğu siyasəti Prezident İlham Əliyev müasir dövrün tələblərinə və reallıqlarına uyğun davam etdirir. 2020-ci ildə 44 gün davam edən Vətən müharibəsi nəticəsində 30 ilə yaxın erməni işğalı altında qalan Qarabağ azad edildi. Artıq Azərbaycan üçüncü ildir ki, 28 May – Müstəqillik Gününü öz ərazi bütövlüyünü təmin etmiş qalib dövlət kimi qeyd edir. Digər çıxış edənlər Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki yeri və rolundan bəhs ediblər.

***Hazırladılar:***
***Əli ƏLİYEV,***
***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"***

## Budapeştdə Azərbaycanın Müstəqillik Günü və ümummilli liderin 100 illik yubileyinə həsr edilmiş tədbir təşkil olunub



**Heydər Əliyev Fondunun, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun dəstəyi ilə Azərbaycanın Macarıstandakı səfirliyi tərəfindən 28 May – Müstəqillik Günü və ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Budapeştdə ziyafət təşkil olunub.**

Səfir Tahir Tağızadə Macarıstan tarixində inqilabçı kimi yaddaqalan Baş nazir Layoş Koşut və islahatçı Baş nazir Gyula Andrassinin adlarını qeyd edərək Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra xoşbəxtlikdən ümummilli lider Heydər Əliyev kimi böyük bir şəxsiyyətin rəhbər ilə hər iki yanaşmanı özündə birləşdirən uzaqgörən siyasət sayəsində böhrandan, həmin dövrdəki siyasi, təhlükəsizlik və iqtisadi çağırışlardan daha güclü çıxdığını vurğulayıb.

Macarıstan Milli Assambleyasının sədr müavini Şandor Lejak ölkəmizi Müstəqillik Günü və ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibətilə təbrik edib. O, Azərbaycan ilə Macarıstan arasındakı əlaqələrin yüksək səviyyəsindən məmnunluğunu ifadə edib. Şandor Lejak bu yaxınlarda ölkəmizə səfəri ilə bağlı müsbət təəssüratlarını bölüşüb.

Heydər Əliyev Mərkəzinin direktorunun birinci müavini Fərqan Novruzov çıxışında Heydər Əliyev Fondunun ölkə daxilində və xaricində çoxşaxəli fəaliyyəti barədə məlumat verib. Fondun prezidenti, birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə bir sıra Avropa ölkələrində həyata keçirilən bərpa işlərini, eləcə də Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan quruculuq proseslərini diqqətə çatdırıb. F. Novruzov Heydər Əliyev Fondunun ulu öndərin siyasi irsinin təbliğində böyük rol oynadığını vurğulayıb.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Heydər Əliyevin Azərbaycan tarixindəki əvəzsiz rolundan danışıb. O, rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə tədbir iştirakçılarına məlumat verib.

Çıxışlardan sonra Azərbaycanın Xalq artisti Mənsum İbrahimovun rəhbərlik etdiyi "Qarabağ" xalq musiqisi qrupunun üzvləri Azərbaycan mahnılarını ifa ediblər. Eyni zamanda, Əməkdar artist, dirijor, bəstəkar və pianoçu Turan Manafzadənin rəhbərlik etdiyi, türk dövlətlərini təmsil edən "Yeddi gözəl" musiqi qrupunun üzvlərinin ifaları dinlənilib.

## Naxçıvanda bayram hədiyyəsi



**Muxtar respublikada kağız məhsulları istehsalı sahəsinin işə salınması sakinlərə bayram hədiyyəsi olub. Bu münasibətlə keçirilən mərasimdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli iştirak edib.**

Məlumat verilib ki, yeni müəssisə "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətinin tərkibində yaradılıb. İstehsal sahəsinin yaradılmasına 2,5 milyon manat dan artıq sərf olunub ki, bunun 550 min manatını dövlət maliyyə dəstəyi təşkil edir. Burada Türkiyə istehsalı olan 4 salfet və 1 karton-rulon xətti fəaliyyət göstərir. "Zərif" əmtəə nişanı ilə 4 növdə 8 çeşiddə salfet, 1 növdə karton-rulon istehsalı həyata keçirilir. Hazırda müəssisədə 20 nəfər çalışır və satışdan, istehsal imkanlarından asılı olaraq işçi sayının artırılması planlaşdırılır. Xammal Türkiyədən alınır və 100 faiz sellüloz maddələrdən əldə edilir.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli müəssisədə yaradılan şərait, istehsal prosesi, məhsulların dizaynı, istifadə imkanları, keyfiyyəti ilə yaxından maraqlanıb, tapşırıqlarını çatdırıb.

Fuad Nəcəfli inşası davam etdirilən "Naxçıvan Şərab" Məhdud Məsuliyyətli Cəmiyyətində də olub, müəssisənin istehsal, qablaşdırma, anbar, laboratoriya hissələrinə baxıb. Burada ilkin olaraq 4 çeşiddə araq istehsal ediləcək, gələcəkdə, çaxır, konyak, viski istehsalı da nəzərdə tutulur. Səlahiyyətli nümayəndə müəssisənin layihəsi, istehsal imkanları, avadanlıqların işləmə mexanizmi ilə yaxından maraqlanıb, görüləcək işlərdə keyfiyyət amilinin diqqətdə saxlanılması barədə tapşırıqlarını verib.

***Səbuhi HƏSƏNOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***




# Cümhuriyyət dövrünün mətbuatı şanlı tarixi salnamədir

**XX əsrin əvvəlində başlayan istiqlal savaşının hərəkatının məntiqi nəticəsi kimi yaranan Azərbaycan Xalq Cümhuriyyəti mübariz milli mətbuatın təşəkkülünü də təmin etmişdir. O zaman davamlı şəkildə aparılan ideoloji-siyasi mübarizələrdə mətbuat orqanları ön plana çıxmışlar. 28 May – Müstəqillik Günü ilə əlaqədar redaksiyamızın qonağı olan tarix üzrə fəlsəfə doktoru, Əməkdar jurnalist Akif Aşırlı ilə istiqlal dövrünün mətbuatı mövzusunda söhbət apardıq.**

**– Akif müəllim, bilirik ki, siz 1870–1920 və 1920–1990-cı illəri əhatə edən iki "Mətbuat tarixi" kitabının müəllifisiniz. Eyni zamanda, cümhuriyyət dövrü mətbuatının müxtəlif aspektləri, o dövrün qaranlıq səhifələri ilə bağlı bir sıra araşdırma məqalələriniz var. Bugünün "pəncərə"sindən 105 illik məsafədə milli mətbuatımızın mənzərəsi necə görünür?**

– Bəri başdan deyim ki, AXC dövrü mətbuatı milli mətbuat tariximizdə xüsusi bir mərhələ təşkil edir. İstiqlal mətbuatı cümhuriyyətin ömrü qədər qısa ömrü olmuş tarixi salnaməmizdir. Bu mərhələni digərlərindən fərqləndirən başlıca amil odur ki, burada artıq senzuralı mətbuatdan yox, açıq, demokratik mətbuatdan danışılır. Milli mətbuatımızın ilk nümunəsi olan "Əkinçi" qəzetinin yarandığı 1875-ci ildən 1918-ci ilin mayına qədərki dövrdə ana dilində cəmi 40 adda qəzet çıxmışdısa, 23 aylıq Cümhuriyyət zamanı qəzetlərin sayı 200-dən çox olub. 1918-ci ilin sentyabr ayının 15-də Qafqaz İslam Ordusu Bakını erməni-bolşevik işğalından azad edəndən sonra Azərbaycan mətbuatı özünün yeni dövrünə qədəm qoyub. Bu, "Azərbaycan" qəzetindən başlayıb. Elə Bakının azad edilməsi xəbərini ertəsi gün Gəncədə Yelizavetpol qubernatorunun mətbəəsində çap olunan "Azərbaycan" qəzeti xəbər verib. Dörd səhifədən ibarət olan bu qəzetin iki səhifəsi Azərbaycan türkcəsində, iki səhifəsi isə rus dilində buraxılıb. Gəncədə ilk dörd sayı çıxmış "Azərbaycan" sonra Bakıya köçürülüb və 1920-ci ilin 27 aprel tarixinədək nəşr olunub.

Qəzet Bakıya köçdükdən sonra oktyabrın 3-də 5-ci sayı 4 səhifədən ibarət olmaqla nəşr edilib və bu sayında fəaliyyət istiqamətlərinin "gündəlik ictimai, ədəbi, iqtisadi türk qəzetəsi" olması proqramlaşdırılıb. Cümhuriyyətin ilk rəsmi mətbu orqanı sayılan "Azərbaycan" dövlət tərəfindən maliyyələşir və dövlət mətbəəsində gündəlik nəşr olunurdu. Gəncədə çıxan ilk dörd sayından sonra Bakıda 1918-ci ildə 75, 1919-cu ildə 358, 1920-ci ildə isə 85 sayı işıq üzü görüb.

**– O dövrün daha hansı mətbu nəşrlərin adını çəkmək olar?**

– Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü, "İttihad" partiyasının sədri Qarabəy Qarabəyov nəşrləri hesab olunan "İttihad" və "Yeni həyat" qəzetlərinin də bəlli ideoloji-siyasi istiqamətləri vardı. Cümhuriyyət dövründə tək Bakıda deyil, Gəncədə, Şuşada, Tiflisdə, İrəvanda və digər bölgələrdə də müxtəlif ideya-siyasi istiqamətli mətbu orqanlar çap olunub. Qafqaz İslam Ordusunun komandanı Nuru Paşanın siyasi müşaviri kimi Türkiyədən Azərbaycana gələn Əhməd bəy Ağaoğlu Gəncədə "Türk yurdu" qəzetini nəşr etdirib. Çox təəssüf ki, Azərbaycan uğrunda gedən hərbi savaş və mətbəə imkansızlığı ucbatından bu qəzetin cəmi iki sayı işıq üzü görüb. Tiflisdən Gəncəyə köçən milli hökumət Azərbaycanın bütövlüyü savaşında mətbu imkanların zəifliyini hiss edib və bir sıra tədbirlər görməyə başlayıb.

O vaxt əsas məfkurə Vətəni sevmək, millilik, türkçülük, turançılıq, öz milli ordusuna sahib olmaq iddiası idi. O dövrkü mətbuat milli dövlətçilik quruluşuna hesablanmışdı. Eyni zamanda, AXC dövründə bolşevik mətbuatı da, müstəqil Azərbaycanın tərəfdarı olan, iqtisadiyyatımızı özündə əks etdirən milli nəşrlər də var idi. 1919-cu ildə "Övraqi-nəfsi" adında ilk mədəniyyət jurnalımız nəşr olundu. Təəssüf ki, o dərginin cəmi 6 sayı işıq üzü gördü. Aparıcı mövzusu Azərbaycanın milli-mədəni tarixi, islahatlar, teatr tarixi və görkəmli aktyorların həyatı ilə bağlı idi. "İstiqlal" qəzetində müstəqilliyin möhkəmlənməsi uğunda mücadilə öz əksini tapmışdı. Onun başlığında verilən Tofiq Fikrətin məşhur misraları bu qəzet üçün epiqraf seçilmişdi:

**Millət yoludur, haqq yoludur tutduğumuz yol,**
**Ey haqq! Yaşa, ey sevgili millət, yaşa var ol!**

Get-gedə pərvəriş tapan AXC mətbuatı çoxdilli idi. Rus, gürcü, fransız, polyak, alman dillərində qəzetlər çap olunurdu. 1919-cu il oktyabr ayının 29-da Mətbuat Nizamnaməsi qəbul edilib. Biz hazırkı "Media haqqında" qanunun ana müddəalarını, fəlsəfəsini nəzərdən keçirsək, görərik ki, kökləri gedib AXC-nin həmin Nizamnaməsinə qədər çıxır. Məsələn, "Media haqqında" qanunda yazılır ki, Azərbaycan Respublikasının hər bir vətəndaşı qəzet təsis edə, naşir ola bilər. Həmin bənd AXC Nizamnaməsində də var idi.

"İstiqlal" qəzetinin 1918-ci ildə 7, 1919-cu ildə 28, 1920-ci illərdə isə 15 sayı işıq üzü görüb. M.Ə.Rəsulzadə, Seyid Hüseyn, Mirzə Bala Məhəmmədzadə, Ə.Həmdizadə, Ümmugülsüm, Əhməd Cavad, Əli Yusif, Cəfər Cabbarlı, Məhəmmədəli Rəsulzadə kimi dövrün qüdrətli qələm əhli "İstiqlal"ın əsas yaradıcı sütunlarını təşkil edirdi.

**– Milli mətbuatda calanma həm də o dövr ictimai-siyasi xadimlərinin əksəriyyətinin jurnalist olması sayəsində yaranmışdı. Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Ceyhun və Üzeyir Hacıbəyli qardaşları, Şəfi bəy Rüstəmbəyli, Həsən bəy Ağayev və başqaları əsl mətbuat fədailəri idi. 1937-ci ildə repressiya qurbanı olmuş publisist Xəlil İbrahim də həmin sıradandır. Ancaq onun haqqında bilgilərimiz yetərli deyil.**

– Doğrudur. Aparıcı sütunları adları çəkilən və çəkilməyən şəxsiyyətlər olan demokratik yönümlü mətbuat orqanları xalqı narahat edən problemlərə həssas yanaşır, həllini gözləyən məsələlərə toxunur, azadlıq, istiqlalçılıq, türkçülük ideyalarını təbliğ edir və bir növ siyasi maarifçilik işi aparırdı. "Açıq söz" qəzeti 1918-ci ilin 4 yanvar tarixli sayında ilk dəfə olaraq cümhuriyyətçilik fikrini ortaya qoyaraq, qurulacaq dövlətin ideoloji təməl prinsiplərini açıqladı: "Türkləşmək, islamlaşmaq, müasirləşmək" şüarını müdafiə edirik..."

Çeşidli mətbu orqanlar arasında daha geniş oxucu auditoriyasına Azərbaycan Cümhuriyyətinin fəaliyyəti ilə bağlı nəşrlər malik idi. Çünki bu tip mətbu orqanlar zəngin tarixi ənənələrə, özündən əvvəlki milli mətbuat nümunələrinə əsaslanırdılar.

Sizin xatırlatdığınız Xəlil İbrahim "Azərbaycan" qəzetinin rus dilində nəşrinin redaktoru, tənqidçi, teatrşünas və tərcüməçi idi. Çiynində daha çox yükü daşıyan, cəfakeş maarifçi olub. Bu günlərdə mənim tərtibatımda onun məqalələrindən ibarət olan yeni bir kitab ictimaiyyətə təqdim edildi. Kitabın adı "İstiqlal yazıları"dır. Ona görə ki, burada tamamilə istiqlala, müstəqilliyimizə yönəlmiş yazılar var. Bunlar Xəlil İbrahimin "Azərbaycan", "Açıq söz", "İqbal", "Kommunist" qəzetlərində çap olunmuş məqalələridir. Onun "Kommunist" qəzetində Şuşaya, bu əzəli yurdumuzun milliləşməsi yönündə aparılacaq islahatlara dair yazıları da var.

Həmin dövr Azərbaycanda çox mürəkkəb siyasi təbəddülatlarla xarakterizə olunur. Bir tərəfdən Stepan Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Sovetinin "Qızıl Qvardiyası" yaranmış şəraitdən istifadə edərək Bakı, Quba, Şamaxı, Salyan, Kürdəmir kimi şəhər və qəsəbələri dağıdıb viran qoyaraq Gəncəyə doğru hərəkət edir, digər tərəfdən isə Zəngəzuru işğal edib Qarabağa hücum edən Andranik də Gəncəyə hücuma hazırlaşırdı.

Qarabağın azad olunması, Azərbaycan və Türkiyənin milli hərbi qüvvələrinin, çoxsaylı könüllülərinin qatıldığı Qafqaz İslam Ordusunun Gəncədən başlayan ilk hərəkatı barədə də Xəlil İbrahim yazıb. Qarabağda ermənilərin silahlanması, Azərbaycan əhalisinə qarşı törədilən soyqırımıları ilə bağlı onun yazıları diqqət çəkir. Şuşa təmizlənəndə Bakıya gəlib siyahı əsasında onları tapır, qayıqlara mindirib gətirirdilər İsmailiyə mehmanxanasına. Orada onların libaslarını dəyişirdirərək, saxta pasport düzəldir və Astaradan, İran üzərindən keçirirdilər Türkiyəyə. Bizimkilər də onlara hər cür yardımçı olurdular. Yəni bu, qardaş köməyi idi. Türkiyə–Azərbaycan münasibətlərində bu köklər də var. Qürur duyulası tarixidr.

**– Həmin dövrün mətbuatında 31 mart soyqırımı necə əksini tapıb?**

– Mənim 15 il bundan əvvəl çap etdirdiyim kiçikhəcmli bir kitabımda 31 Mart soyqırımı ilə bağlı hadisələrdən danışılır. Xəlil İbrahimin də bir neçə məqaləsi orada yer alır. O, həyəcanlı şəkildə soyqırımını anladıb və "Birlik tələb olunur, birləşəyin", – deyə haray çəkib. Eyni zamanda, əhalini şayiələrə uymamağa, təmkinli olmağa səsləyib. Martın 18-i gecə 46 nəfər müsəlman əsgəri ilə Qırmızı Qvardiya arasında baş vermiş hadisədən dolayı şəhərdə böyük həyəcan yarananda "Vətəndaşlar, rahat və sakit olunuz", – deyə əhaliyə müraciət edib. Azərbaycanın istiqlalı uğrunda təmkinli şəkildə mübarizə aparmağa səsləyib.



Xəlil İbrahim özü də orada idi və tarixi hadisəyə biganə qala bilməzdi.

Oktyabr ayının 6-da həmin əməliyyata başlanıldı və ayın sonunda uğurla yekunlaşdı. Həmin vaxt Xəlil İbrahimin "Azərbaycan" qəzetində 4 yazısı çap olunub ki, hamısını həmin kitaba daxil etmişəm. O yazılarda xeyli maraqlı faktlar var… Şuşanın giriş qapısında tağlar yaradılır. Qafqaz İslam Ordusu həmin şərəf tağlarının içərisindən keçir. Ermənilər də silahlarını təhvil verib bu keçidi izləyirlər. Sanki Vətən müharibəsində 44 günlük Zəfər Yürüşümüzün başqa bir variantı 1918-ci ildə yaşanıb. Qafqaz İslam Ordusu hərəkatı, Türkiyə və Azərbaycanın milli qüvvələrinin birliyi qürur yaradır.

**– Akif müəllim, istiqlal dövrü mətbuatından da göründüyü kimi, Azərbaycan və Türkiyə tarixin bir çox dönəmlərində birlikdə olublar. Bildiyimiz qədərincə, Çanaqqala və Sarıqamış döyüşlərində bizim soydaşlarımız da yaxından iştirak edib və şəhid olublar.**

– Elədir ki, var. Mən bu barədə "Sarıqamış əsirlərinin dramı" kitabında yazmışam. Balkan əməliyyatı başlayanda azərbaycanlılar ora gedib Qafqaz könüllüləri birlikləri yaratmışdılar. Çanaqqaladakı məzarlıqlara baxdıqda görürük ki, ora Təbriz, Gəncə, Tiflis və Azərbaycanın müxtəlif bölgələrinin adları qeyd olunub. Fakt budur. Bu, əsl qardaşlıq yardımlaşması idi…

"Nargin adasında türk əsgərləri" kitabımda yazmışam ki, Birinci Dünya savaşında Qafqaz cəbhəsində əsir götürülən türkləri Nargin adasına gətirirdilər. Oradakı əsir barakları indi də qalır. Türkiyədən TRT, NTV kimi kanallar gəlib film çəkiblər. Mən də o filmlərdə iştirak edib faktlar açıqlamışam. Qafqaz cəbhəsində əsir götürülən əsgər və zabitlər Türk Ordusu üçün əhəmiyyətli olduğuna görə İstanbulda və yaxud Bakıda olan müəyyən milli-mədəni mərkəzi qurumlar onları arayıb-axtarırdılar. Deyirdilər ki, bəs, bizim ordumuzdan filan yüzbaşımız, minbaşımız Nargin adasındadır.

31 Mart soyqırımı həm də Azərbaycan mətbuatının soyqırımı idi. Anadilli mətbuat orqanlarımızın ən sonuncu nömrəsi 1918-ci ilin 30 martında çıxıb. Ondan sonra düz 5 ay yarım – sentyabr 15-nə, Bakı işğaldan azad olunana qədər Azərbaycan dilində milli məfkurəyə xidmət edən qəzet nəşr olunmayıb. Yeganə "Hümmət" qəzeti olub. O qəzetdə Nəriman Nərimanovun Şaumyana çox sərt cavabları, Daşnaksütyun partiyasına ittihamları var. Anadilli nəşrlər tədricən bərpa edilib.

**– Araşdırmaları davam etdirirsinizmi?**

– Bildiyiniz kimi, mən həm də "Şərq" qəzetinin təsisçisi və baş redaktoruyam. Gündəlik qəzet nəşr etmək vaxt tələb edir. Rəqəmsal jurnalistikaya keçid prosesi sürətlə gedir. O baxımdan çalışırıq ki, işin ahəngini pozmayaq. Eyni zamanda, saytımız aktiv şəkildə fəaliyyətini davam etdirir. YouTube kanalımız da var. Yalnız həftəsonu çalışıram ki, mətbuatımızın tarixi örnəklərinə nəzər yetirim. Cümhuriyyət dövründə informasiya siyasəti və informasiya təhlükəsizliyi ilə bağlı araşdırmalara başlamışam. Maraqlıdır ki, cümhuriyyət dövründə informasiya siyasəti necə olub. Deməli, Azərbaycan milli hakimiyyətinin tərkibində Mətbuat bürosu var idi. Fəaliyyəti işıqlandırılmayıb. Büroya müxtəlif materiallar gəlirdi, onların nə dərəcədə həqiqətə uyğun olması, hansı siyası qüvvənin maraqlarına xidmət etməsi barədə qeydlər edilirdi. Bax, həmin qeydlər əsasında cümhuriyyət dövründə informasiya təhlükəsizliyi mövzusunun üzərində işləyirəm. Araşdırmaları sistemləşdirib çapa verəcəyəm.

**– Maraqlı müsahibə üçün sağ olun.**

***Qələmə aldı:***
***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***

## Parisdə AXC qurucuları yad edilib



**28 May – Müstəqillik Günü münasibətilə Azərbaycanın Fransadakı səfirliyinin və UNESCO yanında daimi nümayəndəliyinin diplomatları Sən-Klu qəbiristanlığında dəfn olunmuş Cümhuriyyət qurucularının xatirəsini yad ediblər.**

Parisdəki diplomatlarımız Paris Sülh Konfransına qatılmış, sonradan Vətənə qayıda bilməyən Cümhuriyyət qurucularının məzarlarını ziyarət ediblər.

Səfir Leyla Abdullayeva və daimi nümayəndə Elman Abdullayev Xalq Cümhuriyyəti parlamentinin, eləcə də Paris Sülh Konfransına qatılmış nümayəndə heyətinin sədri Əlimərdan bəy Topçubaşov, milli hökumətin rəsmi qəzeti "Azərbaycan"nın naşiri, məşhur bəstəkar Üzeyir Hacıbəylinin qardaşı və nümayəndə heyətinin üzvü Ceyhun Hacıbəylinin məzarları üzərinə əklil qoyublar. Qeyd olunub ki, 1918-ci ildə Azərbaycanın müstəqilliyi elan edildikdən sonra Xalq Cümhuriyyətinin qurucularının əsas məqsədi bu gənc demokratik ölkəni dünyaya tanıtmaq olub.

## Rumıniya agentliyi Müstəqillik Günündən yazıb

**Rumıniyanın "AGERPRES" milli xəbər agentliyi Azərbaycanın Rumıniyadakı səfiri Hüseyn Nəcəfovun "Azərbaycan xalqı 28 May – Müstəqillik Gününü qeyd edir" sərlövhəli məqaləsini dərc edib.**




Məqalədə Azərbaycanın müsəlman Şərqində ilk demokratik respublika (1918-1920) olduğu vurğulanıb. Qeyd edilib ki, 1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş verib, Şərqdə ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulub.

Yazıda Cümhuriyyət dövründə parlamentin, milli ordunun və ölkənin xarici siyasəti, Paris Sülh Konfransında Azərbaycanın dünya birliyi tərəfindən de-fakto tanınması, həmin dövrdə demokratiya prinsiplərinə və insanların bərabərliyinə əsaslanan hüquqların təmin edilməsindən də söz açılır.

Məqalədə, həmçinin 1993-cü ildə Heydər Əliyevin rəhbərliyi ilə ölkədə siyasi və iqtisadi sabitliyin bərqərar olunması, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə siyasi, iqtisadi və sosial islahatların davam etdirilərək genişləndiyi də diqqətə çatdırılıb.

***Qəzənfər QASIMOV,***
***"Xalq qəzeti"***

## Teymur Əhmədov adına "AzNar" QSC səhmdarlarının nəzərinə!

12 iyul 2023-cü il saat 14.00-da Göyçay şəhəri, Natəvan küçəsi 120 nömrəli ünvanda Teymur Əhmədov adına "AzNar" QSC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. "AzNar" QSC-nin 2022-ci il üçün illik maliyyə hesabatlarının müzakirəsi və təsdiqi.
2. "AzNar" QSC-nin 2022-ci maliyyə-təsərrüfat ilinin yekunlarına görə dividendlərin elan edilməsi və ödənilməsi.
3. "AzNar" QSC-nin direktorlar şurası barədə.
4. "AzNar" QSC-nin yeni redaksiyada nizamnaməsi.
5. "AzNar" QSC-nin restrukturizasiyası, yeni törəmə cəmiyyətlərinin və təsərrüfat subyektlərinin yaradılması ilə bağlı təşkilati-hüquqi məsələlər.

Cəmiyyətin bütün səhmdarlarına izah olunur ki, səhmdarlar ümumi yığıncağın çağırılmasına 30 (otuz) gün qalmış gündəliyin layihəsinə aid təkliflər vermək və ümumi yığıncağa 15 (on beş) gün qalmış gündəliyə daxil edilmiş bütün məsələlər üzrə müvafiq sənədlərlə AZ2300, Göyçay şəhəri, Natəvan küçəsi 120 nömrəli ünvanda yerləşən cəmiyyətin inzibati binasında tanış ola bilərlər.

Ümumi yığıncağa gələn səhmdarlar şəxsiyyəti təsdiqləyən sənəd, səhmdarların nümayəndələri isə şəxsiyyətini və nümayəndənin səlahiyyətini təsdiq edən etibarnamə təqdim etməlidir.

Əlaqə telefonu – (+9942027) 4-05-17.

Ünvan – AZ2300, Göyçay şəhəri, Natəvan küçəsi 120.

# Güney Azərbaycanda milli kitabların "soyqırımı"

**Güney Azərbaycanda 1946-cı il dekabr ayının 17-də baş verən mədəni soyqırım "yandırılmış kitablar günü" adı ilə xatırlanır. Dünya elmi infarmasiya dövriyyəsində, eləcə də sosial və kulturoloji dairələrdə çox az xatırlanan bu hadisəni təhlil etməyə ehtiyac var.**

İran şahlıq rejiminin (Pəhləvilər sülaləsi) təzyiqindən və səriştəsizliyindən boğaza yığılmış xalq milli hakimiyyətini təsis etdi və milli dəyərlər çərçivəsində həyatını qurmağa başladı. İkinci Dünya muhaibəsinin nəticələri ilə dünyada və bölgədə daha da demokratikləşmə ümidində olan xalq 1946-cı ildə İran şah rejiminin hərbi hücumuna məruz qaldı. Qısa müddətdə minlərlə insan öldürüldü, on minlərlə soydaşımız ölkədən mühacirət etdi, bir o qədəri də sürgün edildi. Bu barədə tarixi sənədlərdə çox sayda məlumat verilir.



Lakin 1946-cı il dekabr ayının 17-də, Azərbaycanda demokratik dövlət quruluşunun dagıdılmasından 4 gün sonra İran rəsmi dairələri kütləvi şəkildə kitab məhsullarının yandırılması aktları keçirməyə başladı. Azərbaycan dilində bütün növ kitablar, bədii ədəbiyyat, məktəb dərslikləri, mətbuat nümunələri, üzərində Azərbaycan dilində yazılmış hər bir kağız, sənəd yandırıldı. Bu işi rəsmi dövlət orqanları nəinki gizli etmirdi, hətda kütləvi tədbirlər keçirilirdi, məktəblərdə kiçik yaşlı uşaqları öz ana dilində olan kitablarını gətirmək və kütləvi mərasimlərdə yandırmaga məcbur edirdilər.

Azərbaycanda kitabların yandırılması zamanı türk mətbəələrinə də hücum edildi. Nümunə üçün göstərək ki, Ərdəbildəki Jodət Çap Evi ordu və şah ordusu tərəfindən talan edildi və yandırıldı."Atəş" qəzeti yazirdı: " Bəzi insanlar polisə hücum edərək polisləri, digər bir neçə qurbanlarla birlikdə öldürdülər və Sarı İsmayılı və Ustad Vəli Salmanini də eyni gündə qətlə yetirdilər. Sonra Jodətin mətbəəsini yandırdılar və Şahbazini də tutub öldürdülər".

26 yaşında "dünyanın siyasi qüvvələri"nin hakimiyyətə gətirdiyi İran şahı Məhəmməd Rza Pəhləvi Cənubi Azərbaycanda milli azadlıq hərəkatını "qanla bogmaq" istəyini kitabların kütləvi soyqırımı ilə davam etdirdi. Bu vandallıq milli-mədəni soyqırım aktı olaraq həyata keçirildi. Növbəti addım olaraq milli dildə danışmaq qadağan edildi, milli kimliyin aşağılanması və təhqir olunması təşviq edildi, milli "ad", toponim, poeziya, folklor, musiqi qadagan olunmağa başlandı.

Paris sülh konfransına ünvanlanmış "Yandırılan kitablar" şerini Azərbaycanın xalq şairi Səməd Vurğun Cənubi Azərbaycanda baş vermiş "kitab genosidinə" həsr etdiyi zaman dünyanın "güc mərkəzləri" dünya sərhədlərinin bölüşdürülməsi ilə məşğul idi. Şair irticaya mürəciətlə deyirdi:

*Cəllad! Sənin qalaq-qalaq*
*yandırdığın kitablar,*
*Min kamalın şöhrətidir,*
*min ürəyin arzusu...*
*Biz köçürük bu dünyadan,*
*onlar qalır yadigar,*
*Hər vərəqə nəqş olunmuş*
*neçə insan duyğusu,*
*Min kamalın şöhrətidir,*
*iki ürəyin arzusu...*

Lakin yandırılan kitabların çox sayda nüsxələri Vətənin fədakar övladları tərəfindən düşmən nəzərlərdən qorunub saxlandı. Kimi onları həyətdəki qızılgül kollarının dibində basdırdı, kimi gündəlik paltarının arasında saxladı, kimi anbarda odun laylarında, kimi kömür çəlləklərində, kimi zirzəmidə, kimi də divar hörgüsündə gizlətdi.

Bu hadisələr IV əsrin birinci yarısında, Roma impertoru Konstantinin xristianlıqda etdiyi islahatdan sonda "Bibliya" nüsxələrinin qorunmasını xatırladır. Lakin, o zaman kitablar "milli mənsubiyyətinə" görə təqib olunmamışdı. Qin Shi Huang isə eramızdan əvvəl 221-ci ildə kitabların kütləvi yandırılması ilə yadda qalıb. Çin hökmdarı yalnız Kanfusiçilərin kitablarını yandırırdı və öz düşüncəsində ideoloji mübarizə aparırdı. Daha sonra katolik və pravoslav kilsələrinin, yəhudilik və buddizmin rəhbərləri də bu üsula əl atıblar. Kilsələrin kitaba olan müxalifəti yalnız ideoloji olaraq qiymətləndirilə bilər. Çünki, Vatikan kitabxanasında milli xüsusiyyətlərlə kitablar repressiyaya məruz qalmamışdır və bir sıra kitabların hətta oxunması mümkün olmadığı halda kitabxanada saxlanmışdır.

Kitaba barbar münasibətin ən bariz nümunəsi mədəni və müasir Avropada – 1934-cü ildə Berlində Opera meydanında nasistlər tərəfindən kitabların yandırılmasıdır. Nasist Almaniyasının hakimiyyət orqanları nasional-sosializm ideologiyasına uyğun gəlməyən kitabları nümayişkaranə şəkildə yandırmaq kampaniyası həyata keçiriblər. Yanğınların icraçısı Almaniya Tələbə İttifaqı olub. Aksiya zamanı tələbələr, professorlar və nasist partiyasının yerli liderləri Almaniyanın 70 şəhərində on minlərlə kitabı kütləvi şəkildə yandırıblar. Bu hadisənin təhlili də göstərir ki, nasistlər kitabı milli mənsubiyyətinə görə deyil, ideoloji xüsusiyyətinə görə seçirdilər və milli olaraq bir başa özlərinə aid olan kitabları yandırırdılar.

1992–1993-cü illərdə Azərbaycanın Qarabağ bölgəsinin işğalı zamanı erməni vandalları tərəfindən ilk öncə 9 Mərkəzləşdirilmiş Kitabxana Sistemi, 927 kitabxana, o cümlədən, Şuşada 32 kitabxana, bu kitabxanalarda saxlanılan unikal, qədim kitablar, Kəlbəcərdə 120 kitabxana, Füzulidə 90 kitabxana, Cəbrayılda 31 kitabxana, Zəngilanda 70 kitabxana, Ağdərədə 65 kitabxana, Laçında 119 kitabxana, Qubadlıda 85 kitabxana, Xocalıda 69 kitabxana, Ağdamda 107 kitabxana və burada toplanmış 4,6 milyon kitab və misilsiz əlyazma nümunələri məhz milli mənsubiyyətinə görə yandırılaraq məhv edilmişdir.

Erməni faşistləri ilə İran fars şovinistlərini din ayrı qardaşlara çevirən amillərdən biri də məhz bi mədəni vandalizmdir. Lakin tarix bu vandalizmi nəinki lənətləyir, həm də onun əvəzini çıxır. Zaman gəlir ki, yandırılan kitablar yenidən canlanır. Göyərir. Nəşr edilib yayılır.

Xatırladaq ki, İran Pəhləvi rejiminin kitab soyqırımından 35 il sonra orta məktəblərin ilk beş sinfində tədris olunmaq üçün vaxtilə çap edilmiş dərsliklərdən "Ana dili" kitablarını görkəmli ədibiyyat xadimi Məmmədəli Fərzanə Tehran şəhərində yenidən çap etdirdi. Buna baxmayaraq, yenə də Azərbaycan məktəbliləri "Ana dili" dərsliklərini ala bilmədilər və ana dili dərslərinə edilmiş "faşist qadağaları" ölkədə davam etdirildi.

Bu hadisələrin mahiyyəti dəhşətli olduğu halda "mədəni dünya"nın düşüncə adamları heç bir reaksiya vermədilər və bu hadisələr sonrakı illərdə dünyanın digər kitab repressiyaları ilə eyniləşdirildi.

***Pərviz KAZIMİ,***
***Bakı Dövlət Universitetinin dosenti, tarix üzrə fəlsəfə doktoru***

**İkinci Dünya müharibəsi illərində bir qrup Azərbaycan yazıçısı sovet qoşunlarının tərkibində İranda fəaliyyət göstərib. Onların arasında Xalq şairi Süleyman Rüstəm də olub. Şairin İran xatirələrindən günümüzlə səsləşən bir maraqlı epizodu oxucularımıza təqdim edirik:**

## Təbrizli "inqilabçı" jurnalist





Oktyabr inqilabının ildönümü günü 7 noyabrdı. İran torpağında olan sovet adamları bu günü böyük iftixar hissiylə, faşizm üzərində qəti qələbəyə inamla qarşılayırdı. Mən mehmanxanadaydım. Birdən Təbrizin baş küçəsindən uğultular, gurultular qopdu. Balkona çıxdım. Atları addım-addım, ağır-ağır gedən bir fayton nəzərimə çarpdı. Faytonun dalınca yüzlərlə adam "urra" deyə bağırırdı. Faytondan əhalinin üzərinə vərəqlər göyərçinsayağı uçurdu.

Bu nə işdir, nə olmuşdu? Mənə elə gəldi ki, təbrizlilər 7 noyabr gününü qarşılayır. Faytonun içindəki adam mənə çox tanış gəldi. Bəli, bu "Şahin" qəzetinin sahibi Ağazadə idi. Bu şəxs yel hayana əsdi, o yana əsən adamdı. O həmişə deyirdi: "Baba, bu yaşda mənim dağa-daşa düşüb inqilabçılıq eləməyə iqtidarım yoxdur. Nə bilim... Siz burda qalacaqsınız, yoxsa gedəcəksiniz. Əgər qəti burada qalacaqsınızsa mən kəfən taxıb sizdən də betər inqilabçılığa hazıram. Yox, gedəcəksinizsə, mənlə işiniz olmasın..."

Bu qorxaq, liberal bir adamdı, biz bir növ ilə onunla dil tapıb qəzetində ziyanlı materialların çıxmamasına çalışırdıq. İndi budur, Ağazadənin dalınca baş küçədən insan seli axır. Mən dərhal mehmanxanada yaşayan yuxarı rütbəli yoldaşları bu işdən xəbərdar etmək istədim. Təəssüf ki, onlardan heç birini tapa bilmədim.

Yoldaşların hamısı şəhərdən bir az kənarda hərbi hissədə 7 noyabr təntənəsini keçirməyə getmişdilər. Mehmanxanada bir yoldaş tapdım (bu adam hazırda Azərbaycan Dövlət Universitetindədir). Maşına minib Gülüstan bağına gəldik. Vərəqələrdən birini alıb oxuduq. Farsca yaxşı bilmədiyimizə baxmayaraq vərəqədəki mətləbi başa düşdük. Vərəqədə deyilirdi ki, "Şirindilli şirazlılar sizə peyam göndərir. Onların səsinə səs verməliyik və ilaxır..."

Bu vərəqəni Ağazadə özü tərtib etmişdi. Gülüstan bağının qabağında faytonun sürücüsü oturan yerinə qalxıb əsasını hərlədərək Ağazadə nitq söyləyirdi. Əlbəttə, bu nitqin Oktyabr inqilabının ildönümünə heç dəxli yoxdu. Nitq Təbrizdəki hökumətin başçılarının ünvanına söyüşdən ibarətdi. Əhali isə "urra" deyib Gülüstan bağına axışdı. Ağazadə əsasını şahın heykəlinə doğru uzadıb "Məhv olsun Pəhləvi xanədanı" deyirdi.

Bu sözlərdən sonra kimi Rza şah Pəhləvinin heykəlinə tüpürür, kimi heykəli daşa basır, uşaqlar isə heykəlin başına dırmanırdılar. Bu dəmdə Gülüstan bağında yaşayan həkimlərdən bir neçəsi bizim köməyimizə gəldi. Əhalini sakit etdik. Ağazadəni və bir dostunu maşına mindirib "Firdovsi" mehmanxansındakı nömrəmizə gətirdik. Otağa çay gətirdilər. Ortaya nərd gəldi.

Ağazadə ağzıköpüklü ona mane olduğumuzdan narazılığını bildirirdi. "Baba, niyə qoymursunuz ki, inqilabçı öz inqilabçılığını eləsin", – deyə bizi töhmətləndirirdi. Biz çox yaxşı bilirdik ki, Ağazadə "Tudə"də yoxdur. Qəti bir məslək sahibi də deyil. Onun bu hərəkətlərinin xalqa, vətənə bir xeyri yox idi.

"Haradan bildiniz ki, vərəqədə mən nə yazmışam?!"

Onu başa saldıq ki, farsca bilməsək də, ayrılıqda bir çox sözün mənasını başa düşürük. Ağazadə yaman həyəcan keçirird:

– Baba, olmaya məni həbs etmisiniz?

– Xeyr, ağayi Ağazadə, bizim İran vətəndaşları ilə işimiz yoxdur. Onları həbs etməyə səlahiyyətimiz də yoxdur. Siz bizim qonağımızsınız. Buyurun, çay için, meyvə yeyin... Nərd oynayın. Bir qədər də söhbət edək.

– Xub, elə olsun.

O yenə də bizə şübhəli nəzərlərlə baxırdı. Hadisədən iki saat sonra Təbriz ağsaqqallarından bir neçəsi yanımıza gəldi. Əli Birəng də onların arasındaydı. Ağazadəni nərd oynayan gördükdə, sevindilər. Onlara xəbər çatıbmış ki, şurəvilər Ağazadəni həbs ediblər.

Onlar da söhbətə girişdilər. Şəhərdə artıq sakitlikdi. Lakin mehmanxana ətrafında bəzi nigaran adam görünürdü.

Ağazadəni və onun ardınca gələnləri opera teatrımızın tamaşasına apardıq. Bütün salonun gözü bizim oturduğumuz lojada idi. Şəhərə yayılan şayiə bununla yuyulub getdi. Qonaqları maşınlarda evlərinə yola saldıq. Bu hadisə haqqında isə mənimlə olan yoldaşla birlikdə yazılı surətdə izahat yazdıq. Ağazadənin "inqilabı" bu yolla yatırıldı.

Ağazadənin səsini sonra bir dəfə radio vasitəsilə eşitdim. Tehran qoşunları Cənubi Azərbaycandakı azadlıq hərəkatını boğmaq üçün Təbrizə gələndə, Ağazadə yenə fəaliyyətə keçmişdi.

Təbriz radiosu vasitəsilə cır səslə bağıraraq şah qoşunlarını təbrik edirdi. Cənubi azəri qardaşlarımız cəlladlar tərəfindən qətlə yetirilərkən Ağazadə radio vasitəsilə "Zindabad şah İran" – deyə bar-bar bağırırdı.

Doğrudan da, bu "dostum"un ürəyi dilindəydi.

***Süleyman RÜSTƏM,***
***Xalq şairi***

# Hökumə Billuri poeziyası "Xalq əmanəti"ndə

**Populyar "Xalq əmanəti" layihəsinin növbəti 23-cü nəşri o taylı-bu taylı Azərbaycanın görkəmli ədibi, Xalq şari, ədəbiyyatşünas və ictimai-siyasi xadim Hökumə Billurnin poetik yaradıcılığına həsr edilib. Xalq Bankın əsas binasında ölkənin ədəbi-mədəni və elmi ictimaiyyəti təmsilçilərinin iştirakı ilə yeni toplunun təqdimatı keçirildi.**

Mərasimin aparıcısı Azərbaycanda Ataürk Nərkəzinin rəhbəri, Milli Məclisin deputatı, akademik Nizami Cəfərov Xalq Bankın XX əsr Azərbaycan poeziyasının tanınmış nümayəndəsi Hökumə Billurinin yaradıcılığının seçmə nümunələrinin, xalqın mənəvi xəzinəsinəsi olaraq, "Xalq əmanəti" layihəsinə daxil etməsini təbii və ədalətli bir hadisə kimi dəyərləndirdi. Alim bildirdi ki, 1946-cı ildə Təbrizdə qurulmuş demokratik respublikanın ziyalı fəallarından olmuş gənc şairə Hökumə Billuri Milli Hökumətin süqutundan sonra yurdumuzun bu tayında siyasi mühacir həyatı yaşamasına baxmayaraq, yaradıcılığı və ictimai fəaliyyəti ilə ömrünün sonunadək Azərbaycanın azadlığı, xalqımızın mənəvi birliyi idealına xidmət edib.




Qeyd edildi ki, qadın şairlərimizin və alimlərimizin istedadlı nümayəndələrindən biri kimi tanınan Hökumə xanımın zəngin və rəngarəng yaradıcılığı ikiyə bölünmüş Azərbaycanın bəlalı taleyinin poetik tərcümanı olmuş, yurd sevgisi ilə aşılanmış və milli varlığımızı qoruyub yaşatmağa səsləmiş mübariz poeziyası, həqiqətən, söz xəzinəmizdə layiqli yer tutur. Anadilli ədəbiyatımızın güney və quzey qollarını təmsil etdiyindən, milli yaddaşın kövrək və ümidli səhifələrini təşkil etdiyindən Hökumə Billuri poeziyası rəmzi "Xalq əmanəti" bankına daxil edilməyə tamamilə layiqdir.

Təqdimat mərasimində çıxış edən Azərbaycan Yazıçılar Birliyinin katibi, yeni toplunun tərtibçisi və ön söz müəllifi Səlim Babullaoğlu, AMEA Ədəbiyyat İnstitutunun əməkdaşı Mehman Həsənli, yazıçı-publisist Seyfəddin Hüseynli, kitabın rəssamı Tərlan Qorçu Hökumə Billurinin həyat və fəaliyyətindəm milli poeziyamızdakı özünəməxsus mövqeyindən söz açdılar, onun yaradıcılığını əhatə edən samballı toplunun nəfis şəkildə "Xalq əmanəti" saxlancına daxil edilməsini poeziya həvəskarlarına, söz xiridarlarına qiymətli töhfə kimi dəyərləndirdilər. Natiqlər yeni nəşrin tədqiqatçılar üçün dəyərli mənbə olduğunu və "Xalq Əmanəti" layihəsinin milli irsin qorunmasında rolunu razılıqla vurğuladılar.

Mərasimdə bildirildi ki, Hökumə Billuri 1926-cı il martın 3-də Güney Azərbaycanın Zəncan şəhərində anadan olub. "Azəri" qızlar məktəbində orta təhsil alıb və orada müəllimlik edib. İctimai-siyasi fəaliyyətə II Dünya müharibəsi illərində Azərbaycan Demokrat Partiyası Zəncan Vilayət Komitəsində başlayıb, Milli Hökumətin fəal təbliğatçılarından olub. Demokratik Respublikanın süqutundan sonra amansız repressiyadan yaxa qurtarıb Arazın bu tayına pənah gətirib. Bakıda ali filoloji və siyasi təhsil alıb. "İran Azərbaycanının realist-demokratik ədəbiyyatı" mövzusunda dissertasiya müdafiə edib. "Azərnəşr"də ədəbi-bədii şöbənin redaktoru, Güney mühacirlərinin "Azərbaycan" qəzetinin baş redaktoru, AMEA Şərqşünaslıq İnstitutunun baş elmi işçisi olub.

Poetik yaradıcılığa hələ orta məktəb illərində başlamış Billurinin ilk şeir və məqalələri 1945-ci ildə "Azər" və "Vətən yolunda" qəzetlərində, "Azərbaycan" jurnalında, dərc olunub. "Mənim arzum", "Ölməz qəhrəman", "Həyat yollarında", "Mübarizə illərində", "Şeirlər", "Şairin yadigarı", "Səhər günəşi", "Səndən uzaqlarda, "İstərəm", "Necə unudum" , "Çinar gözləyir məni" "Apar məni o yerlərə", Bir də bahar gəlsə", "Seçilmiş əsərlər" "Dünya belə dünyadır", "Nə qəribə dünya imiş" kimi çoxsaylı şeir kitablarının, "1940-1960: İran Azərbaycanında realist-demokratik poeziya" və "Məhəmmədhüseyn Şəhriyar" monoqrafiyalarının müəllifidir. Şeirləri xaricdə də nəşr edilib.

Hökumə Billuri mahir tərcüməçi kimi Məhəmmdəhüseyn Şəhriyarın farsca şeirlərini Azərbaycan dilinə, Cəfər Cabbarlı, Səməd Vurğun, Mirvarid Dilbazi və Nəbi Xəzrinin şeirlərini isə fars dilinə çevirib. 1984-cü ildə Hökumə Billuri Əməkdar incəsənət xadimi, 1998-ci ildə isə Xalq şairi fəxri adına layiq görülüb.




Kitabda Hökumə Billurinin poetik yaradıcılığı və ömür yoluna işıq salınır, oxuculara şairin əksər əsərləri təqdim edilir. Yeni nəşrdə ustad Şəhriyarın Billuriyə "Hökumə can" adlı şeirini əks etdirən nadir əlyazması da yer alıb.

Sonda şairənin qızı Elnaz Qəmbərli anasının vətən həsrətindən, bədii-elmi yaradıcılıqla yanaşı, ağır ailə qayğılarına cəfakeşliklə çiyin verməsindən danışdı, nadir nəşri ərsəyə gətirənlərə və iştirakçılara Hökumə xanımın övladları adından dərin minnətdarlığını bildirdi.

***Tahir AYDINOĞLU,***
***"Xalq qəzeti"***

# Azərbaycanın sərhədləri pozulmazdır

## Erməni təxribat-diversiya qrupunun 2 üzvünə cinayət işi açılıb

**Mayın 26-da Azərbaycan–Ermənistan dövlət sərhədinin Zəngilan rayonunun Rəzdərə kəndi ərazisindən keçən hissəsində Ermənistan silahlı qüvvələrinin təxribat-diversiya qrupu tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədinin pozulmasının qarşısı alınıb.**

Bu barədə Azərbaycan Respublikası Baş Prokurorluğu və Dövlət Sərhəd Xidməti birgə məlumatında bildirilir ki, sərhəd-döyüş məntəqəsində xidmətdə olan hərbi qulluqçularımızın sayıqlığı nəticəsində təxribat-diversiya qrupunun hərəkəti vaxtında aşkarlanaraq zəruri tədbirlər görülüb və nəticədə Ermənistan silahlı qüvvələrinin 2 hərbi qulluqçusu saxlanılıb.

Faktla bağlı Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq idarəsində aparılan araşdırma zamanı Ermənistan Respublikasının hərbi qulluqçuları – Hovakimyan Harut Yuriki, Qazaryan Karen Aşoti və qeyrilərinin qabaqcadan əlbir olan bir qrup şəxs qismində birləşərək mayın 26-da saat 16 radələrində Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini qanunsuz əldə edib özləri ilə daşıdıqları odlu silah və döyüş sursatları ilə birlikdə qanunsuz olaraq nəzarət-buraxılış məntəqələrindən və gömrük sərhədindən gömrük nəzarətindən kənar keçməklə respublikamızda ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud Azərbaycan Respublikasının dövlət hakimiyyət orqanları tərəfindən ərazi bütövlüyümüzün ziddinə qərar qəbul edilməsinə təsir göstərmək və milli düşmənçilik salmaq məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması üçün Zəngilan rayonu Rəzdərə kəndi ərazisində yerləşən və dövlət sərhədini mühafizə edən Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının N saylı hərbi hissəsinin hərbi qulluqçularına odlu silahla atəşlər açmaqla onlara qarşı zor tətbiq edib terror aktı törədəcəkləri ilə hədələmələrinə əsaslı şübhələr müəyyən edilib.

Qeyd olunanlarla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin 206.3.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən odlu silah və döyüş sursatının qaçaqmalçılığı), 214.2.1, 214.2.3 (terrorçuluq, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən odlu silahdan istifadə etməklə törədildikdə), 228.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qanunsuz olaraq odlu silah əldə etmə, daşıma, saxlama), 283.2.1 (zor tətbiq etməklə milli düşmənçiliyin salınmasına aşkar surətdə yönələn hərəkətlər etmə) və 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən zor tətbiq etməklə Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilib.

Toplanmış sübutlar əsasında Harut Hovakimyan və Karen Qazaryan şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub.

Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam edir.

İstintaqın gedişatı və nəticəsi barədə ictimaiyyətə ətraflı məlumatın verilməsi təmin ediləcək.

*

**Baş Prokurorluğun mətbuat xidmətindən qəzetimizə verilən məlumatda bildirilir ki, Ermənistan silahlı qüvvələrinin təxribat-diversiya qrupu bu il mayın 26-da Azərbaycan–Ermənistan dövlət sərhədinin Zəngilan rayonunun Rəzdərə kəndi ərazisindən keçən hissəsində Azərbaycan Respublikasının dövlət sərhədinin pozmuş və digər qanunsuz hərəkətlər törətmişdir.**

Bununla bağlı Baş Prokurorluqda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Baş Prokurorluğun İstintaq idarəsində istintaq edilən cinayət işi üzrə Ermənistan silahlı qüvvələrinin 2 hərbi qulluqçusu – Hovakimyan Harut Yuriki və Qazaryan Karen Aşoti təqsirləndirilən şəxs qismində cəlb edilib və məhkəmənin qərarı ilə barələrində həbs qətimkan tədbiri seçilib.

***Qəzənfər QASIMOV,***
***"Xalq qəzeti"***

# Mətbuat Şurasının heyəti "Neft Daşları"nda

**"Neft Daşları" qəzetinin 55 illiyi ilə bağlı bu ilin əvvəlində Azərbaycan Mətbuat Şurasında keçirilmiş toplantıda Şuranın İdarə Heyətinin üzvlərinin "Neft Daşları" qəsəbəsinə səfəri ilə bağlı təşəbbüs səslənmişdi. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti həmin təklifə həssas münasibət göstərib və səfər bu günlərdə gerçəkləşib.**



AMŞ İdarə Heyətinin üzvlərini dünyanın səkkizinci möcüzəsi sayılan qəsəbədə "Neft Daşları" Neft və Qazçıxarma İdarəsinin rəisi Asim Bağırov, müəssisəsinin rəhbər şəxsləri, "Neft Daşları" qəzetinin işçiləri qarşılayıblar. Qonaqlar əvvəlcə "Neft Daşları"nın keçmiş və indiki mənzərəsini əks etdirən fotostendlə və qəsəbənin məlumat lövhəsi ilə tanış olublar.

Ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etdikdən sonra jurnalistlərə ümummilli liderin şərəfinə yaradılmış muzeydə onun "Neft Daşları" ilə bağlılığını əks etdirən materiallar barədə məlumat verilib. Qəsəbə ilə tanışlığın davamında "Neft Daşları" yatağını kəşf etmiş geoloq Ağa Qurban Əliyevin abidəsi, Qarabağ uğrunda döyüşlərdə şəhid olmuş 17 neftçinin və Xəzərdə həyatını itirmiş neftçilərin xatirə kompleksləri ziyarət edilib. "Neft Daşları"nın 30 illiyi münasibətilə ucaldılmış Qəhrəman Neftçilər abidəsi, dünyada açıq dənizdə qazılmış ilk quyu ilə tanışlıq da "dəmir ada" barədə təəssüratı zənginləşdirib.

Heydər Əliyev muzeyində neftçilərlə keçirilən görüşdə "Neft Daşları"nın Azərbaycanın neft sənayesində oynadığı rol, neftçilərin fədakar əməyini salnamələşdirən "Neft Daşları" qəzetinin 55 illik fəaliyyəti diqqət mərkəzində oliub. Görüşdə, eyni zamanda, "Neft Daşları"nın təbliği ilə bağlı müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparılıb.

Ayrı-ayrı çıxışlarda səfərin təşkilinə göstərdiyi dəstəyə görə Dövlət Neft Şirkəti rəhbərliyinə təşəkkür ifadə olunub.

***"Xalq qəzeti"***

# Hərbi attaşelər Hərbi Dəniz Qüvvələrində



**Azərbaycan Respublikasında akkreditə olunmuş xarici ölkələrin hərbi attaşeləri Hərbi Dəniz Qüvvələrində (HDQ) olublar.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən redaksiyamıza bildirilib ki, qonaqlara əvvəlcə qərargah binasının akt zalında HDQ-nin tarixi və fəaliyyəti haqqında geniş brifinq təqdim edilib.

Daha sonra hərbi attaşelər döyüş gəmilərində şəxsi heyət üçün yaradılan şəraitlə tanış olub, matros yataqxanası, yeməkxana və digər obyektlərə baş çəkib, fəxri qonaqlar kitabına ürək sözlərini yazıblar.

***"Xalq qəzeti"***

# Tərtər rayonunda partlayış

**Mayın 27-də Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində təhlükəli əraziyə daxil olan tikinti şirkətinin əməkdaşının naməlum partladıcıya toxunması zamanı hadisə baş verib.**

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) mətbuat xidmətindən qəzetimizə bildirilib ki, partlayış hadisəsi nəticəsində 1986-cı il təvəllüdlü Əsgərov Məsim Həsən oğlu xəsarət alıb. O, xəstəxanaya yerləşdirilib, sol əlin 4 barmağının travmatik amputasiyası edilib. Həyatına təhlükə yoxdur.

ANAMA bir daha vətəndaşları təhlükəli ərazilərə daxil olmamağa, tanımadıqları əşyalara toxunmamağa çağırır.

***"Xalq qəzeti"***

# Azərbaycanın minatəmizləmə səyləri ilə bağlı beynəlxalq ictimaiyyətə çağırış




**Bu günlərdə "Mina təhlükəsi ilə mübarizə – dayanıqlı inkişafa gedən yol" mövzusunda ikinci beynəlxalq humanitar konfrans işini başa çatdırıb. Konfransın sonunda bəyannamə qəbul olunub. Sənəddə deyilir:**

"Dünyada hələ də 60-dan çox ölkə minalar və partlamamış hərbi sursatlarla (PHS) çirklənmiş olaraq qalmaqdadır ki, bu da insanların təhlükəsizliyi, sağlamlığı, rifahı, həyatı və gələcək nəsillərin yaşam imkanlarına təhdid törədir. Bundan ən çox təsirlənən həssas əhali arasında qadınlar və uşaqlar da yer alır.

Minalar və PHS onun təsirinə məruz qalan ölkə və cəmiyyətlər üçün milli və yerli səviyyədə Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyinə və Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olunması baxımından maneə təşkil edir.

Minasız dünyaya nail olunması naminə biz – "Mina təhlükəsi ilə mübarizə – dayanıqlı inkişafa gedən yol" mövzusunda keçirilən ikinci beynəlxalq konfransın iştirakçıları olaraq, mina təhlükəsi ilə qlobal mübarizə fəaliyyətlərini sürətləndirmək üçün aşağıdakıları vurğulamaqla qətiyyətli addımların atılmasında razılaşırıq:

Humanitar minatəmizləmə fəaliyyətinin minalarla çirklənmiş ölkələrdə davamlı inkişafın, DİM-lərə nail olunması istiqamətində irəliləyişin, sülh proseslərinin sürətləndirilməsinin və sülhün qorunmasının ilkin şərtlərindən biri olduğunu qəbul edərək;

"Piyada əleyhinə minaların istifadəsi, yığılması, istehsalı və ötürülməsinin qadağan edilməsi və onların məhv edilməsi haqqında Konvensiya" ("Ottava Konvensiyası") və "Kasetli sursatlar haqqında Konvensiya" ("Oslo Konvensiyası") da daxil olmaqla, minaların və PHS-nin istifadəsini tənzimləyən və ya qadağan edən mövcud beynəlxalq hüquqi sənədlərin prinsip və dəyərlərini qəbul edərək, eyni zamanda, hamını bu sənədlərə rəsmi riayət olunması istiqamətində addımlar atmağa təşviq edərək;

Qadınlar və uşaqların da daxil olduğu ən həssas təbəqələrə qeyri-mütənasib şəkildə təsir edən minaların və PHS-nin insanlara vurduğu zərəri xatırlayaraq;

Minalarla çirklənmiş ölkələrin sosial-iqtisadi inkişafı naminə prioritet sahələrdən biri kimi humanitar minatəmizləmə fəaliyyətinin milli inkişaf proqramlarına inteqrasiya olunmasının, habelə milli humanitar minatəmizləmə imkanlarının artırılması istiqamətində müvafiq resursların ayrılmasının əhəmiyyətini vurğulayaraq;

Milli Hökumətlərin rəhbərliyi altında humanitar minatəmizləmə fəaliyyətində vətəndaş cəmiyyətinin, özəl sektorun, medianın, təhsil müəssisələrinin və digər maraqlı tərəflərin mühüm rolunu tanıyaraq;

Humanitar minatəmizləmə fəaliyyəti üçün texnologiya və innovasiyalardan səmərəli istifadəni təşviq edərək;

Minasız dünyaya nail olmaq naminə qlobal həmrəyliyin təcəssümü olaraq və milli səylərin dəstəklənməsini də əhatə edən beynəlxalq tərəfdaşlıq və əməkdaşlığın gücləndirilməsi üzrə öhdəlikləri yeniləyərək;

Minaların təsirinə məruz qalmış bir sıra dövlətlər tərəfindən humanitar minatəmizləmə fəaliyyəti üzrə milli DİM-in müəyyən edilməsi təşəbbüslərini və humanitar minatəmizləmə fəaliyyəti üzrə yeni qlobal DİM-in qəbul edilməsinə olan çağırışları təqdir edərək;

Mövcud tərəfdaşlıqları gücləndirmək və yeni platformalar qurmaqla, mina və PHS təhlükəsinə son qoymaq, cəmiyyətləri bərpa prosesində dəstəkləmək və insanların ləyaqətli, təhlükəsiz və əmin-amanlıq içində öz evlərinə qayıtmasına və həyatlarını yenidən qurmasına kömək etmək naminə biz bir daha minasız dünya üçün yenilənmiş qlobal hərəkatın başlamasına çağırış edirik.

Biz Azərbaycan Respublikası Hökumətinə humanitar minatəmizləmə fəaliyyəti və dayanıqlı inkişaf məqsədlərini müzakirə etmək məqsədilə yaratdığı dəyərli fürsətə, səxavətli dəstəyə və əla qonaqpərvərliyinə görə minnətdarlığımızı bildiririk. Həmçinin böyük mina probleminin həllində Azərbaycanla və mina təsirinə məruz qalmış digər ölkələrlə həmrəy olduğumuzu ifadə edir və beynəlxalq ictimaiyyəti Azərbaycanın humanitar minatəmizləmə səylərini dəstəkləməyə çağırırıq".

***"Xalq qəzeti"***

# Göygöldə leysan, sel fəsadlar törədib

**Topalhəsənli kənd sakini Nəcəf Yusubov leysanın yaratdığı güclü selin əraziyə hücum çəkərək yaratdığı dəhşətdən işlədiyi çayxananın dağılması timsalında söz açdı:**



– Bu, sel deyildi, göydən yerə enən bir bəla idi. Qarşısına çıxan hər şeyi bürüb-büküb əzir, parçalayırdı. Mənim 57 yaşım var, hələ belə dəhşət görməmişdim. Məndən yaşlı insanlar da danışırlar ki, buna bənzər faciə Topalhəsənlidə 66 il qabaq, 1957-ci ildə olub.

– Bu dəfə hər şey birdən baş verdi. Axşam saat 8-ə işləyirdi. Selin qurbanı olan 2 nəfər də burada çay içirdi, söhbət edirdik. Özü də onları ilk dəfə idi ki, çayçıda görürdüm, təsadüfən gəlmişdilər. Birdən hay-küy qopdu. Tələsik hamımız bayıra qaçdıq. Baxdım ki, Kərəmli tərəfdən elə bir sel gəlir ki, onu sözlə ifadə etmək mümkün deyil. "Qaçın, sel gəlir",– deyə qışqırdım. Həmin 2 nəfər isə özünü itirdi, çaş-baş qaldılar, həyacanlandılar. Nə qədər desəm də yanlarındakı dəmir çərçivədən yapışa bilmədilər və sel onları apardı. İş yerimin bu vəziyyətə düşməsi məni o qədər ağrıtmır, onu yenidən quracağam. Amma 2 nəfərin həyatını geri qaytarmaq mümkün olmayacaq.

Göygöl Rayon İcra hakimiyyəti Topalhəsənli İƏD nümayəndəsi Cavid Əliyev isə hadisəni belə şərh etdi:

– Sel saat 8-ə 15 dəqiqə işləmiş kəndi ağuşuna alıb. Yuxarıda olan Aşağı Zurnabad, Kərəmli, Şəhriyar kəndləri tərəfdən gələn sel Topalhəsənlidə daha çox fəsad törədib. Bu yerlərdə istifadə olunmayan göllərin daşması bizi belə bir faciə ilə üzləşdirdi. Rayon



fövqalədə hallar komissiyasının üzvləri, bütün xidmət təşkilatlarının rəhbərləri, hüquq-mühafizə orqanlarının, mülki-müdafiə qərargahının işçiləri, məsul şəxslər dərhal hadisə yerinə gəldilər. Göygöl – Topalhəsənli magistral yolu bağlanmışdı, nəqliyyatın hərəkəti dayanmışdı. Çox keçmədi ki, yol təmizləndi, hərəkət bərpa olundu.

Öyrəndik ki, bir saata yaxın davam edən sel qaz, elektik dayaqlarına, yollara ciddi ziyan vurub. Operativ müdaxilə, kənd sakinlərinin fədakarlığı, daha çox ziyan çəkən evlərə, obyekt yiyələrinə, fərdi nəqliyyat sahiblərinə kömək nəticəsində vəziyyət nisbətən nizama salınıb. Bəzi yaşlı insanlara və uşaqlara psixoloji, mənəvi dəstək göstərilməsi, vəziyyətin tam nəzarət alınması üçün zəruri tədbirlər görülüb. Selin qurbanı olmuş 1954-cü ildə anadan olmuş Muxtar Hüseynovun və 22 yaşlı İbrahim Qurbanovun meyidləri sudan çıxarılaraq ailələrinə təhvil verilib.

Müvafiq komissiya adamlara və təsərrüfatlara dəymiş ziyanı dəqiqləşdirilir, əhaliyə yardımlar davam edir.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***
**Göygöl rayonu**

Film təqdimatı

# Baxın, gülün və düşünün...

## Bu sözləri tamaşaçıya “Həyat, deyəsən, gözəldir” filminin ssenari müəllifi və rejissoru Vaqif Mustafayev özü deyir



**YARAT Müasir İncəsənət Məkanı çoxdan idi belə premyera görməmişdi. Təqdimatına ölkənin tanınmış sənətkarlarının, rəsmilərinin, sahə mütəxəssislərinin, media mənsublarının, eləcə də kinomanların yığışdığı film iki il bundan əvvəl prokata hazır olsa da, geniş auditoriya onunla indi tanış olurdu. Söhbət 2022-ci ilin noyabrında Türkiyənin Bursa şəhərində keçirilən II Dədə Qorqud Türk dünyası film festivalında Xalq artisti, Dövlət mükafatı laureatı, kinorejissor Vaqif Mustafayevin “Həyat, deyəsən, gözəldir” bədii filmindən gedir. Həmin kinofestivalda filmin müəllifi “Türk dünyasının ən yaxşı rejissoru” mükafatına layiq görülüb. Münsiflər heyətinin, ümumilikdə, 13 ölkədən 42 film arasından məhz bu filmi seçməsi tam ədalətli olub.**



Premyeradan sonra – yeddi ay əvvəl Bursada münsiflərin gəldiyi qənaətin təsadüf olmadığını tam əminliklə söyləyə bilərik. Birinci Qarabağ müharibəsindən sonra lentə aldığı, qarşıdakı qələbəmizi müjdələyən “Fəryad”, “Hər şey yaxşılığa doğru” filmlərinin müəllifinin yeni ekran əsəri bir növ əvvəlkilərin məntiqi davamıdır. Zəfərimizlə başa çatan Vətən müharibəsindən bəhs edən, tragikomediya janrında lentə alınmış, üç dildə (azərbaycan, rus, erməni) səsləndirilmiş yeni “Həyat, deyəsən, gözəldir” filminin müəllifi Vaqif Mustafayev bunları bizə ilk baxışdan öncə söylədi: “Filmdə söhbət heç də bu və ya digər millətdən getmir. Motiv odur ki, bəzi neqativ qüvvələr o yazıq milləti hara aparır? Bədbəxtliyə doğru aparır. Onlara “Böyük Ermənistan” xəyalı, “Dənizdən-dənizə” qədər lazım idi? İnanın, bu filmi çəkəndə heç janrı düşünməmişəm. Həyatda necədirsə, filmdə də elədir”.



“Həyat, deyəsən, gözəldir” bədii filminin yaradıcı və texniki heyətini səhnəyə dəvət edən V.Mustafayev onların haqqında minnətdarlıq dolu ürək sözlərini dilə gətirdi və zəhməti keçmiş hər kəsə təşəkkürünü bildirdi. Əsas rollarda Hikmət Rəhimov, Sevinc Əliyeva, Nino Qomarteli, Dmitri Samxaradze, Giorgi Celiya və Aftandil Maxaradzenin çəkildiyi filmin rejissoru Orxan Abbasov, rəssamı Quram Navrozaşvili, geyim rəssamı Keti Kalandadze, bəstəkarı Tural Məmmədli, prodüseri isə Fariz Əhmədovdur.

Yeni ekran əsəri və onun müəllifi haqqında söz demək üçün səhnəyə qalxan Mədəniyyət Nazirliyinin Kinematoqrafiya şöbəsinin müdiri Rüfət Həsənov xalqın yaddaşında, mədəniyyət tarixində bu sahəyə rəhbərlik edən məmurların deyil, əsl sənətkarların qalacağını, kinorejissor Vaqif Mustafayevin də məhz belə ustadlardan biri olduğunu söylədi.

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti Şəfiqə Məmmədova bu il milli kinomuzla bağlı bütün tədbirlərin Heydər Əliyevin 100 illik yubileyinə həsr edildiyini xüsusi olaraq vurğuladı. İki il əvvəl ssenarisini oxuduğu ekran əsərinə indi ilk dəfə baxacağını deyən Ş.Məmmədova vaxtilə Moskvada dahi rejissor Eldar Ryazanovun kursunu bitirmiş V.Mustafayevin tragikomediyanın yeni, bənzərsiz çalarlarını milli kinomuza gətirən istedadlı rejissor olduğunu əminliklə ifadə etdi və ona yeni yaradıcılıq uğurları dilədi. Xalq artısti, kinorejissor Oqtay Mirqasımov V.Mustafayevin bugünədək qazandığı sənət uğurlarından söz açaraq, onu Azərbaycan kinosunda özünəməxsus dəst-xətti, yolu və yeri olan maestro saydığını fəxrlə vurğuladı.

“Bu film bədnam qonşularımızın, erməni cəmiyyətinin xəstə ruhunun bütün məziyyətlərini açıb göstərməyə xidmət edir”, – deyən Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Əlisəftər Hüseynov əsərin müəllifini milli kinematoqrafiyada yeni cığır açmış ustad adlandırdı.

…Sonra premyera başladı. Tragikomediya janrında çəkilmiş, sürrealist üslubun da boy verdiyi filmin tamaşaçının vətənpərvərlik duyğusunu coşduran, milli kimliyini qürurlandıran epizodları zalın alqışları ilə müşayiət olunur, yerlərdən “Bravo!” sədaları yüksəlirdi. Kifayət dərəcədə ideoloji yükə malik olmasına baxmayaraq, müəllif müharibənin acı gerçəkliyinə söykənən, hərdən seyrçi ilə qəhrəmanlarının bədən dilində danışan, metafora ilə süslənən, süjet boyu ironiya və gülüşün simbiozunu sərgiləyən ekran əsərinin finalında erməni qəhrəmanını işığa, Günəşə doğru aparır. Axı Günəş yalnız işiğın, istinin mənbəyi deyil, həm də hər şeyin yaxşılığa doğru dəyişəcəyinə ümidlərin, nikbinliyin, gözəlliyin rəmzidir. Deyəsən, həyat da məhz buna görə çox gözəldir…

**P.S.** Bursa kinofestivalında qəbul edilmiş yekdil qərara əsasən, III Dədə Qorqud Türk dünyası film festivalı 2023-cü ildə Türk Dünyasının Mədəniyyət Paytaxtı elan olunmuş Şuşa şəhərində keçiriləcək.

***İ.HƏSƏNQALA,***
***“Xalq qəzeti”***

**Cümhuriyyət dövrünün fədakar siyasi yazarlarından olmuş repressiya qurbanı Xəlil İbrahim irsi az araşdırılan tarixi şəxsiyyətlərdəndir. Bu mənada onun məqalələrindən ibarət “İstiqlal yazıları” kitabının işıq üzü görməsi təqdirəlayiqdir.**

# “İstiqlal yazıları” Xəlil İbrahim




Xəlil İbrahim dövrünün tanınmış publisisti olaraq bir sıra nəşrlərdə çalışıb. Xalq Cümhuriyyətinin rəsmi dövlət qəzeti olan “Azərbaycan”ın rus dilində nəşrinin redaktoru, tənqidçi, teatrşünas və tərcüməçi kimi çoxşaxəli fəaliyyət göstərib. “İqbal”, “Yeni iqbal”, “Açıq söz”, “Bəsirət”, “Azərbaycan”, “Kommunist” kimi rəsmi orqanlarda elm, təhsil, mədəniyyət və teatrın aktual məsələlərini qələmə alıb. Ən çox 1919–20-ci illərdə “Azərbaycan” qəzetində siyasi məqaləsi, reportajı, analitik yazıları dərc olunub. Elə oxuculara təqdim edilən “İstiqlal yazıları” kitabında, əsasən, həmin səpkili məqalələr yer alıb.

Azərbaycan Yazıçılar Birliyinin “Natəvan” klubunda kitabın təqdimat mərasimində Xəlil İbrahimin nəvəsi, ixtisasca mühəndis olan Lalə Nəcəfova ilə tanış olduq. Sevindirici haldır ki, varislər görkəmli şəxsiyyətlərin irsini qədirbilənliklə yaşadır və sistemli şəkildə öyrənilib təbliğ edilməsinə nail olurlar. Lalə xanım dedi ki, babasının irsi ilə daha çox onun övladları məşğul olublar. Hələ 1997-ci ildə qızı Güllər (Lalə xanımın anası) onun yazılarından ibarət “Daşdan keçən istiqlal” adlı kitab hazırlayaraq çap etdirmişdi. İndi isə “İstiqlal yazıları” qarşımızdadır. Bu kitabı isə digər qızı – iki ay əvvəl, 97 yaşında dünyasını dəyişmiş Solmaz xanım “Şərq” qəzetinin təsisçisi və baş redaktoru, tarix üzrə fəlsəfə doktoru Akif Aşırlının köməkliyi ilə hasilə yetirib və vəfatından öncə görə bilib. Xəlil İbrahimin bizə qədər gəlib çatan əlyazmalarını ailə „İstiqlal” muzeyinə verib. Onu da deyək ki, istiqlal yazarının oğlu mərhum Elxan onun yolu ilə gedərək tərcüməçi-jurnalist olub...

Təqdimat mərasimini filologiya elmləri doktoru, Əməkdar elm xadimi Tofiq Məlikli açaraq cümhuriyyət dövrünün fədaisi, peşəkar jurnalistikamızın təməlini qoyanlardan biri olan Xəlil İbrahim haqqında geniş məlumat verdi. Yeni kitabın tariximizin 1918–20-ci illər dövrü haqqında təsəvvürlərimizin daha da dolğunlaşmasına kömək edəcəyini vurğuladı. Qeyd olundu ki, X.İbrahim 1937-ci ilin payızında həbs edilib və dörd ay sonra Azərbaycan SSR Daxili İşlər Komissarlığının qərarı ilə “müsavatçı xalq düşməni” elan olunub. Əmlakı müsadirə edilən fədakar publisist 1938-ci il martın 18-də Nargin adasında güllələnib.

Kitabın tərtibçisi və ön sözün müəllifi, tarix üzrə fəlsəfə doktoru Akif Aşırlı 28 May – Müstəqillik Günü ərəfəsində belə bir toplunun təqdim olunmasını əlamətdar hadisə saydı və istiqlal dövrünün möhtərəm simalarından biri olan Xəlil İbrahimin həyat və yaradıcılığı barədə fikirlərini çatdırdı.

Professor, tarixçi-alim Solmaz Rüstəmova–Tohidi belə tədbirlərin keçirilməsinin təqdirəlayiq olduğunu vurğulayaraq, X.İbrahimin publisistikasından söz açıb. Onu zəngin biliyə sahib insan kimi xarakterizə edərək bildirdi ki, Xəlil bəy həm də fəal ictimai xadim olub,1926-cı ildə keçirilən 1-ci Türkoloji Qurultayın təşəbbüskarlarından biri kimi məhsuldar fəaliyyət gtöstərib.

Digər natiqlər – M.Ə.Rəsulzadənin nəvəsi, tanınmış rəssam Rəis Rəsulzadə, filologiya elmləri doktoru, professor Vaqif Sultanlı, “Mədəniyyət” jurnalının baş redaktoru Zöhrə Əliyeva da yeni çap olunmuş kitab və Xəlil İbrahim haqqında fikirlərini bölüşdülər. Xəlil İbrahimin nəvəsi Lalə Nəcəfova çıxış edərək kitabı ərsəyə gətirənlərə öz təşəkkürünü bildirdi.

***Əli NƏCƏFXANLI, “Xalq qəızeti”***

# “Almanların Rəşid Behbudov sevgisi”

**“Facebook” şəbəkəsi fəalı olan həkim-yazıçı Hümbət Həsənoğlu bir neçə il Almaniyada yaşayıb-işləyib. Vətənə qayıtdıqdan sonra da həmin ölkədə səfərlərdə olub. Onun Facebook şəbəkəsində həmin səfərlərdən biri haqqında yazdığı təəssüratın maraqlı olduğunu nəzərə alaraq, oxucuların diqqətinə təqdim edirik.**



“Mən də daxil olmaqla, azərbaycanlılardan ibarət bir qrup Almaniyada səfərdəyik. Səfərimizin ikinci həftəsi gedir; hər gün görüşlər, toplantılar, ekskursiyalar… Xaricdə olanlar bilir, günlər intensiv tədbirlərə, görüşlərlə dolu olanda adam bir az yorulmuş olur.

...Axşam yeməyindən sonra bir şəhərdən başqa şəhərə avtobusla yol gedirik. Almanın komfort avtobusu, ideal yollar, yumşaq kreslolar, salonda yarıqaranlıq atmosfer və yorğun azərbaycanlılar. Hamı mürgüləyir.

Sakitcə sürücünün yanına gedib, ona bir musiqi diski verir və astadan almanca deyirəm ki, mən qayıdıb oturandan on dəqiqə sonra diski qoşsun.

Mən qayıdıb yerimə otururam və hamı kimi özümü yuxuluğa vururam. Almaniyanın avtobanı, ətrafda sayrışan işıqlar, sakitlikdir və birdən avtobusun səs kolonkalarından Rəşid Behbudovun ecazkar səsi ucalır. Yavaş-yavaş dirçələnlər sevincək digərlərini oyadırlar: – Aaa, bu ki bizim Rəşid Behbudovdur!

Hamı bir-birinə baxıb sevinir.

- Görürsünüz də, almanlar da sevir Rəşidi!

- Korifeydir ee, bütün dünya sevir onu!

- Vallah, mən də almanları sevdim! Rəşidə belə qiymət verirlərsə, onlara hər şey halaldır!

Müğənninin ikinci mahnısı gəlir.

- Qaqaş, bunlar onun diri albomunu verirlər. Azərbaycanda kimə desən, inanmaz.

Rəşidin üçüncü şən mahnısına isə hamı qalxıb avtobusdaca rəqs edir. Alman sürücü belə reaksiyasını gözləmədiyindən, çaşqınlıq içində bizə baxır və hamının sevindiyini görüb gülərək, musiqinin səsini artırır. Hamı şıdırğı oynayır, şənlənir. Yol yorğunluğu canımızdan musiqi və rəqslə çıxır.

Sonda sürücüyə hərə bir milli suvenir bağışlayır və o mənə təzim edə-edə razılıq edir: – Danke şöön!

Nəhayət, hamı nələrin baş verdiyini başa düşür və aramızda olan yeganə alman–azərbaycanlını növbə ilə qucaqlayırlar…”

**P.S:** Bu da şən bir zarafatın yaratdığı xoş ovqat!

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***

# Xəzər haqqında film çəkilir

**Qazaxıstan Respublikasının “AKB Solutions” şirkəti və “İncəsənət, Kino və Elmin İnkişafı Fondu” dünyada ən böyük göl sayılan Xəzər dənizinin ekoloji problemləri haqqında böyük sənədli film layihəsi üzərində çalışır. Bu qurumların birgə çəkiliş qrupu Bakıda səfərdə olub.**



Xəzərətrafı dövlətlərin dənizin ekoloji problemlərinin həllində əməkdaşlığı, problemlərin həlli istiqamətində atdıqları addımlar, onların gələcək birgə fəaliyyət perspektivlərinin əks olunacağı filmdə Xəzərin səviyyəsinin enməsi və bunun ətraf ölkələrə təsiri, dənizin ekosisteminin və bioloji müxtəlifliyinin qorunması, balıq ehtiyatlarının bərpası və digər mövzulardan bəhs edilir.

AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyev çəkiliş qrupuna Xəzərin enerji resurslarından istifadə perspektivləri, karbohidrogenlərin çıxarılması prosesində ekologiyanın qorunması tədbirləri, qlobal iqlim dəyişikliklərinin Xəzərə təsiri, dənizin unikal ekosisteminin öyrənilməsində beynəlxalq əməkdaşlığın əhəmiyyətindən danışıb. Elm və Təhsil Nazirliyinin akademik H.Əliyev adına Coğrafiya İnstitutunun şöbə müdiri, coğrafiya elmləri doktoru, professor Əmir Əliyev, həmin institutun böyük elmi işçisi, coğrafiya üzrə fəlsəfə doktoru, Cenevrə Universitetinin post-doktorantı, beynəlxalq CASPİSNET şəbəkəsinin koordinatoru Elnur Səfərov isə problemin ayrı-ayrı aspektləri ilə bağlı müsahibə verib, Xəzəryani ölkələrin mütəxəssislərindən ibarət vahid monitorinq mərkəzinin yaradılmasının vacibliyini qeyd edib.

Film üçün Bakının Dağüstü parkdan mənzərəsi, əsrlərlə Xəzərin suları altında qalmış Səbayıl qalası, AMEA-nın binası və paytaxtımızın digər maraqlı yerlərinin çəkilişləri aparılıb. Dünyada muzeyə çevrilmiş ilk tanker olan “Suraxanı” gəmi-muzeyində Xəzərin tarixi, Abşeronda neft hasilatı, gəmiçiliyin inkişafı, qədim naviqasiya alətləri, 5000 ilə yaxın tarixə malik dəniz düyünləri, lövbərlər və s. eksponatlarla tanışlıq və maraqlı çəkiliş üçün geniş imkanlar qonaqlarda xoş təəssürat yaradıb.

***Ə.ƏLİYEV, “Xalq qəzeti”***

# Niyə məhz Rəcəb Tayyib Ərdoğan?

## 28 may – Türkiyənin yeni tarixi yolunun başlanğıcı

**“Qarabağda yaşananlar ölkəmizin qətiyyətli mövqeyinin nə qədər doğru olduğunu göstərdi. Türkiyə eynilə bir əsr bundan əvvəl Nuru paşanın komandanlığında Qafqaz İslam Ordusu kimi tarixin məsuliyyətli bir dövründə azərbaycanlı qardaşlarımızın yanında yer aldı”. Bu gün qardaş Türkiyədə prezident seçkilərinin ikinci turunun keçirildiyi bir məqamda Prezident Rəcəb Tayyib Ərdoğanın ölkə hökumətinin 15 dekabr 2020-ci il tarixli iclasından sonra xalqa müraciətində səsləndirdiyi fikirləri yada saldıq. Ancaq yada salacaqlarımız yalnız bununla kifayətlənmir və xatırlayacaqlarımız heç də o demək deyil ki, seçkilərin ikinci turunda cənab Ərdoğana dəstəyimizi ifadə etməyi düşünürük. Yəni, yalnız bunu düşünmürük. Ona görə ki, ümumən, Ərdoğan şəxsiyyəti bütün dəstəklərin fövqündədir.**

Əvvəla, bütövlükdə, Azərbaycan xalqının Türkiyənin hazırkı liderinə rəğbəti danılmaz reallıqdır və bir qəzet materialı heç bir halda mövcud reallığa əlavə çalarlar gətirmək iqtidarında deyil. İkincisi, hesab edirik ki, Ərdoğanla Azərbaycan xalqı arasındakı bağ o qədər böyükdür ki, mənəvi baxımdan yanaşsaq, seçki kimi proseslər həmin bağın hörmət və ehtiram anlamına qarşılıq üçün çox kiçikdir.



Əvvəldə diqqətə çatdırdığımız iqtibasda Ərdoğan, məhz həmin böyüklüyü vurğuladı. Onun Qafqaz İslam Ordusu və Nuru paşa amili üzərində dayanması adi məsələ deyildi. Bəli, 44 günlük müharibə zamanı özünün nəhəng mənəvi dəstəyi ilə cənab Ərdoğan Nuru paşa idi, Türkiyənin dövlət aparatı isə Nuru paşanın əsgərləri. Xarici işlər naziri Mövlud Çavuşoğlu, Milli müdafiə naziri Hulusi Akar hər gün bu və ya digər açıqlamalar verdilər, Azərbaycanın sona qədər yanında olduqlarını bəyan etdilər. Türkiyə Böyük Millət Məclisinin bütün üzvləri və siyasi partiyalar birmənalı şəkildə Azərbaycanın hər addımını müdafiə etdilər.

Bəli, taleyimiz belə gətirib ki, tariximiz dostluq və qardaşlığın sınaq səhifələri ilə yazılıb və yazılmaqdadır. Yerləşdiyimiz mürəkkəb coğrafi şərait təlatümlərsiz həyat sürməyimizə imkan verməyib. İndi də imkan tanımır, sadəcə artıq güclüyük. Bütün narahatlıqlara qarşı təbii müqavimətimiz, möhkəm immunitetimiz var. Ərdoğan şəxsiyyəti ötən iyirmi ilin Türkiyəsinin immun sisteminin bənzərsiz qüvvə amilidir.

Mövzumuz həm də 44 günlük müharibə zamanı Türkiyənin Azərbaycana dəstəyi ilə bağlıdırsa, onu da vurğulamalıyıq ki, tarix xalqımızın türk qardaşlarına dəstək anlarının müqəddəslik səhnələrinə də şahidlik edib. Əlbəttə, məqsədimiz heç də bunları qabartmaq deyil. Nə də onu söyləmək istəmirik ki, Türkiyə və Azərbaycan xalqlarının bir-birinə dəstəkləri qarşılıqlı xarakter daşıyıb. Nəhayət, biz bir millət olduğumuzu anladığımızdan, əlimizdən gələni etmişik. Edə bilmədiyimiz məqamlar da olub ki, yanıb-yaxılmışıq. Ancaq nə xoş ki, bu gün edə bildiklərimiz ön plandadır və deməli, uca Tanrı bizi bir-birimizdən utandıracaq qismət yazmayıb.

Bütün bunların fövqündə Rəcəb Tayyib Ərdoğanın 44 günlük müharibə zamanı tutduğu qətiyyətli mövqeni nə üçün yada salırıq? Yəni, nəyə görə Türkiyədəki prezident seçkilərinin ikinci turunun keçirildiyi 28 may 2023-cü il tarixində cənab Ərdoğana dəstəyimizi məhz 44 günlük müharibə zamanı tutduğu qətiyyətli mövqe səbəbindən ifadə edirik?

Əvvəla, şübhəsiz, Ərdoğan və onun komandasının timsalında Nuru paşa ənənəsini görürük. Söhbət türkün türkə dəstəyi ənənəsindən gedir. Lakin biz, eyni zamanda, Türkiyənin hazırkı iqtidarının şəxsində bu dəstəyin bütövlükdə, türk dünyasına hamilik ruhunu hiss etməkdəyik. Nəzərə alaq ki, bu ruh, eyni zamanda, Osmanlı ruhudur. Osmanlının ruhunda isə bəşəri ədalət, məzlumlara kömək, tərəqqi və inkişaf var. Təsadüfi deyil ki, böyük güclərin yer üzündəki ədalət nizamını pozmağa yönəlmiş fəaliyyəti məhz Osmanlını süquta uğratmaları ilə başlanmışdı.

Biz Ərdoğan Türkiyəsinin timsalında haqqa və ədalətə münasibətin özünəməxsus yanaşmasını görürük. Bu yanaşmada prinsipiallıq və qətiyyət mühüm keyfiyyətdir. Bu yanaşmada haqq davası üçün bütövlük var. Bu yanaşma böyük ədalət naminə dirənişi və əzmi rəhbər tutmaqdadır. 44 günlük müharibə zamanı Ərdoğan məhz həmin dirənişi və əzmi nümayiş etdirdi. Türkiyə liderinin İkinci Qarabağ müharibəsinə üçüncü tərəflərin qarışmasının yolverilməzliyini açıqlayan bəyanatını xatırlayaq: “Atamızın oğlu olsa belə imkan verməyik!”

Bəli, Ərdoğanın yaratdığı sistemin Qarabağ köklənişi, bütövlükdə, Türkiyə xalqının Azərbaycan davası naminə birliyini təmin edən son dərəcə ciddi faktora çevrildi. Əlbəttə, ulu öndər Heydər Əliyevin “bir millət, iki dövlət” kəlamı türk toplumunun Azərbaycan sevdasının məğzini təşkil etməkdədir. Bu, hər zaman belə olub. Fəqət, türkiyəli qardaşlarımız, həmçinin dahi Mustafa Kamal Atatürkün Azərbaycan sevdasından da nəşət alıblar. Atatürk üçün Azərbaycan başqa bir dünya idi. Vətən müharibəsi zamanı cəmiyyətimiz Ərdoğanda Atatürk ideyalarının Azərbaycan tərənnümünü gördü. Bu görüntü, həqiqətən, başqa bir dünya idi. Qürur və fəxarətin sevinc göz yaşlarını torpağa axıdaraq böyüklük toxumlarını cücərtdiyi dünya.

Hesab edirik ki, Ərdoğan iqtidarı ölkəmizin Qarabağ davasına müstəsna mənəvi dəstəyi ilə ümumən türk coğrafiyasının rifahı naminə çalışdı. Nəzərə alaq ki, Qarabağ düyünü türk dünyasının qarşısındakı əngəl idi. Əngəl aradan qalxdı və bu gün böyük ölçüdə yolumuz açıqdır. Biz Zəngəzur dəhlizindən danışırıq. Diqqət yetirək, bu gün Türkiyədə hakimiyyətə iddialı qüvvələrin Azərbaycanı iri layihələrdən kənarda qoymaq istəklərinin şahidləriyik. Bu məram həmin qüvvələrin yalnız ölkəmizə münasibəti deyil. Onlar, bütövlükdə, türk birliyi və həmrəyliyini əngəlləmək istəyənlərin oyunlarının tərkib hissəsidir. Bu oyunlar, mayın 28-də Azərbaycanın Respublika Günündə pozulacaqdır. Həm də ona görə pozulacaqdır ki, Ərdoğan iqtidarının ötən 20 ildəki fəaliyyəti dünyanın oyunlarından kənar, öz mövqeyi və xəttini əsas götürən möhkəm, müstəqil müasir dövlətçiliyinin formalaşması tarixidir. Bu tarixin, ən azı, qarşımızdakı növbəti beş ildə yazılması mütləqdir.

***Ə.RÜSTƏMOV,***
***“Xalq qəzeti”***

# 28 may seçkiləri: Türkiyə yenidən sandıq başındadır

## Xalq bu dəfə də öz müdrik seçimini edəcək

**Bu gün Türkiyə dövləti və xalqının taleyində ən mühüm günlərdən biridir. Belə ki, 28 mayda qardaş ölkədə prezident seçkilərinin ikinci turu keçirilir. Bu gün axşam saatlarında prezidentliyə iki namizəddən birinin – AKP lideri Rəcəb Tayyib Ərdoğanın, yoxsa CHP-nin rəhbəri Kamal Kılıçdaroğlunun dövlətin ali postuna seçiləcəyi bəlli olacaq.**

Hazırda bütün dünyanın nəzərləri Türkiyəyə dikilib. Qeyd edək ki, 28 mayda səsvermənin nəticələri təkcə Türkiyə və region üçün deyil, hətta qlobal dünya düzəni üçün də böyük önəm daşıyır. Bunu həm Türkiyə daxilində, həm də ölkə xaricində hər kəs başa düşür.

Rəsmi Ankaranın dünya siyasətində çəkisi və nüfuzunun artmasını arzulayanlar yetərincə olduğu kimi, təəssüf ki, onun daxili işlərinə qarışaraq, Türkiyənin yenidən xaricdən idarəolunan bir dövlətə çevrilməsinə çalışanlar da az deyil. Bütün mənalarda bugünkü səsvermənin nəticələri çox şeyə təsir göstərə bilər. Rusiya–Ukrayna müharibəsində hər iki ölkə ilə danışa bilən, qardaş Türk Dövlətləri Təşkilatının yaradılmasına rəhbərlik edən, onları bütün səviyyələrdə müdafiə edən, qoruyan, Türkiyə artıq regional güc olmaqdan çıxıb və çağdaş dünyada sayılıb-seçilən, hörmətli və qüdrətli bir ölkədir.

Qərb isə 1960–1990-cı illər arasında hər cəhətdən ona ehtiyacı olan bir Türkiyə xəyal edir və bu səbəbdən də sayın Rəcəb Tayyib Ərdoğan avropalılara və amerikalılara heç cür sərf eləmir. Onlar hazırkı dövlət başçısı kimi dəmir iradəli lideri yox, hər cür güzəştə açıq olan digər namizədi var gücləri ilə dəstəkləyirlər.




Son və həlledici sözü, təbii ki, müdrik türk xalqı deyəcək!

Hörmətli oxucular, “Xalq qəzeti” Türkiyədə prezident seçkilərinə hazırlıq və səsvermənin təşkili və nəticələri ilə bağlı silsilə analitik yazılar, şərh və reportajlar dərc edib. 14 may seçkilərinin birinci mərhələsinin nəticələri və bunları şərtləndirən səbəblər, eləcə də ikinci turla bağlı proqnozlar barədə Ankaradakı Bilkənd Universitetinin professoru, Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun Rəyasət və İdarə heyətlərinin üzvü, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi Əmrulla Məmmədlinin məxsusi olaraq qəzetimiz üçün qələmə aldığı məqalənin birinci hissəsini bundan əvvəlki nömrəmizdə oxuculara təqdim etmişik. Yazının kifayət qədər dolğun və aktual olduğu barədə müsbət rəylər almışıq. Bu gün həmin analitik yazının ikinci hissəsini oxucuların diqqətinə təqdim edirik.



**II məqalə**

Türkiyədə keçirilən son seçkilərə dünyanın hər yerində maraq böyükdür. Xüsusilə Avropa və ABŞ-da bu prosesi ilk gündən diqqətlə izləyirlər. Təsadüfi deyil ki, Qərb mətbuatı Türkiyədəki seçkilərlə bağlı çox sayda şərh və rəylər dərc etmişdir.

Nüfuzlu “The Financial Time” qəzeti ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, demokrat senator Kris Mörfinin “Bu ölkəni kimin idarə etməsindən asılı olmayaraq Türkiyə bizim üçün həyati tərəfdaş olacaq” sözlərinə istinad edən şərh dərc edib. Yazıda AKP lideri, Prezident R.T.Ərdoğanın Rusiya–Ukrayna müharibəsində vasitəçi roluna xüsusi diqqət verilib. Türkiyənin dövlət başçısının xarici siyasətdə parlaq uğurlar əldə etdiyini vurğulayan qəzet, həmçinin iqtidarın 2023-cü il fevralın 6-da baş verən dəhşətli zəlzələdən sonra əhaliyə təcili yardım təşkil etdiyini qeyd edib.

Türkiyədə seçkilərə hazırlıq prosesini xronoloji ardıcıllıqla təhlil edən qəzet “Ərdoğan bütün ehtimalları necə məğlub etdi?” başlıqlı məqalədə dövlət başçısının xarici şərhçilərin neqativ gözləntilərinin fövqündə durduğundan yazıb. Şərhdə “R.T.Ərdoğan seçicilərin ilk turda dəstəyinə əmin idi, hətta zəlzələ bölgəsində əhalinin ona və komandasına olan etimadı azalmadı” ifadələri işlədilib.

Türkiyədə son iyirmi ildə mövcud hakimiyyətin əldə etdiyi uğurlar göz önündədir. Amma bu, Qərb siyasətçilərini və bu ölkələrin media qurumlarını narahat edir. Türkiyənin 2023–2028-ci illərdə R.T.Ərdoğanın mümkün prezidentliyi dövründə daha böyük zəfərlər qazanacağı ilə bağlı narahatlıqlardır.

Bəli, rəqibləri Ərdoğan Türkiyəsini dayandıra bilmir! Akkuyuda tam gücü ilə işləyəcək Atom Elektrik Stansiyası, Cənub-Şərqi Anadoluda neft ehtiyatlarının aşkar edilərək istifadəyə hazır vəziyyətə gətirilməsi, modern hücum təyyarələrinin ölkənin silahlı qüvvələrinə verilməsi, zəlzələ bölgəsində genişmiqyaslı tikinti işlərinin başa çatdırılması və on minlərlə evin və müvafiq infrastrukturun zəlzələdən zərərçəkən ailələrə verilməsi, hazırda iqtisadi problemləri olan Türkiyənin yenidən dirçəlməsi və regionda liderliyini təsdiqləməsi, Şərqi Aralıq dənizində söz sahibi olması, ölkə ərazisində yüksək sürətli dəmir yollarının ardıcıl olaraq istifadəyə verilməsi, Yeni İstanbul Kanalı layihəsinin reallaşdırılması və buna bənzər bir çox iri layihələr “müttəfiqləri” çox narahat edir.

Rəsmi Anakaranın xarici əlaqələrdəki uğurlarından müfəssəl söz açmağı belə artıq hesab edirəm. 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində “Can Azərbaycan”ın yanında olduğunu bəyan edən və hərtərəfli dəstəyini əsirgəməyən, Qərbin qərəzli mövqeyinə yeganə əks yanaşmanı isə rəsmi Pekin sərgiləyir. Belə ki, bir müddət əvvəl Çin Xalq Respublikasının Ankaradakı fövqəladə və səlahiyyətli səfiri Liu Şaobin deyib: “Çin tərəfi hər zaman Türkiyənin öz təhlükəsizliyini və ərazi bütövlüyünü qorumaq səylərini dəstəkləyir”. İHA agentliyinə açıqlama verən səfir Şaobin Türkiyə-Çin münasibətlərini, Ukrayna-Rusiya müharibəsini və Çinin Tayvan siyasətini dəyərləndirib. Səfir bir daha vurğulayıb ki, onun ölkəsi Türkiyənin öz milli maraqlarına uyğun inkişaf yolu ilə irəli getməsini müsbət hal qiymətləndirir. Digər Çin rəsmiləri də dəfələrlə bəyan ediblər ki, onlar xarici güclərin Türkiyənin daxili işlərinə qarışmasına qarşıdırlar.

“Millət İttifaqı” tərəfindən seçkilərin nəticələrinə baxanda ürəkaçan bir vəziyyətlə rastlaşmırıq. Seçkilərdə ağır məğlubiyyətlə üzləşən (6+1) koalisiyası düçar olduğu uğursuzluğu ört-basdır etmək üçün guya əvvəlki seçkilərdə olduğu kimi, yenə də “səslərin oğurlandığını” iddia edir. Lakin onlar “səslər oğurlanıb” yalanını dövriyyəyə buraxsalar da, CHP-yə yaxın jurnalistləri belə buna inandıra bilmədilər.

**P.S.** 14 may seçkiləri ilə bağlı dünyanın çox sayda yaxın-uzaq ölkələrinin tanınmış siyasətçiləri, vətəndaş cəmiyyəti fəalları, saysız-hesabsız media təmsilçiləri Türkiyəyə səfər edərək bu ölkənin ayrı-ayrı şəhər və qəsəbələrində səsvermə prosesini izləyiblər. Onların çoxu qardaş ölkədə səsvermə prosedurunun ən yüksək səviyyədə, tam sərbəst, azad və şəffaf şəkildə təşkil olunduğunu etiraf etməli olublar.

Azərbaycan vətəndaşları olaraq biz seçkilərin ikinci turunun da nümunəvi şəkildə keçiriləcəyinə, müdrik türk xalqının ən doğru seçimi edəcəyinə əminik. Böyük Atatürk deyirdi: “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir”. Azərbaycan xalqı da məhz belə düşünür. Təəssüf ki, son günlər iki xalq arasında münasibətlərə zərər vurmaq istəyən qüvvələr peyda olub. Bakı Dövlət Universitetinin Türkologiya kafedrasının müdiri, professor Rüfət Rüstəmov bildirdi ki, azərbaycanlılarla türklərin arasını vurmaq cəhdləri mənasız və boş şeydir. Dırnağı ətdən ayırmaq mümkün deyil!

Dahi siyasətçi Heydər Əliyev hər zaman fəxrlə “Azərbaycan ilə Türkiyə iki dövlət, bir millətdir” deyirdi. Bu gün xoşbəxtlikdən Türkiyə dövləti dünyanın ən sivil, demokratik və güclü dövlətlərindən biridir. Türkün azad, yenilməz ruhu bu milləti hər zaman ayaqda saxlayıb, onu güclü və əyilməz edib. Əziz Türkiyə, biz səninlə fəxr edirik və hər zaman sənin yanındayıq! Sənin seçimin bizim seçimimizdir, sənin iradən bizim iradəmizdir. Allah Türkiyəni və türkü qorusun!

***Yazını təqdim etdi:***
***Məsaim ABDULLAYEV,***
***“Xalq qəzeti”***

# Ukraynada hərbi əməliyyatların yeni mərhələsi başlayıb

**“Vaqner” muzdlu hərbi təşkilatı Donetsk vilayətinin Baxmut şəhərini tərk etməyə başlayıb. Bu, Baxmut istiqamətində Rusiyanın hücum əməliyyatlarının zəifləməsi və Ukrayna Silahlı Qüvvələrinin əks-hücuma keçməsi ilə bir vaxta təsadüf edir. Ola bilsin ki, Müdafiə Qüvvələrinin əks-hücum əməliyyatlarına başlaması ilə “Vaqner” mövqelərinin Baxmutdakı rus bölmələrinə planlı şəkildə ötürülməsi çətinləşsin. Bu barədə Müharibənin Öyrənilməsi İnstitutunun (ISW) hesabatında deyilir.**



Hesabatda, həmçinin qeyd olunur ki, Ukrayna qüvvələri Orexovo-Vasilyevka (Baxmutdan 11 kilometr şimal-qərb) və Kleşievka (Baxmutdan 7 kilometr cənub-qərb) ərazilərində uğurlu əks-hücumlar həyata keçiriblər. Məlumatı döyüş bölgəsində olan rusiyalı hərbi müxbirlər də təsdiqləyirlər. Məsələn, Rusiya Federasiyasının hərbi müxbirlərindən biri iddia edir ki, Ukraynanın Orexovo-Vasilyevka bölgəsindəki əks-hücumları rus bölmələrini ərazidəki mövqelərindən bir kilometr geri çəkilməyə məcbur edib.

Bundan başqa, Rusiyanın digər hərbi müxbirləri iddia edirlər ki, Ukrayna Silahlı Qüvvələri Orexovo-Vasilyevka yaxınlığındakı E40 (Baxmut - Slavyansk) magistral yolu boyunca yüksəklikləri ələ keçiriblər.

Ukrayna hərbçilərinin Kleşievka istiqamətində irəliləyərək Severski Donetsk kanalını keçdiyinə dair sübutlar var. Analitiklər bildirirlər ki, Ukrayna Silahlı Qüvvələri bu qəsəbəni mühasirəyə almaqla rus qoşunlarını geri çəkilməyə məcbur etmək niyyətindədirlər. Bununla belə, mayın 24-ü və 25-də yayımlanan geolokasiya görüntüləri göstərir ki, Rusiya qüvvələri çox güman ki, Kleşievkanın qərbindəki mövqelərini bərpa edib.

İstənilən halda, Ukraynanın uğurlu məhdud və lokal əks-hücumları Rusiya qüvvələrinin Baxmutda “Vaqneri” əvəz etməsini çətinləşdirəcək.

Beləliklə, Rusiyanın Baxmut bölgəsindəki hücum əməliyyatlarının ləngiməsi və Ukrayna bölmələrinə qurudan yardım əməliyyatının həyata keşirilməsi çox güman ki, bölgədəki Ukrayna qüvvələrinə Baxmut ətrafında əməliyyatların yeni mərhələsinə başlamaq şansını da artıracaq. Bunun üçün də Ukrayna bölmələrinə havadan dəstək göstərilməlidir. Artıq Ukrayna Müdafiə Nazirliyi açıq şəkildə Qərb müttəfiqlərindən 48 ədəd dördüncü nəsil F-16 qırıcılarını ölkənin Hərbi Hava Qüvvələrinə təhvil verməsini tələb edib. Ukrayna Müdafiə Nazirliyi bəyan edib ki, dörd “Döyüşən şahinlər”in eskadrilyası hava hüçumlarını yerinə yetirmək üçün kifayət edəcək.

Qərb iddia edir ki, Amerika qırıcılarının Ukraynaya təhvil verilməsi ilə bağlı qərar qəbul edilib, yalnız vaxtı dəqiqləşdirmək qalır. Almaniya Kansleri Olaf Şoltsun fikrincə, bu, kifayət qədər tez baş verəcək – bəlkə də payızda. Bununla belə, ABŞ rəsmiləri avadanlığın daha əvvəl çatdırılmasının mümkün olacağını bildirirlər. Amma problem də var. Birincisi, F-16 təyyarələrini idarə edəcək peşəkar pilotlar çatışmır, onların təlim keçməsi üçün vaxt lazımdır. İkincisi, xüsusi əməliyyatın bütün dövrü ərzində Rusiya hərbçiləri Ukrayna aerodromlarını tamamilə məhv ediblər. Yaxşı vəziyyətdə praktiki olaraq heç bir uçuş-enmə zolağı qalmayıb. Bundan əlavə, uyğun infrastruktur və Qərb texnologiyasının saxlanması tələb olunur. Deməli, yaxın vaxtlarda Ukraynanın F-16 qırıcılarından istifadə edəcəyi real görünmür. Yəni, əks-hücum əməliyyatının ilkin mərhələsi F-16 qırıcıları olmadan həyata keçiriləcək.

Ukrayna tərəfinin əks-hücumunun uğurlu olması üçün tələb etdiyi silahlardan biri də uzaqmənzilli "Taurus" raketləridir. Bu barədə Almaniyanın "Spiegel" qəzeti yazıb. Nəşr yazır ki, raketlər 500 kilometrdən çox uçmağa qadirdir, yəni, onlar “Moskvaya çata” bilirlər. “Taurus” raketi təyyarə düşmənin hava hücumundan müdafiə sisteminin (havadan müdafiə) əhatə dairəsinə daxil olmadan böyük məsafədə yer hədəflərini məhv etmək üçün nəzərdə tutulub. Bu cür raketləri F-16 qırıcıları daşıya bilər.

Qeyd edək ki, Ukrayna Prezidenti Volodimir Zelenski mayın əvvəlində Berlinə səfəri zamanı Almaniyadan bu raketləri ölkəsinə ötürməsini istəyib. Kanslerin nümayəndəsi məlumatı şərh etməyib, lakin Müdafiə Nazirliyi sorğunun alındığını təsdiqləyib. Hələlik, real nəticə yoxdur. Bunlar əks-hücumun effektli olması üçün çox vacibdir. Təhlilçilər bildirir ki, uğurlu əks-hücum əməliyyatı üçün bu iki silahın Ukraynaya verilməsi çox önəmlidir.

Bu arada Rusiyanın itkiləri açıqlanıb. Son üç gündə Rusiya Ukraynada 480 hərbçisini itirib. Bu barədə Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı feysbukda məlumat yayıb. Beləliklə, Rusiyanın müharibə başlayandan bəri itkilərinin sayı 206 minə çatıb.

Bundan başqa, rusların indiyədək 3 799 ədəd tankı, 7 442 ədəd zirehli döyüş maşını, 3 406 ədəd artilleriya sistemi, 572 ədəd raket sistemi, 329 hava hücumundan müdafiə sistemi, 310 ədəd hərbi təyyarəsi, 296 ədəd helikopteri, 6 172 ədəd nəqliyyat vasitəsi və yanacaq çəni, 18 ədəd gəmi-kateri, 2 941 ədəd operativ-taktiki PUA və 449 ədəd xüsusi texnikası məhv edilib.

***Pünhan ƏFƏNDİYEV,***
***“Xalq qəzeti”***




# Bakıda V Milli Kitab Sərgisi başlayıb



**Cəmiyyətdə mütaliə mədəniyyətini təbliğ etmək, insanlarda kitaba olan marağı artırmaq üçün sərgi–yarmarkaların keçirilməsi artıq bir ənənə halını alıb.**

İçərişəhərdə mayın 27-də başlayan V Milli Kitab Sərgisinin təşkilində əsas məqsəd gənc nəslin kitaba maraq və sevgisini artırmaq, bəşəri dəyər olan kitabı oxuculara daha yaxın etməklə yanaşı, həm də, ölkəmizdə kitab sənayesi sektorunun və müasir ədəbi proseslərin inkişafını dəstəkləməkdir.

Naşir Şahbaz Xuduoğlunun moderatorluğu ilə baş tutan sərginin açılış mərasimində Azərbaycan Yazıçılar Birliyinin sədri Anar, Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva, Xalq şairi Sabir Rüstəmxanlı, Mətbuat Şurasının sədri Rəşad Məcid çıxış ediblər.

Eyni zamanda, açılışda Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, Əqli Mülkiyyət Agentliyi və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin nümayəndələri iştirak ediblər.

Rəsmi açılış mərasiminin ardınca görüş və imza günləri başlayıb. Sərginin proqramına əsasən, Xalq yazıçıları Anar və Çingiz Abdullayev öz kitablarını imzalayıblar. Sonra "Azərbaycan dilinin bugünkü vəziyyəti" mövzusunda panel müzakirəsi təşkil olunub. Müzakirədə aidiyyəti dövlət qurumlarının, ictimai təşkilatların nümayəndələri, dilçilər və dərslik müəllifləri iştirak ediblər.

Sərginin ilk gününün son tədbiri olan "Ədəbiyyatda yeni imzalar" adlı poeziya axşamında gənc şairlər Elvin Paşa, Kazım Kazımoviç və Elşən Mehdi yeni şeirlərini oxuyublar.

Milli Kitab Sərgisinin təşkilatçısı Leyla Həsənova "Xalq qəzeti"nə açıqlamasında qeyd etdi ki, indiyədək sərgilər Bakı İdman Sarayında qapalı məkanda keçirilirdi: "Budəfəki sərgimizi İçərişəhərdə, açıq səma altında keçirməklə tədbiri daha çox insanın ziyarət etməsinə şərait yaratdıq. 30-a yaxın nəşriyyat, kitab evləri, mağazalar və onlayn təşkilatlar öz məhsulları ilə tədbirə qatılıblar. Yay ərəfəsidir və tələbələrin semestr imtahanları yaxınlaşır. Buna baxmayaraq, sərgiyə tələbələr böyük maraq göstəririlər. Sərgidə tək kitablar yox, maraqlı əl işləri də nümayiş etdirilir. Xüsusi və təbii daşlar, eləcə də onlardan hazırlanmış əl işləri çoxdur. Sərgidə endirimli və ödənişsiz zona da var. Əlillərə, eləcə də qayğıya ehtiyacı olan insanlara dəstək olmaq üçün bir çox mərkəz və təşkilatlar xeyriyyəçilik edirlər".

Sərgiyə qatılan "İZƏ" nəşriyyatının nümayəndəsi Kənan Əliyev sərgidə 2 mindən çox kitab nümayiş etdirdiklərini bildirdi: "Həm öz nəşriyyatımızın kitablarını, həm də rus, türk və digər xarici ədəbiyyat nümunələrini nümayiş etdiririk. Belə sərgilərə həmişə qatılırıq. Kitablarımıza maraq böyükdür".

Ziyarətçilərdən tələbə Samir İmranov kitab sərgisinə böyük maraq göstərdiyini dedi: "Sərgiyə qrupla qatılmışıq. Maraq göstərdiyimiz ədəbiyyatları tapdığımıza görə məmnunuq. Burada həm müasir ədəbiyyat, həm klassiklərin əsərləri var. Mən Anarın iki kitabını aldım".

8 yaşlı qızı ilə sərgiyə gələn Səfura Verdiyeva müxtəlif çeşiddə kitabların sərgilənməsinin onda razılıq doğurduğunu vurğuladı: "Həm qızıma, həm də özümə kitablar aldım. Müasir texnologiyadan bəhs edən kitablar çox xoşuma gəldi".

Qeyd edək ki, V Milli Kitab Sərgisi iyunun 4-dək davam edəcək.

***Leyla QURBANOVA,***
***"Xalq qəzeti"***

## Sosial Xidmətlər Agentliyində...

### Məişət zorakılığından zərər çəkənlərə reabilitasiya xidmətləri göstərilir



Sosial Xidmətlər Agentliyi bu ilin ötən dövründə məişət zorakılığından zərər çəkmiş 33 nəfəri sosial reabilitasiya xidmətlərinə cəlb edib. Onlardan 10 nəfəri valideyn, 23 nəfəri isə uşaqdır. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən bildiriblər.



Qeyd edilib ki, həmin şəxslər agentliyin müvafiq müəssisəsində yerləşən Məişət zorakılığından zərər çəkmiş şəxslər üçün sosial reabilitasiya şöbəsində reabilitasiya xidmətləri ilə əhatə olunublar. 2021-ci ildən fəaliyyət göstərən şöbədə ötən dövrdə 160-a yaxın şəxs reabilitasiya xidmətləri ilə təmin edilib.

Müasir tələblərə uyğun şəraitin yaradıldığı şöbəyə qəbul olunan şəxslərin ilkin tibbi müayinəsi və psixoloji-emosional vəziyyətinin qiymətləndirilməsi, sosial-hüquqi və psixoloji dəstəklə təmin edilmələri, mədəni-asudə vaxtlarının təşkili və s. istiqamətlərdə işlər aparılır. Bu işlər fərdi iş planı üzrə və digər aidiyyəti qurumlarla qarşılıqlı əməkdaşlıq şəraitində yerinə yetirilir.

### Suriyadan ölkəmizə repatriasiya edilənlərə sosial-psixoloji dəstək

Suriyadan ölkəmizə repatriasiya edilmiş daha 11 Azərbaycan vətəndaşının sosial-psixoloji reabilitasiyasına başlanıb. Üçü qadın, 8 nəfəri uşaq olmaqla, onların reabilitasiyası ilə Sosial Xidmətlər Agentliyi məşğul olur.

Agentliyin sosial işçi və psixoloqları repatriantlarla fərdi plan əsasında iş aparırlar. Repatriantların psixoloji vəziyyətlərinin qənaətbəxş olmadığı nəzərə alınaraq, onların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası istiqamətində müvafiq tədbirlər görüləcək.

Qeyd edək ki, İraq və Suriyadan repatriasiya olunmuş 400-dən çox şəxs SXA tərəfindən sosial reabilitasiya və reinteqrasiya xidmətləri ilə təmin edilib.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

# YUĞ-un "Lənət" damğası

**Azərbaycan Dövlət YUĞ teatrı növbəti dəfə Uilyam Şekspirin "III Riçard" tarixi pyesinin motivləri əsasında "Lənət" assosiativ tamaşasını canlandırıb. Tamaşaya tanınmış bolqar rejissoru Xristo Stoyçev quruluş verib.**



Qeyd edək ki, YUĞ teatrının kollektivi Şekspir, Çexov, İbsen, Vişnek və başqa klassiklərin şedevr əsərlərini oynamaqla fərqli performanslar nümayiş etdirir. Tamaşaçılar Azərbaycan ədəbiyyatı incilərinin – Mirzə Fətəli Axundzadə və Cəlil Məmmədquluzadənin əsərlərinin orijinal səhnə həllindən də hər zaman zövq alıblar. Repertuar əlvanlığı və pyeslərin original səhnə inikası hər bir tamaşada sonsuz maraq yaradır.

Sofiyada fəaliyyət göstərən "Göz yaşı və gülüş" teatrında çalışan Xristo Stoyçevin Azərbaycan teatrı ilə yaradıcı işbirliyi iki ölkə arasında mədəni əlaqələrin genişlənməsinə xidmət edir. O, əvvəllər də ölkəmizdə tamaşalara quruluş verib. "III Riçard"a gəlincə, rejissor bu əsərə müraciətini onunla izah edib ki, Azərbaycan uzun illər işğal haqsızlığı ilə üz-üzə qalıb və bu, adama gərgin, mürəkkəb siyasi problem kimi görünür. "Əslində, bütün bu ədalətsizliyin, amansızlığın kökündə lənət durur. Lənətə gələn də insandır, lənətə bais olan da..." Şükür ki, artıq ölkəmiz işğal ağrılarından qurtarıb, amma nankor qonşuların burada törətdikləri hər zaman lənətə layiq olaraq qalacaq.

Şekspirin XVI əsrin sonunda (1591) yazdığı əsərdə İngiltərə kralı III Riçardın hakimiyyətə gəlişindən bəhs edilir. Əsər ingilis taxt-tacı uğrunda mübarizənin dramatik səhnələrini əks etdirir. Burada amansız münaqişələr də var, qanlı ölüm də. Tarixi gerçəkliklər öncə hersoq Qlosterin, ardınca da III Riçardın obrazlarında özünü göstərir. Seyrçilər müdhiş səhnələrdə zalım hökmdarın insanlığa sığmayan əməlləri ilə üzləşir, təəssüf dolu hisslərə köklənirlər.

Beləliklə, tamaşaçı lənətlə təkbətək qalır, "Kim öz həyatında bunca zalımlıq edə bilər?" sualı onu narahat edir.

Dramaturqun ən böyük pyeslərindən birinin səhnə təcəssümü əzablı yuxu, kabus təsiri bağışlayır. Hakimiyyəti qəsb etdikdən sonra 12 yaşlı V Eduardı, onun balaca qardaşı Riçardı, Hersoq Torku Tauer qalasına həbs edən III Riçard nəinki dostlarına, hətta onu hakimiyyətə gətirən tərəfdarlarına da rəhm etmir. Sonda zülm qurbanlarının zalımla görüşü ikincinin faciəsi ilə sona yetir.

Rejissor işinin başlıca xüsusiyyəti əsəri nəzərəçarpacaq dərəcədə ixtisarla, yığcam tərzdə verməsindədir. Bu, ilk növbədə, onun təqdim etdiyi qəhrəmanların sayında özünü büruzə verir. Tamaşada cəmi beş aktyor oynayır. Onlar III Riçardın (Oqtay Mehdiyev), hersoq Bekinhemin (Qasım Nağı), kraliça Marqaritanın (Natəvan Qeybani), kraliça Yelizaveta Vudvilin (Tərənə Ocaqverdiyeva) və Kölgəananın (Zümrüd Qasımova) obrazlarını ustalıqla yaradırlar. Zülmün dözülməzliyini rejissor əzabkeş ananın prizmasından göstərir.

Musiqi müşayiəti də tamaşaçıya emosional təsir bağışlayır. Bəstəkar, Əməkdar incəsənət xadimi Sərdar Fərəcov, quruluşçu-rəssam Olqa Boseva (Bolqarıstan), kostyum rəssamı Səadətxan Ramin və rejissor assistenti Günel Səfərova da tamaşanın uğurlu alınmasına zəhmət sərf ediblər. Kralın yaratdığı cəhənnəmi təsəvvür etdirən səhnənin tərtibatı, digər mizanlar son dərəcə harmonik görünür. Səhnədə qurulmuş yelləncək isə özlüyündə tacdan hersoqun varlığının heç də daimi olmadığını ehtiva edir.

Sonda onu da qeyd edək ki, səhnədə canlandırılan dəhşətlərin yuxu təsiri bağışlaması elə tamaşanın əsas uğuru sayıla bilər. Kaş, bütün eybəcərliklər real həyatda deyil, yuxularda qalsın.

***Ə.ƏLİYEV, "Xalq qəzeti"***

SON SƏHİFƏ

# Xalq qəzeti

Xalqın qəzeti!

№ 112 (30228) 28 may 2023-cü il, bazar

veb-sayt: www.xalqqazeti.az

*İdman xəbərləri*

## Paraatletimiz qalibdir

**İsveçrənin Notvil şəhərində keçirilən Qran-Pri turnirində Azərbaycan paraatleti Səid Nəcəfzadə qızıl medal qazanıb.**




İdmançımız uzunluğa tullanma növündə 7,06 metr nəticə göstərərək birinci yeri tutub.

Qeyd edək ki, S.Nəcəfzadə Tokio 2020 XVI Yay Paralimpiya Oyunlarının bürünc medalçısıdır.

## Cüdoçumuz "gümüş" qazanıb

**Avstriyanın Linz şəhərində keçirilən Qran-Pri turnirində Azərbaycanın daha bir cüdoçusu gümüş medal qazanıb.**



Turnirdə 73 kiloqram çəki dərəcəsində çıxış edən Rəşid Məmmədəliyev final görüşündə İsraildən olan Tohar Butbulla üz-üzə gəlib. Rəqibinə məğlub olan R.Məmmədəliyev turniri ikinci yerdə başa vurub.

Xatırladaq ki, bundan əvvəl komandamızın üzvləri Kamran Süleymanov (66 kq) gümüş, Gültac Məmmədəliyeva (52 kq) bürünc medal qazanıblar.

## Velosipedçimiz Albaniyada ikinci oldu

**Albaniyada şose velosipedinin qrup ötüşməsi növü üzrə keçirilən "Tour of Albania" yarışında iştirak edən Azərbaycanın kişilərdən ibarət elit – U-23 milli komandasının üzvləri yüksək nəticəyə imza atıblar.**



Belə ki, idmançılarımız əsl komanda əzmkarlığı göstərərək, millimizin aparıcı üzvlərindən Samir Cəbrayılova böyük dəstək olublar. Nəticədə velosipedçimiz bu mərhələdə 2 saat 42 dəqiqə 56 saniyə nəticə ilə ikinci yerə layiq görülərək gümüş medal qazanıb. O, özünün və milli komandamızın hesabına 3 UCI reytinq xalı yazdırıb.

*Leyla SABİRQIZI, "Xalq qəzeti"*



## Yunanlara türk mətbəxi

**Cümə günü Yunanıstanın Afina şəhərində "Türkiyə mətbəxi həftəsi" çərçivəsində türk mətbəxi nümayiş olunub.**

Türkiyənin Afinadakı səfirliyinin binasında keçirilən tədbirdə Türkiyənin Yunanıstandakı səfiri Çağatay Erciyes qonaqlara türk mətbəxinin unikallığı haqqında məlumat verib.

Türkiyənin Belqraddakı səfiri Hami Aksoyun xanımı Canan Parmaksızoğlu Aksoy çıxış edərək türk mətbəxinin əsrlər boyu böyük bir coğrafi məkanda yaşayan xalqlar üçün çoxlu ortaq nöqtələrinin olduğunu deyib.

Parmaksızoğlu həmçinin Türkiyənin Hatay vilayətinin UNESCO-nun qastronomiya üzrə Yaradıcı Şəhərlər Şəbəkəsinə daxil olduğunu da vurğulayıb.

Qeyd edək ki, hər il mayın 21-27-də Türkiyə Cümhuriyyətinin birinci xanımı Əminə Ərdoğanın rəhbərliyi, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə ölkə daxilində və xaricdə "Türk mətbəxi həftəsi" keçirilir.

*Fidan HÜQUQQIZI, "Xalq qəzeti"*

## Ford niyə Ağ evə buraxılmayıb?

**ABŞ-ın sabiq prezidenti Cerald Fordun tez-tez fikri dağınıq olurdu. Bir dəfə axşamüstü iti ilə gəzintiyə çıxarkən Ağ evin açarını özü ilə götürməyi unudur.**



Gəzintidən qayıdan prezidenti mühafizəçilər Ağ evə buraxmırlar. Onlar dövlət başçısını, adətən, rəsmi paltarda gördüklərindən onu tanımırlar. Nəticədə, Cerald Ford yarım saata qədər küçədə qalmalı olur.

Xatırladaq ki, respublikaçı Cerald Ford ABŞ-ın 38-ci prezidenti olub.

*Pünhan ƏFƏNDİYEV, "Xalq qəzeti"*



## Ayıya "ölüm hökmü"

**İtaliyanın Alp bölgəsində ayı 26 yaşlı idmançını parçalayıb.**

Qeyd edək ki, hadisə ötən ay baş verib.

Məlum olub ki, dişi ayı dağlıq ərazidə qaçan kişiyə hücum edib.

Hadisədən iki həftə sonra qonur ayı tutulub və inzibati məhkəmə heyvanı evtanaziya ilə ölüm cəzasına məhkum edib.

Lakin Trento şəhəri hakimlər kollegiyasının evtanaziya ilə bağlı məhkəmə qərarına etirazından sonra hökmün icrası iyunun 27-dək təxirə salınıb.

Həmçinin heyvan hüquqları müdafiəçiləri ayının insanlar üçün təhlükə yaratmayacağı sığınacağa köçürülməsini tələb ediblər.

Mərhumun yaxınları da heyvanın öldürülməsinə qarşı çıxıblar.

*Fidan SALMANOVA, "Xalq qəzeti"*

*Texnologiya yenilikləri*

## Boş stəkan – səsucaldan

**Çox vaxt insanlar səhərlər zəngli saatı qoşsalar da yuxudan oyana bilmirlər.**



Bir çox istifadəçilər zəngli saatın səsindən şikayətlənirlər. Səs səviyyəsi maksimuma qoyulsa belə, səhər saatlarında insanlar lazımi səs siqnallarını eşitmirlər.

Yeri gəlmişkən, telefonun səsinin daha yüksəkdən çıxmasının bəzi yolları var. Bunlardan biri də mobil cihazların gecə yatmazdan əvvəl boş stəkana qoyulmasıdır. Bu zaman zəngli saat daha güclü səslənəcək.

Qeyd edilir ki, mahnı səsini artırmaq üçün də bu yoldan istifadə edilə bilər. Telefonu boş stəkana qoymaqla istənilən mahnılar kifayət qədər yüksək səslə dinləniləcək.

*"Xalq qəzeti"*

## "WhatsApp"ın daha bir funksiyası

**"WhatsApp" messencerinin tərtibatçıları proqramda yeni funksiya üzərində işləyirlər. Belə ki, istifadəçilər telefon nömrəsi olmayan kontaktı tapmağı asanlaşdırmaq üçün özləri üçün ləqəb yarada biləcəklər.**



"Bu potensial olaraq kontaktların əlavə edilməsini asanlaşdıracaq və daha çox məxfilik təmin edəcək, çünki şəxsi telefon nömrənizi heç kimlə paylaşmağa ehtiyac olmayacaq", - deyə bildirilib.

Funksiya artıq aktiv inkişaf mərhələsindədir və gələcək messencer yeniləməsində görünəcək. Çox vaxt yeni "WhatsApp" funksiyaları əvvəlcə Android proqramında görünür, sonra isə iOS tətbiqinə yayılır.

*"Xalq qəzeti"*

## NASA kosmosa nüvəmühərrikli raket göndərəcək

**Mediada yayılan xəbərlərə görə, NASA bu onilliyin ikinci yarısında kosmosa nüvəmühərrikli raket göndərəcək. Bu prosesdə insanların həyatı təhlükə altında olmayacaq. Belə ki, nüvəmühərrikli raket Yer kürəsi səthindən təhlükəsiz məsafəyə qədər uzaqlaşdıqdan sonra çalışmağa başlayacaq.**



NASA bu layihə çərçivəsində ABŞ Müdafiə Nazirliyinin DARPA idarəsi ilə əməkdaşlıq edir. Bu idarə perspektivli tədqiqat layihələrinin reallaşdırılması üçün nəzərdə tutulub. Nüvəmühərrikli raketin kosmosa 2027-ci ildə göndərilməsi planlaşdırılır. Raketdə təqribi olaraq 10 000 ton itələmə qüvvəsi olan mühərrikin prototipindən istifadə ediləcək.

Müqayisə üçün qeyd etmək lazımdır ki, SpaceX şirkətinin Super Heavy adlı ağır raketində mövcud olan 33 ədəd Raptor V3 mühərriki ümumilikdə 9000 ton itələmə qüvvəsini təmin edir.

## BMW-nin 2 yeni elektromobili

**BMW şirkəti i5 seriyasının elektrikli sedanının tamamilə yeni versiyasını təqdim edib. Elektrik sedan iki versiyada təqdim edilib. BMW i5 M60 xDrive və i5 eDrive40. Hər iki elektromobil güclü mühərrik, yeni gövdə və təkmilləşdirilmiş multimedia sistemi ilə təchiz olunub.**

Bununla yanaşı, bu elektromobillər bir dəfə şarj olunandan sonra daha çox yol qət edə bilirlər. BMW i5 eDrive40 modeli 313 at gücündə olan bir ədəd elektrikli mühərriklə təchiz olunub. Sözügedən model saatda 100 km sürəti 5,7 saniyəyə yığır. Bununla belə bir dəfə şarj olunandan sonra o, 475 km yol qət edə bilir.

*Z.BƏŞİRQIZI, "Xalq qəzeti"*



*Sağlamlıq guşəsi*

## Aman kompüter əlindən...

**Rusiya vilayətlərinin birində 15 yaşlı yeniyetmə valideynlərinə dostunun yanında gecələyəcəyini deyib və onunla kompüter oyununa başlayıb. 12 saat kompüter arxasında oturduqdan sonra uşaq xəstəxanalıq olub. Əvvəlcə nitqi pozulub, sonra qıcolmalar başlayıb. Yeniyetmə xəstəxanaya çatdırılıb və onda beynin ödemi aşkarlanıb.**



Bu onu göstərir ki, xroniki problemlərlə birgə kompüter qarşısında keçirilən vaxt insanı ölümə sürükləyə bilər. Kompüter asılılığı çox vaxt bir sıra somatik problemlərlə müşayiət olunur. Hipodinamiyadan əzələlər zəifləyir, duruş pisləşir və skoliyoz inkişaf edir.

Oyuna həvəsli olan uşaqlar tez-tez aclıq və yuxusuzluq hiss etmirlər. Nəticədə orqanizm bərpa olunmayacaq həddə çatır.

*Z.HÜSEYNOVA, "Xalq qəzeti"*

*Proqnoz*

## Rayonlarda leysan və dolu gözlənilir



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən mayın 28-də Bakıda və Abşeron yarımadasında əsasən yağmursuz keçəcək. Şimal-qərb küləyi əsəcək, axşam cənub küləyi ilə əvəz olunacaq. Gecə 16-21°, gündüz 26-31° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda fasilələrlə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 16-21°, gündüz 30-35°, dağlarda gecə 8-13°, gündüz 13-18° isti olacaq.

*Q.QASIMOV, "Xalq qəzeti"*

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti rəisinin müşaviri Abbas Əliyevə atası

**MURAD MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5182
SİFARİŞ 1324
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00